RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 86 (8965) ÇƏRŞƏNBƏ AXŞAMI, 26 aprel 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Enerji sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 25-də İsrailin maliyyə naziri Aviqdor Libermanı qəbul edib.**

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə İsrail arasında bu il diplomatik əlaqələrin qurulmasının 30 illiyinin qeyd edildiyi vurğulandı, son dövrlərdə qarşılıqlı səfərlərin intensivliyinin və dinamikasının artması, həmçinin İsraildə Azərbaycan ticarət nümayəndəliyinin fəaliyyət göstərməsi və Turizm Mərkəzinin açılması müsbət amil kimi qiymətləndirildi.

Söhbət zamanı iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi və enerji sahəsində əməkdaşlıq məsələləri müzakirə olundu.

## Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi “İnstaqram” səhifəsində Pasxa bayramı münasibətilə paylaşım edib




**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi “İnstaqram” səhifəsində Pasxa bayramı münasibətilə paylaşım edib.**

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir:

"Azərbaycanın bütün xristian icmasını müqəddəs Pasxa bayramı münasibətilə səmimi-qəlbdən təbrik edirəm! Hamıya möhkəm cansağlığı, xoş duyğular və uzun ömür arzulayıram! Qoy hər bir Azərbaycan vətəndaşının həyatında nurlu, xoşbəxt günlərin sayı çox olsun! Uca Tanrı bu mübarək bayram günlərində edilən bütün duaları qəbul etsin!"



# Bunları İLHAM ƏLİYEV dedi

## Zəfər qurultayından sonraki düşüncələr

→ 3

## Azərbaycan Ermənistanla danışıqlara hazırdır



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 25-də Rusiya Federasiyasının Xarici İşlər Nazirliyinin Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsi İqor Xovayevi qəbul edib.**

→ 2

## Azərbaycan-Rusiya münasibətləri uğurla inkişaf edir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 25-də Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru İqor Babuşkinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

→ 2

## Proses "Bakı-Yerevan" formatında davam etməlidir

### İlham Əliyevin bu qətiyyətli mövqeyi Ermənistana razılaşmalara əməl etməkdən başqa yol qoymur

İkinci Qarabağ müharibəsindən sonra Azərbaycanın yaratdığı reallıqlar beynəlxalq ictimaiyyət tərəfindən tam qəbul olunur. Bu da ilk növbədə respublikamızın öz ərazi bütövlüyünü bərpa etməsinə ehtiramın nümunəsidir.

Başqa vacib məqam ondan ibarətdir ki, Azərbaycanın yaratdığı yeni reallıqlardan irəli gələrək "Dağlıq Qarabağ münaqişəsi", "status" kimi anlayışlar da beynəlxalq səviyyədə müzakirələrdən çıxıb.

#### Azərbaycanın yaratdığı reallıqlar regionun rifahı üçün əsas faktordur

Hazırkı mərhələdə Azərbaycanın prioritetləri münasibətlərin normallaşdırılması, sərhədlərin demarkasiyası və delimitasiyasıdır. Elə ötən ilin dekabrından başlamış Brüssel formatında da müzakirələr bu istiqamətdə, Bakının maraqlarına uyğun formatda davam edir. Aprelin 23-də Prezident İlham Əliyev və Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişel arasında baş tutan telefon söhbətinin məzmunu da bunu təsdiq edir.

Öncə onu qeyd edək ki, Brüssel formatında gündəliyə çıxarılan və müzakirə olunan məsələlər, əldə olunan razılaşmalar Azərbaycanın İkinci Qarabağ müharibəsindəki qələbədən sonra uğurlarını diplomatik sferada da qətiyyətlə davam etdirməsinin göstəricisidir.

→ 5

## İlham Əliyev Emmanuel Makronu təbrik edib

### Fransa Respublikasının Prezidenti zati-aliləri cənab Emmanuel Makrona

Hörmətli cənab Prezident!

Fransa Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi təbrik edirəm.

Bu il Azərbaycan ilə Fransa arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi qeyd olunur. İqtisadiyyat, energetika, o cümlədən neft-qaz yataqlarının istismarı, mədəniyyət, təhsil və qarşılıqlı maraq doğuran bir sıra digər sahələrdə uğurlu əməkdaşlıq əlaqələrimizi şərtləndirən başlıca amillərdəndir. Bu əməkdaşlığın bundan sonra da xalqlarımızın mənafeyi naminə birgə səylərimizlə davam etdiriləcəyinə inanıram.

Ümidvarıq ki, hazırda Avropa İttifaqına sədrlik edən Fransa Respublikası Cənubi Qafqazda davamlı sülhün və sabitliyin təmin olunması məqsədilə Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması, tərəfimizdən təqdim edilən beş prinsip əsasında ölkələr arasında sülh müqaviləsinin hazırlanması prosesinə öz dəstəyini verəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, qarşıdakı fəaliyyətinizdə müvəffəqiyyətlər diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 aprel 2022-ci il*



# Azərbaycan “FORMULA-1”ə hazırlaşır

→ 11

## Diriliş gecəsi



Gecə 03:00-a yaxınlaşır, atanın səsinə səs verən, duaları onunla bir ağızdan ritmik çalarlarla oxuyan insanlar 4 saat yorulmadan ayaq üstdə durmuşdular. Sonuncu mərasim isə keşiş Qreqorinin orucun bitdiyini elan etməsi ilə başa çatdı. Bu zaman o, altardan böyük bir qədəhlə çıxıb pilləkənlərdə dayandı. İnsanlar bir-birinin ardınca növbələrini gözləyirdilər. Ata hər birinə şəraba batırılmış çörəyi təqdim etdi. Çörək və şərab isə İsanın bədəninin və qanının rəmzləridir. Bununla da orucları yekunlaşan pravoslavlar 2 aylıq etiqadlarını başa vurmuş sayılırdılar.

→ 9

## ABŞ Prezidentinin bəyanatında 1915-ci il hadisələri ilə bağlı tarixi həqiqətlərin növbəti dəfə təhrif olunması təəssüf doğurur

→ 2

## 26 Aprel Beynəlxalq Əqli Mülkiyyət Günüdür

→ 7

## Ermənistan müxalifəti aksiyalara insanları pulla toplayır

→ 11

## Köndələnçay bağlara bar, tarlalara bərəkət gətirəcək



Köndələnçay üzərində 3 su anbarı var. Onlardan biri -"Köndələnçay-1" 1951-ci ildə inşa edilib. Bu su anbarının tutumu 2,1 milyon kubmetr təşkil edir. "Köndələnçay-2" anbarının isə 3,9 milyon kubmetr su tutumu var. Çay üzərində yerləşən ən böyük anbar Aşağı Köndələnçay su anbarıdır və 9,5 milyon kubmetr su tutumuna malikdir. Mütəxəssislərin fikrincə, sözügedən bu anbarlara həmçinin Köndələnçaya paralel axan Quruçaydan iki hidroqovşaq vasitəsi ilə su axıdılması mümkündür.

→ 8

# Azərbaycan Ermənistanla danışıqlara hazırdır



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 25-də Rusiya Federasiyasının Xarici İşlər Nazirliyinin Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsi İqor Xovayevi qəbul edib.**

AZƏRTAC xəbər verir ki, görüşdə Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması, sərhədlərin delimitasiyası və demarkasiyası, Azərbaycan tərəfinin təqdim etdiyi 5 prinsip əsasında iki ölkə arasında sülh müqaviləsinin hazırlanması məsələləri müzakirə olundu.

Prezident İlham Əliyev sülh müqaviləsinin hazırlanması üzrə Azərbaycan nümayəndə heyətinin və iki ölkə arasında sərhədlərin delimitasiyası və demarkasiyası üzrə Azərbaycan milli komissiyasının tərkibinin müəyyən edildiyini vurğuladı, ölkəmizin Ermənistanla danışıqlara hazır olduğunu qeyd etdi.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər regional məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

# Azərbaycan-Rusiya münasibətləri uğurla inkişaf edir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 25-də Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru İqor Babuşkinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, ölkəmizin Rusiyanın ayrı-ayrı subyektləri, o cümlədən Həştərxan vilayəti ilə uzun illər səmərəli əməkdaşlıq həyata keçirdiyi bildirildi.

Söhbət zamanı ölkəmizlə Həştərxan vilayəti arasında ticari-iqtisadi, nəqliyyat, tranzit, gəmiqayırma, limanlararası əlaqələr sahələrində əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı. Bakıda Həştərxan İş Mərkəzinin, Həştərxanda isə Heydər Əliyev Fondunun dəstəyi ilə inşa edilən Azərbaycan İş Mərkəzinin fəaliyyət göstərməsinin önəmi qeyd olundu.

Görüşdə humanitar sahədə əməkdaşlıq məsələlərinə toxunuldu, Heydər Əliyev Fondunun Həştərxan vilayətində həyata keçirdiyi mühüm layihələr məmnunluqla xatırlandı. Həştərxanda 10 ildən çoxdur ki, fəaliyyət göstərən Heydər Əliyev adına Məktəbin humanitar sahədə əlaqələrimizin inkişafına töhfə verdiyi vurğulandı.

Söhbət zamanı İqor Babuşkinin səfərinin əməkdaşlığımızın daha da genişlənməsi işinə töhfə verəcəyinə əminlik ifadə olundu.

## "Pensiya yaşına çatmasına, əlilliyinə, o cümlədən sağlamlıq imkanlarının məhdudluğuna görə könüllü işdən çıxmış, dövlət qulluğu vəzifəsində minimum qulluq stajına (15 il) və əmək pensiyası almaq hüququna malik olmayan dövlət qulluqçularına təyin edilən ömürlük müavinətin miqdarı haqqında" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 22 oktyabr tarixli 936 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 2 iyul tarixli 358-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

"Pensiya yaşına çatmasına, əlilliyinə, o cümlədən sağlamlıq imkanlarının məhdudluğuna görə könüllü işdən çıxmış, dövlət qulluğu vəzifəsində minimum qulluq stajına (15 il) və əmək pensiyası almaq hüququna malik olmayan dövlət qulluqçularına təyin edilən ömürlük müavinətin miqdarı haqqında" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 22 oktyabr tarixli 936 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 10, maddə 541; 2008, № 7, maddə 612; 2018, № 8, maddə 1692; 2020, № 8, maddə 1038; 2021, № 8, maddə 919) aşağıdakı dəyişikliklər edilsin:

1. Adında "qulluq stajına (15 il)" sözləri "15 il qulluq stajına" sözləri ilə əvəz edilsin.

2. 1-ci hissədə "qulluq stajına" sözləri "15 il qulluq stajına (həmin Qanunun 23.2-1-ci maddəsində nəzərdə tutulan hal istisna olmaqla)" sözləri ilə əvəz edilsin.

3. 3-cü hissənin ikinci abzasına "minimum" sözündən sonra "15 il" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 aprel 2022-ci il*

## Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyəti sahəsində fərqlənən şəxslərin təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının iqtisadi inkişafına verdikləri töhfəyə və sahibkarlıq sahəsində səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**"Dostluq" ordeni ilə**

Hisarcıklıoğlu Mustafa Rifat

**"Tərəqqi" medalı ilə**

Alısoy İbrahim Aydın oğlu
Aslanov Zöhrab Vəli oğlu
Babayev Abbas Qəzənfər oğlu
Babayev Bəxtiyar Ağamir oğlu
Bağırlı Adil Tofiq oğlu
Bağmanov Hikmət Kamal oğlu
Büyükfırat Hüseyin Mehmet oğlu
Cabbarov Yusif Həsən oğlu
Çulaqov Rəşid Yasin oğlu
Hümmətov Qalib Xanlar oğlu
İsmayılov Əfqan Sultanəli oğlu
Karaşahin Ramazan Əbubəkir oğlu
Quliyev Ehtiram Tofiq oğlu
Quliyev Ruslan Gəray oğlu
Məmmədov Tofiq Rafiq oğlu
Məmmədov Zaur Samiddin oğlu
Mirzəyev Əli Məmməd oğlu
Traldi Manuela Stefano.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 aprel 2022-ci il*

## Gəncə Şəhər Məhkəməsinin təşkili haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Gəncə şəhərində Gəncə Şəhər Məhkəməsi təşkil edilsin.

2. Gəncə şəhəri Kəpəz Rayon Məhkəməsi və Gəncə şəhəri Nizami Rayon Məhkəməsi ləğv edilsin.

3. Məhkəmə-Hüquq Şurasına tövsiyə edilsin ki:

3.1. Gəncə Şəhər Məhkəməsinin təşkili ilə əlaqədar məhkəmələrin ərazi yurisdiksiyasında müvafiq dəyişikliklər etsin;

3.2. Gəncə Şəhər Məhkəməsinin hakimlərinin ştat sayını müəyyən etsin;

3.3. Gəncə Şəhər Məhkəməsinin hakimlərinin təyin edilməsi ilə bağlı təkliflərini 2022-ci il iyunun 1-dək Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. Gəncə Şəhər Məhkəməsinin fəaliyyəti üçün zəruri şərait yaradılması məqsədilə onun bina, avadanlıq, rabitə, nəqliyyat və digər təşkilati-texniki vasitələrlə təmin edilməsi ilə bağlı tədbirlər görsün;

4.2. Gəncə Şəhər Məhkəməsinin fəaliyyətinin təşkili ilə bağlı xərclərin 2022-ci ilin dövlət büdcəsində Gəncə şəhəri Kəpəz Rayon Məhkəməsinin və Gəncə şəhəri Nizami Rayon Məhkəməsinin saxlanılması üçün nəzərdə tutulmuş vəsait çərçivəsində maliyyələşdirilməsi və növbəti illərin dövlət büdcəsi layihələrində nəzərdə tutulması üçün tədbirlər görsün;

4.3. Gəncə Şəhər Məhkəməsinin hakimləri təyin edilənədək Gəncə şəhəri Kəpəz Rayon Məhkəməsinin və Gəncə şəhəri Nizami Rayon Məhkəməsinin fəaliyyətinin maliyyələşdirilməsini təmin etsin;

4.4. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

5. Bu Sərəncamın 1-ci və 2-ci hissələri 2022-ci il iyulun 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 aprel 2022-ci il*

## Ceyhun Bayramov Rusiya XİN-in Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsi ilə görüşüb

Aprelin 25-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Rusiya Federasiyasının Xarici İşlər Nazirliyinin Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsi İqor Xovayev ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə tərəflər Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində atılan addımlar üzrə fikir mübadiləsi aparıblar.

Tərəflər Ermənistan və Azərbaycan arasında gələcək sülh müqaviləsinin işlənib hazırlanması, bütün kommunikasiya xətlərinin açılması və sərhədlərin delimitasiyası prosesinin başlanması sahəsində mövcud vəziyyəti müzakirə ediblər.

Azərbaycan tərəfinin bölgədə sülh və təhlükəsizliyin təmin olunması üçün müvafiq addımları atmağa hazır olduğu vurğulanıb.

Rusiya XİN-in xüsusi nümayəndəsi İqor Xovayev Rusiya Federasiyasının qeyd edilən bütün istiqamətlər üzrə irəliləyişin əldə edilməsini dəstəkləməyə hazır olduğunu bir daha qeyd edib.

Görüşdə tərəflər həmçinin qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

## Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri arasında telefon danışığı olub




Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Ermənistan Respublikasının xarici işlər naziri Ararat Mirzoyan arasında telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazirlər iki dövlətin liderləri səviyyəsində əldə edilmiş razılaşmaların davamı olaraq fikir mübadiləsi aparıblar. Tərəflər Birgə Sərhəd Komissiyasının iştirakçılarının parametrləri barədə razılığa gəliblər.

Birgə Sərhəd Komissiyasının, habelə sülh müqaviləsinin işlənib hazırlanması ilə bağlı işçi qrupunun görüşlərinin yaxın zamanlarda təşkil olunmasına dair razılıq əldə edilib.

Tərəflər həmçinin humanitar sahədə addımların davam etdirilməsi ilə bağlı fikir mübadiləsi aparıblar.

## Xarici işlər naziri Ceyhun Bayramov ATƏT-in media azadlığı üzrə nümayəndəsi ilə görüşüb

Aprelin 25-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ölkəmizə səfəri çərçivəsində ATƏT-in media azadlığı üzrə nümayəndəsi xanım Tereza Ribeyro ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycanda media azadlığı istiqamətində görülən işlər barəsində fikir mübadiləsi aparılıb. Nazir Ceyhun Bayramov Azərbaycanın ATƏT ilə bütün istiqamətlər, o cümlədən media azadlığı sahəsində əməkdaşlığa əhəmiyyət verdiyini qeyd edib. Nazir qarşı tərəfə münaqişə sonrası bölgədə mövcud olan vəziyyət, iki dövlət arasında münasibətlərin normallaşması istiqamətində atılan addımlar, habelə Azərbaycan hökuməti tərəfindən azad olunmuş ərazilərdə aparılan işlər, qurbanları arasında jurnalistlərin də olduğu mina təhlükəsi və minaların təmizlənməsi işləri, habelə bölgədə etimadın quruculuğu sahəsində medianın rolu barədə məlumat verib.

Xanım Teresa Ribeiro Azərbaycana səfəri çərçivəsində zəngin proqramın təşkilini qeyd edib, ətraflı məlumata görə nazir Ceyhun Bayramova təşəkkürünü bildirib. Media azadlığının sülh və təhlükəsizliyin əsas elementi olduğunu qeyd edən nümayəndə etimad quruculuğu tədbirləri çərçivəsində media nümayəndələrinin rolunu vurğulayıb və bu xüsusda ATƏT-in müvafiq dəstəyi göstərə biləcəyini bildirib.

Görüşdə tərəflər arasında dialoqun davam etdirilməsinin əhəmiyyəti vurğulanıb.

## ABŞ Prezidentinin bəyanatında 1915-ci il hadisələri ilə bağlı tarixi həqiqətlərin növbəti dəfə təhrif olunması təəssüf doğurur

"ABŞ Prezidenti Co Baydenin erməni anım günü münasibətilə səsləndirdiyi bəyanatında növbəti dəfə 1915-ci il hadisələri ilə bağlı tarixi həqiqətlərin təhrif olunması təəssüf doğurur".

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin ABŞ Prezidentinin erməni anım günü münasibətilə çıxışına dair şərhində bildirilib.

Qeyd edilib ki, bir əsr bundan əvvəl baş verən hadisələrin yanlış şəkildə təqdim edilməsi və qondarma "erməni soyqırımı" məsələsinin siyasiləşdirilərək gündəmə gətirilməsi cəhdləri qəbuledilməzdir.

ABŞ Prezidentinin bu bəyanatı həmçinin hazırda Türkiyə və Ermənistan arasında münasibətlərin normallaşması məqsədilə aparılan danışıqlara uyğun gəlmir.

1915-ci il hadisələri siyasətçilər deyil, tarixçilər tərəfindən araşdırılmalıdır. Tarixin saxtalaşdırılması cəhdləri və onun siyasi təzyiq məqsədilə istifadə edilməsi qəbuledilməzdir.

***Şuşanın işğaldan azad olunması tarixindən sonra bu qədim Azərbaycan şəhərində daha bir tarixi hadisə baş verdi.***
***Dünya Azərbaycanlılarının V Zəfər Qurultayı burada keçirildi.***
***Qurultayın ən mühüm hadisəsi isə, şübhəsiz, bu məclisdə Azərbaycan Prezidenti İlham Əliyevin söylədiyi parlaq və möhtəşəm nitq oldu!***
***Hər sözü, hər cümləsi tarixi faktlara söykənən, dərin məna daşıyan bu nitq daim yaddaşlarda yaşayacaqdır.***
***Müzəffər Ali Baş Komandan İlham Əliyevin söylədiyi hər cümlənin, hər fikrin arxasında daha dərin hadisə və mənalar dayanır.***
***Nitqdən seçdiyimiz ayrı-ayrı cümlələr ətrafında birlikdə düşünək.***

**"Zəfər adı xalqımıza çox yaraşır"**

Xalqımız otuz il səbir etdikdən sonra 44 gündə böyük Zəfər qazandı!

Qurultay iştirakçıları əsgərlərimizin Şuşaya hücum etdikləri cığır əsasında çəkilən Zəfər yolu ilə gəlmişdilər.

Bu gün işğaldan azad olunmuş rayonların mərkəzlərində Zəfər muzeyləri yaradılır.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin müharibə meydanında qazandığı zəfəri diplomatiya və informasiya cəbhəsində də təkrarlandı.

İndi isə Vətən müharibəsində qazanılan Zəfər Qarabağın bərpası və quruculuğu, cənnətə çevrilməsi sahəsində təkrar edilir.

Erməni heç vaxt təkbaşına vuruşaraq bizdən torpaq qoparıb onu otuz il işğalda saxlaya bilməzdi!

Bu dəfə biz erməni ilə təkbətək döyüşdük!

Doğrudur, 44 gün ərzində onlara güclü şəkildə dəstək verənlər, gecə-gündüz dayanmadan təyyarələrlə silah-sursat daşıyanlar, hava məkanlarını üzlərinə açanlar, ordularında vuruşan muzdlular, müharibəni dayandırmaq üçün xahiş-minnət edənlər oldu.

AMMA...

Azərbaycan XXI əsrin ən yeni müharibəsini apardı!

Heç kəsin gözləmədiyi silahlardan bacarıqla istifadə etdi, ən yeni strategiya və taktika tətbiq etdi!

- 1915-ci ildə, guya, türklər tərəfindən "soyqırımına" məruz qaldıqlarını iddia etməklə;
- "Qədim və mədəni xalq" olduqlarını bəyan etməklə və s.

Amma bunların hamısı uydurulmuş erməni əfsanələri və cəfəngiyyatdır!

Çünki heç bir maddi sübutu, hansısa arxivdə təsdiqini tapan sənədə əsaslanmır!

Odur ki, ermənilər arxivlərə getməkdən, elmi mübahisələrə girişməkdən qorxurlar!

Bilirlər ki, paxırları açılacaqdır!

Azərbaycan xalqının isə tarixi göz qabağındadır!

Əldə olan, yaddaşlarda yaşayan sənəd-sübutları var!

Tarixçilərin salnamələrində, dövlət sənədlərində, tarix kitablarında şəkilləri görünən, bəlli dövlət başçıları tərəfindən möhürlərlə təsdiqlənmiş sənədlər bu gün də yaşayır.

Həmin sənədlər sübut edir ki, Azərbaycan xalqı Qarabağın, habelə ermənilərin yaşadığı və indiki Ermənistan dövlətinin yerləşdiyi ərazilərin əsl sahibidirlər.

Ermənilər bu torpaqlara sonradan, çar Rusiyası tərəfindən köçürülüblər!

Kürəkçay, Gülüstan, Türkmənçay sülh müqavilələri arxivlərdə qorunub saxlanılıb.



# Bunları İLHAM ƏLİYEV dedi

Bəxtiyar SADIQOV

## Zəfər qurultayından sonrakı düşüncələr

❖❖❖

**"Müstəqillik dövründə yetişən gənclər, vətənpərvərlik ruhunda yetişən gənclər bu tarixi hadisəni, tarixi müjdəni Azərbaycan xalqına bəxş etmişlər"**

Əslində, uzun və mənasız danışıqlar prosesi işğal prosesinin əbədiləşdirilməsinə xidmət edirdi.

Ermənilər elə güman edirdilər ki, Qarabağı görməyənlər, işğaldan sonra doğulanlar torpaqları unudacaq, onun uğrunda döyüşməyəcəklər...

Lakin yalnız ermənilər kimi vətənsizlər, daim özgə torpaqlarında özlərinə dövlət qurmaq istəyənlər belə düşünərlər!

Cənab İlham Əliyev ölkəyə rəhbərliyi dövründə yeni - əsl vətənpərvər, düşmənə nifrət, Vətənə sədaqət ruhunda böyüyən gənclər nəsli tərbiyələndirdi.

Bu gənclər işğalla heç zaman barışmayacaqlarını bildirdilər, sonuncu dəfə 15 iyul 2020-ci ildə paytaxtın küçələrinə axışaraq Ali Baş Komandanın "İrəli" hücum əmrini gözlədiklərini qətiyyətlə bəyan etdilər.

Bu gənclər həm Azərbaycanda, həm də dünyanın müxtəlif ali hərbi məktəblərində oxuyaraq hərbi biliklərə yiyələndilər!

Bu gənclər xüsusi təyinatlılar kimi hazırlanaraq ordumuzun vuran əlinə çevrildilər.

Bu gənclər gözlərini qırpmadan düşmən üzərinə gedərək müqəddəs şəhidlik zirvəsinə yüksəldilər!

Bu gənclər əvvəlcə erməniləri beynəlxalq idman yarışlarında, təkbətək mübarizədə məğlub edərək himnimizi səsləndirdilər, bayrağımızı ucaltdılar.

Ən nəhayət, qüdrətli ordumuzda çarpışaraq düşməni məhv etdilər, Şuşanı isə yalın əllə, əlbəyaxa çarpışmada aldılar.

❖❖❖

**"Biz təkcə Ermənistanla müharibə aparmamışıq, biz təkcə dünya erməniliyi ilə müharibə aparmamışıq, biz Ermənistanın himayədarları ilə müharibə aparmışıq və bu müharibədə qələbə qazanmışıq"**

Erməni heç vaxt öz ağzı ilə hürməyib!

Erməni heç vaxt tək özünə güvənərək özgə torpağına göz dikməyib!

Arxalı köpək qurd basar, - demişlər. Erməni bəlli müdafiəçilərinə, ikili standartlarla fəaliyyət göstərən beynəlxalq təşkilatlara, diaspor pulu ilə ələ alınmış satqın siyasətçilərə, pulsuz əldə etdiyi silahlara arxalanaraq Azərbaycanla müharibə edib.

Daima hücuma keçdi, düşmən ordusunu bütün parametrlər üzrə darmadağın edərək qorxaqlar və fərarilər dəstəsinə çevirdi!

Müzəffər Ali Baş Komandan İlham Əliyevin irəli sürdüyü şərtlər, düşmənin torpaqlarımızdan rədd olub getmə tarixi və cədvəli təqdim edilməyənədək hücum əməliyyatları dayandırılmadı.

Bəli, 44 günlük qabaq-qənşər döyüş kimin kim olduğunu bütün dünyaya göstərdi!

Ermənistan havadarları və müdafiəçiləri ilə birgə biabırçı məğlubiyyətə uğradıldı!

❖❖❖

**"Biz təkcə işğalçını yox, faşistləri məhv etdik"**

Azərbaycan Ordusu 44 gün ərzində 300-dən çox şəhər və kəndi döyüş meydanında azad etdi, kapitulyasiya aktını imzalayan düşmən daha sonra Ağdam, Laçın və Kəlbəcəri boşaltdı.

İşğal ərazilərində bir dənə də salamat bina və tikili yox idi.

Düşmən binaları daşbadaş satmış, əlinə keçəni pula çevirmişdi.

Xarici ekspertlər və jurnalistlər Ağdamı atom bombası ilə dağıdılmış Xirosimaya bənzədirlər.

Gorešənlik edən ermənilər qəbirləri qazaraq ölülərin qızıl dişlərini oğurlayıblar.

Məscidlərimizi dağıdıb, təhqir edib, heyvan saxlanan tövləyə çeviriblər.

Tarixi və mədəniyyət abidələrini, qəbiristanlıqları dağıdıb, su mənbələrini çirkləndirib, meşə və bağları qırıb aparıblar.

Ermənilər işğal etdikləri bütün əraziləri yerləyeksan edərək burada heç bir insanın yaşaya bilməyəcəyi vəziyyət yaratmışlar.

Bütün bunlar qeyri-insani hərəkətlərdir!

Bütün bunlar faşizmə məxsus əməllərdir!

44 günlük Vətən müharibəsində Azərbaycan Ordusu, əslində, erməni faşizmini məhv edib.

Biz Cənubi Qafqazı faşizmdən xilas etmişik!

❖❖❖

**"Tarixi amillər həmişə istənilən münaqişənin siyasi və digər yollarla həll edilməsi üçün çox vacibdir"**

Erməni həmişə özünə saxta tarix düzəldib:

- Yalançı "tarix əsərləri" yazmaqla;
- Torpağa "qədimi əşya" basdırıb sonra onu üzə çıxarmaqla;
- Alban kilsələrinin memarlıq elementlərini, yazılarını dəyişib özününküləşdirməklə;
- Nə vaxtsa dənizdən-dənizədək davam edən "böyük Ermənistan dövləti"nin mövcudluğunu söyləməklə;

Kürəkçay müqaviləsində Şuşalı və Qarabağlı İbrahimxəlil xanın imzası var!

1920-ci ildə sovet hakimiyyəti tərəfindən Zəngəzurun Azərbaycandan qoparılıb Ermənistana verilməsi tarixi faktdır.

1923-cü ilin 7 iyulunda Azərbaycan ərazisində "Dağlıq Qarabağ Muxtar Vilayəti" adlı əsassız, süni bir qurumun yaradılması tarixi gerçəklikdir.

1948-1953-cü illərdə Ermənistanda yaşayan azərbaycanlıların sovet hakimiyyəti tərəfindən Kür-Araz ovalığına deportasiyası hələ də tarixdə və sənədlərdə qeyri-insani addım kimi yaşayır.

Bu tarixi biz hamımız, bütün dünya azərbaycanlıları bilməlidirlər və yadda saxlamalıdırlar!

Mübarizəmizin yeni, indiki mərhələsində bu faktları və sənədləri dünya ictimaiyyətinə çatdırmalı, daim onlara istinad etməli, əsaslanmalıyıq.

❖❖❖

**"Biz hamımız - Azərbaycanda yaşayan azərbaycanlılar istəyirik ki, xaricdə yaşayan azərbaycanlılar öz tarixi vətəni ilə sıx bağlı olsunlar"**

- Müstəqil Azərbaycanı unutmasınlar, ildə bir dəfə ailələri ilə birlikdə gəlib Vətənlərini ziyarət etsinlər;
- Azərbaycan dilini yaddan çıxarmasınlar, övladlarına da öyrətsinlər;
- Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında, Azərbaycan dövlətinin maraqlarının müdafiəsində fəal iştirak etsinlər, təşkilatlansınlar, Diaspor Komitəsi ilə sıx əlaqə saxlasınlar;
- Daim güclənsinlər, yaşadıqları ölkələrin ictimai-siyasi həyatında fəallıq göstərsinlər;
- Diaspor təşkilatlarımız fəaliyyət göstərdikləri ölkələrin daxili siyasətinin amilinə çevrilə bilsinlər;
- Doğma Azərbaycanı unutmasınlar, yaşadıqları yerlərdə ləyaqətlə təmsil etsinlər;
- Azərbaycanlı iş adamları, imkanlı şəxslər ölkəmizə gələrək işğaldan azad olunmuş torpaqlara sərmayə qoysunlar, Qarabağın dirçəldilməsində yaxından iştirak etsinlər!

❖❖❖

**"Bu gün alnımız açıqdır, bu gün üzümüz gülür, bu gün başımız dikdir və həmişə belə olacaq"**

Qələbə sevinci, qələbə fərəhi ilə yaşayan Azərbaycan xalqı canı və qanı, şəhid övladlarının həyatı bahasına azad etdiyi Qarabağ torpağında, Şuşada Zəfər qurultayı keçirərək dünyanın hər yerində yaşayan övladlarının nümayəndələrini başına yığdı.

Uzun müddət dünyada məğlub xalq sayılaraq başıaşağı, diliqısa idik!

Bu gün isə düşmənimizi doğma torpaqlarımızdan qovaraq möhtəşəm qələbə qazanmışıq!

Müzəffər Ali Baş Komandan İlham Əliyev möcüzəvi qələbəsi sayəsində qalib xalqa, torpağına sahib çıxan xalqa, alçaq düşmənindən qisasını alan xalqa çevrilmişik!

Bu gün dünyanın harasında yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlının gülüb-sevinməyə, fərəh hissi keçirməyə, məğrur və qürurlu gəzməyə, başını dik tutmağa haqqı var!

Azərbaycan Prezidenti İlham Əliyevin Zəfər qurultayında söylədiyi dərin mənalı nitqin yekun cümlələri isə möhtəşəm qələbədən doğan sevinc, məmnunluq və qürur hissinin ifadəsi olmaqla yanaşı, həm də dünyaya bir mesajdır:

"Mən tam əminəm ki, bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi əbədi yaşayacaq, Azərbaycan dövləti qalib dövlət kimi əbədi yaşayacaq. Biz öz torpaqlarımızdayıq, bu torpaqda möhkəm dayanmışıq və heç kim heç vaxt bu torpaqlardan bizi tərpədə bilməz.

Yaşasın Şuşa! Yaşasın Qarabağ!"

# Prezident İlham ƏLİYEV: "Elə etməliyik ki, erməni faşizmi bundan sonra heç vaxt baş qaldırmasın"

**"Bəli, biz deyirik ki, sülh olmalıdır. Ancaq heç vaxt erməni vəhşiliyini, erməni faşizmini unutmamalıyıq. Xocalı qurbanlarını unutmamalıyıq. Gəncə qurbanlarını, digər şəhərlərimizin qurbanlarını heç vaxt unutmamalıyıq və unutmayacağıq. Onların müqəddəs ruhu qarşısında baş əyərək bir daha deyirik ki, onların qanı yerdə qalmadı. Onların yaxınları üçün bəlkə də bu, təsəlli ola bilər. Eyni zamanda deyirik ki, biz müzəffər xalqıq, biz qalib dövlətik. Erməni faşizminin məğlub etdik. Elə etməliyik ki, erməni faşizmi bundan sonra heç vaxt baş qaldırmasın".**




AZƏRTAC xəbər verir ki, "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin çapdan yeni çıxmış 117-cı kitabında yer alan bu fikirləri dövlət başçısı 2022-ci il yanvarın 30-da Gəncədə Azərbaycan Dövlət İnformasiya Agentliyinə - AZƏRTAC-a müsahibəsində söyləyib.

Çoxcildliyin bu kitabındakı materiallar 2022-ci ilin yanvar-fevral aylarını əhatə edir.

Kitaba Azərbaycan Prezidentinin Rusiyaya rəsmi səfəri, Prezident Vladimir Putin ilə görüşü haqqında məlumat, iki ölkənin liderlərinin imzaladığı "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə"nin, Rusiya və Azərbaycan prezidentlərinin mətbuata bəyanatlarla çıxışlarının mətnləri, dövlətimizin başçısının TASS Agentliyinin mənzil-qərargahında "Rusiya və Azərbaycanın diplomatik münasibətlərinin 30 ili TASS və AZƏRTAC-ın fotolarında" adlı ekspozisiya ilə tanışlığı, həmçinin səfər çərçivəsində digər tədbirlər barədə informasiyalar daxil edilib.

Prezident İlham Əliyevin Ukraynaya işgüzar səfəri, Prezident Volodimir Zelenski ilə görüşünə və sənədlərin imzalanmasına dair materiallar, mətbuata bəyanatlar da bu nəşrdə yer alıb.

Regionların inkişafını daim diqqət mərkəzində saxlayan Prezident İlham Əliyev 2022-ci il yanvarın 30-da Gəncəyə səfər edib, Dövlət Dram Teatrının yeni binasının, Gəncə regional "ASAN xidmət" Mərkəzinin açılışlarında, Gəncə Memorial Kompleksinin təməlqoyma mərasimində və digər tədbirlərdə iştirak edib. Bütün bunlar haqqında xəbərlər və dövlət başçısının Gəncədə AZƏRTAC-a müsahibəsinin mətni, eləcə də fevralın 13-də Ağdam və Ağcabədi rayonlarına səfəri ilə bağlı geniş informasiyalar yeni kitabda toplanıb.

Oxucu 117-ci cilddə Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 30 illiyinə və Prezident İlham Əliyevin 60 illik yubileyinə həsr olunmuş və "Rossiya 24" telekanalında yayımlanmış "Hakimiyyət formulu" verilişinin mətni ilə də tanış ola bilər.

Həmçinin yeni kitaba dövlətimizin başçısının Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkətinin ölkəmizdə inşa edəcəyi "Xızı-Abşeron" Külək-Elektrik Stansiyasının təməlqoyma mərasimində, "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin VIII toplantısında, Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunmuş Gənclər Forumunda və digər tədbirlərdə çıxışlarının, habelə "Qobu" Enerji Qovşağının açılışından sonra AZƏRTAC-a müsahibəsinin mətnləri daxil edilib.

Nəşrdə Azərbaycan Prezidentinin Türkiyə Prezidentinə, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş nazirinə, İki Müqəddəs Ocağın xadimi, Səudiyyə Ərəbistanı Kralına həmin ölkələrlə respublikamız arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi münasibətilə ünvanlandığı məktublar da verilib.

"Azərnəşr" tərəfindən buraxılan çoxcildliyin 117-ci kitabının hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# 38 maddəyə dəyişikliklər edilir

Aprelin 25-də Milli Məclisin Aqrar siyasət komitəsinin iclası keçirilib. İclasda "Qida təhlükəsizliyi haqqında" qanun layihəsi (üçüncü oxunuş) müzakirə olunub.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitənin sədri Tahir Rzayev bildirib ki, qanun layihəsi Azərbaycan Respublikasının ərazisində insanların, həmçinin heyvanların həyat və sağlamlığının, habelə istehlakçıların hüquqlarının müdafiəsi üçün qida və yem məhsullarının təhlükəsizliyinin təmin edilməsi ilə bağlı münasibətləri tənzimləyəcək.

Tahir Rzayev qeyd edib ki, sənəd komitədə və plenar iclasda iki oxunuşda geniş müzakirə olunub və qəbul edilib. Plenar iclasda deputatlar tərəfindən verilmiş təkliflərin bir çoxu qanun layihəsində öz əksini tapıb. Sənədin qəbulunun bu günün reallığı üçün vacib olduğunu bildirən komitə sədri vurğulayıb ki, layihə komitə üzvlərindən, Milli Məclis Aparatının müvafiq şöbəsinin və aidiyyəti qurumların nümayəndələrindən ibarət işçi qrupu tərəfindən işlənilib və 38 maddəyə dəyişikliklər olunub.

Deputatlar Sabir Hacıyev, Elşən Musayev, Eldar Quliyev, İqbal Məmmədov, Azər Badamov, Etibar Əliyev qida zəncirinin bütün mərhələlərində standartlara əməl olunması və digər məsələlərlə bağlı fikirlərini bildiriblər. İclasda iştirak edən Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli Milli Məclisin Sədri başda olmaqla bütün Milli Məclis üzvlərinə qanun layihəsinin geniş müzakirəsi üçün təşəkkürünü bildirib. Qeyd edib ki, bu qanunun tətbiqi əhalinin sağlamlığının qorunması, qida təhlükəsizliyinin təmin edilməsi, məhsuldarlığın artırılması və ölkəmizdə istehsal olunan məhsulların ixrac potensialını genişləndirmək məqsədi daşıyır. Agentlik sədri iclasda deputatların qaldırdıqları məsələlərə aydınlıq gətirib.

Müzakirələrin sonunda qanun layihəsi üçüncü oxunuşda Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə olunub.

***Ülkər XASPOLADOVA, "Azərbaycan"***

# Azərbaycan ilə İsrail arasında fövqəladə hallarla mübarizə üzrə hökumətlərarası sazişin imzalanması məsələləri müzakirə olunub



Aprelin 25-də Fövqəladə Hallar Nazirliyinin (FHN) inzibati binasında Azərbaycan Respublikasının fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov ölkəmizdə səfərdə olan İsrail Dövlətinin maliyyə naziri Aviqdor Libermanla görüşüb.

FHN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qonağı salamlayan nazir Kəmaləddin Heydərov ölkələrimiz arasında münasibətlərin yüksələn xətlə inkişaf etdiyini xatırladıb. O, Aviqdor Libermana Fövqəladə Hallar Nazirliyinin fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verib. İki ölkənin uyğun qurumları arasında əlaqələrin genişləndirilməsi üçün yaxşı potensialın olduğunu vurğulayan nazir bu çərçivədə gələcəkdə fövqəladə halların idarə edilməsi üzrə hökumətlərarası sazişin imzalanmasının göstərilən istiqamətdə əlaqələrin inkişafına təkan verə biləcəyini qeyd edib.

Səmimi görüşə görə təşəkkürünü bildirən İsrailin maliyyə naziri Aviqdor Liberman ölkələrimiz arasında yüksəksəviyyəli əlaqələrin mövcud olduğunu qeyd edib. A.Liberman hər iki ölkənin uyğun qurumları arasında əlaqələrin genişləndirilməsinin əhəmiyyətinə toxunaraq, fövqəladə hallarla mübarizə üzrə hökumətlərarası sazişin potensial olaraq imzalanması ilə bağlı səsləndirilən məsələni müsbət qiymətləndirdiyini bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunub.

# Azərbaycan və İsrail arasında yeni nəsil ödəniş vasitələri ilə bağlı müzakirələr aparılıb



Aprelin 25-də Azərbaycan Respublikası Maliyyə Nazirliyində ölkəmizdə səfərdə olan İsrailin maliyyə naziri Aviqdor Libermanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan və İsrail arasında siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin yüksələn xətt üzrə inkişaf etdiyi məmnunluqla qeyd olunub, iki ölkə arasında iqtisadi-maliyyə, kiber təhlükəsizlik, yeni hesablaşma sistemləri və yeni nəsil ödəniş vasitələri, dövlət maliyyəsinin idarə edilməsi, qabaqcıl təcrübə və texnologiyalar sahəsində təcrübə mübadiləsinin genişləndirilməsi ilə bağlı məsələlər və əməkdaşlığın inkişaf etdirilməsi perspektivləri müzakirə olunub. Nazir Samir Şərifov israilli həmkarını İsrailin bir neçə gün əvvəl Asiya İnkişaf Bankına üzv qəbul olunması münasibətilə təbrik edib, digər sahələrdə olduğu kimi dövlətlərarası beynəlxalq maliyyə təşkilatları çərçivəsində də Azərbaycan və İsrailin qarşılıqlı fəaliyyətinin genişlənəcəyinə əminliyini ifadə edib.

Öz növbəsində Aviqdor Liberman İsrailin Asiya İnkişaf Bankına üzv qəbul edilməsində Azərbaycan tərəfinin göstərdiyi dəstəyə görə minnətdarlığını bildirib.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər üzrə də fikir mübadiləsi aparılıb.

# Azərbaycan mətbuat azadlığı sahəsində yeni mərhələyə qədəm qoyub



Aprelin 25-də Milli Məclis Sədrinin birinci müavini, parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli ATƏT-in media azadlığı üzrə nümayəndəsi Tereza Ribeyro ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonağı salamlayan Əli Hüseynli bildirib ki, Azərbaycanın Avropa təsisatları ilə insan hüquqları sahəsində əməkdaşlığı uğurla davam edir. O, ATƏT-in media azadlığı üzrə nümayəndəsinin səfərinin və səfər çərçivəsində keçirəcəyi görüşlərin də bu istiqamətdə effektli və səmərəli olacağına inamını ifadə edib.

Azərbaycanda media azadlığı sahəsində görülən işlərdən söz açan birinci vitse-spiker yeni qəbul olunmuş "Media haqqında" qanundan bəhs edib. Qanunun geniş dinləmələrdən, müxtəlif platformalarda müzakirələrdən keçdiyini bildirən birinci vitse-spiker layihənin parlamentəqədər müzakirələrində 800-ə yaxın media ekspertinin və jurnalistin iştirak etdiyini vurğulayıb. Layihənin parlamentdə iki komitədə - aparıcı komitə olaraq İnsan hüquqları komitəsində və Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxıldığını və komitə müzakirələrində ölkənin 100-dən çox aparıcı media qurumundan nümayəndələrin dəvət olunduğunu diqqətə çatdırıb. Əli Hüseynli qanun layihəsinin parlamentdə müzakirələri zamanı maraqlı tərəflərin fikirlərinin nəzərə alındığını və vahid nəticəyə gəlindiyini bildirib.

Görüşdə iştirak edən Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc "Media haqqında" qanunun qəbulunu mətbuat azadlığı sahəsində Azərbaycanın yeni mərhələyə qədəm qoyması, media sahəsində sürətlə dəyişən çağırışları və tələbləri tənzimləmək üçün yeni təkmil normativ-hüquqi bazanın yaradılması kimi xarakterizə edib.

O, qanun layihəsinin parlamentdə keçən geniş müzakirələrindən, təkliflərin nəzərə alınmasından danışıb, qanunun kütləvi informasiya vasitələrinin fəaliyyətinin daha səmərəli tənzimlədiyini qeyd edib. Zahid Oruc qanuna tənqidi yanaşmaların da hüquqi dəlillərə əsaslanmadan siyasi və deklarativ xarakter daşıdığını, sənədin tətbiq edildiyi dövrün bu deyilənləri təsdiq etdiyini deyib.

ATƏT-in media azadlığı üzrə nümayəndəsi Tereza Ribeyro görüş üçün təşəkkürünü bildirib. Bu cür görüşlərin işgüzar münasibətlərin inkişafında əhəmiyyətini qeyd edib. O, Azərbaycanda "Media haqqında" qanunun qəbulundan danışıb, qanunda istifadə olunan anlayışların şərhi, tənzimləmə mexanizmlərinin tətbiqi, medianın müstəqilliyinin təminatı kimi məsələlərlə maraqlanıb.

Qarşılıqlı fikir mübadiləsi şəraitində keçən görüşdə Milli Məclisin komitə sədrləri Əli Hüseynli və Zahid Oruc, Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov, Azərbaycanın ATƏT yanında daimi nümayəndəsi Rövşən Sadıqbəyli qonağın toxunduğu məqamlara aydınlıq gətiriblər, onun suallarını cavablandırıblar.

***Ə.QARDAŞXANOVA, "Azərbaycan"***

# Zəfər qurultayı birliyimiz və gücümüzün təcəssümü oldu

## Prezident İlham Əliyev Azərbaycan həqiqətlərinin təbliğatı üçün xaricdəki diasporumuzun yeni yol xəritəsini müəyyənləşdirdi





"Biz bu gün azad Qarabağda, azad Şuşada Dünya Azərbaycanlılarının Qurultayını keçiririk. Bu qurultayın adı Zəfər qurultayıdır və bu, təbiidir. Çünki tarixi Zəfərdən sonra ilk dəfədir ki, dünya azərbaycanlıları toplaşır, qurultay keçirir və ümumiyyətlə, Zəfər adı xalqımıza çox yaraşır".

Dünya Azərbaycanlılarının V Qurultayında Azərbaycan həqiqətləri, Vətən müharibəsindəki şanlı Zəfər və postmüharibə dövrünün reallıqlarını dəyərləndirən Prezident İlham Əliyev eyni zamanda müxtəlif ölkələrdə yaşayan azərbaycanlıların bundan sonrakı fəaliyyətləri üçün yol xəritəsi müəyyənləşdirib.

Zəfər qurultayı torpaqlarımızın işğaldan azad olunmasından sonra dünya azərbaycanlılarını bir araya toplayan ilk möhtəşəm toplantı oldu. Siyasətçilər də hesab edirlər ki, Prezidentin verdiyi tapşırıqların, tövsiyələrin yerinə yetirilməsi Azərbaycanı getdikcə qüdrətləndirəcək və dünyada nüfzunu daha da artıracaq.

### "Birliyimiz daha da güclənməlidir"

Mili Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin deputatı, Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə qəzetimizə açıqlamasında bildirib ki, Şuşada keçirilən Dünya Azərbaycanlılarının V Zəfər Qurultayında çıxış edən Prezident İlham Əliyev Azərbaycan xalqının birliyindən, yaşadığı yerdən asılı olmayaraq, hər bir azərbaycanlının bu zəfərlə fəxr etdiyindən söz açdı və xalq bir daha möhtəşəm birliyini dünyaya nümayiş etdirdi.

Deputat qeyd edib ki, uzun illər ərzində münaqişənin həlli ilə bağlı beynəlxalq təşkilatlar heç bir həll yolları tapmadıqları halda, Azərbaycan öz iradəsini nümayiş etdirərək torpaqlarını işğaldan azad edib: "Mədəniyyət, dil hər bir azərbaycanlını birləşdirən əsas amildir. Məhz bu dəyərlər üzərində hər bir azərbaycanlı yaşadığı ölkədə sosial, siyasi həyatda fəal rol oynayaraq Azərbaycan dövlətinin müdafiəsinə qalxa bilər. Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, təbliği istiqamətində çox işlər görülməlidir. Biz döyüş meydanında qalib gəldik, lakin Azərbaycana qarşı təxribatlar davam edir. Bunun üçün birliyimiz daha da güclənməlidir. Azərbaycan qarşıda duran bütün problemləri xalqın birliyi, dünya azərbaycanlılarının iradəsi ilə həll edəcək, çünki bunun üçün yetərincə gücümüz var".

Deputat vurğulayıb ki, iki gün davam edən qurultayın sonunda çox mühüm sənədlər qəbul edilib. Bütün bunlar reallaşacağı təqdirdə gələcəkdə hər kəs Azərbaycanın çox böyük uğurlarına şahidlik etmiş olacaq.

### Zəfər qurultayının əhəmiyyəti getdikcə daha çox bilinəcək

Milli Məclisin İnsan hüquqları komitəsinin sədr müavini, Vəhdət Partiyasının sədri Tahir Kərimli isə qəzetimizə açıqlamasında V Qurultayın əhəmiyyətindən söz açarkən deyib k, dünya bir daha Azərbaycan xalqının mütəşəkkilliyinə şahidlik edib. Prezident İlham Əliyevin proqram xarakterli çıxışı isə yaddaqalan olub:

"Prezident V Qurultayı Zəfər qurultayı elan etdi və bildirdi ki, bu, zəfərimizdən sonra ilk qurultaydır. Eyni zamanda hər kəsin Zəfər yolu ilə Şuşaya gəldiyini vurğuladı. Bu qurultayın keçirilməsi böyük hadisədir. Tədbirdə 65 ölkədən 400-dən çox nümayəndə iştirak edirdi. Onların hər biri yaşadıqları ölkəyə qayıdandan sonra Azərbaycana səfərlərindən bəhs edəcək, vətənini tərənnüm edəcək, Şuşadan söz açacaq, işğaldan azad olunmuş ərazilərdəki dağıntılar, erməni vəhşilikləri və Azərbaycanın quruculuq işlərindən danışacaqlar. Cənab Prezident çıxışında dünya azərbaycanlılarına onların müxtəlif tədbirlərdə ermənilərlə görüşdüyünü və bunun çətin olduğunu bildiyini dedi. Eyni zamanda qeyd etdi ki, hər bir halda burada Azərbaycanın təbliği mühüm yer tutur".

Deputatın sözlərinə görə, Dünya Azərbaycanlılarının Qurultayını 50 milyon azərbaycanlının birliyi kimi xarakterizə etmək olar. Prezident İlham Əliyev də çıxışında məhz bu məsələyə toxunaraq dünya azərbaycanlılarının ildə bir dəfə Vətənə gəlmələrini məsləhət gördü.

Tahir Kərimli deyir ki, qurultayla bağlı təəssüratlar zəngindir. Əhəmiyyəti isə getdikcə daha çox bilinəcək: "İkigünlük qurultay dünya azərbaycanlılarını bir-birinə daha da yaxınlaşdıracaq, əlaqələr artacaq, bununla da diaspor təşkilatları daha da güclənəcək. Onların müxtəlif ölkələrdə yaşayan nümayəndələrinin bir-biri ilə şəxsi tanışlığı olacaq, əlaqələr möhkəmlənəcək. Beləliklə, Azərbaycanın mənafeyi daha yüksək səviyyədə təbliğ olunacaq. Qeyd edim ki, diaspor təşkilatları 44 günlük Vətən müharibəsində də özlərini yaxşı göstərdilər. Qurultayın sonunda iştirakçıların prezidentlə birlikdə "Qarabağ Azərbaycandır!" şüarını səsləndirmələri isə qurultaya daha da möhtəşəmlik verdi".

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

# Prezident İlham Əliyevin göstərişinə əsasən bölgələrdə vətəndaşların qəbulu keçirilir

**İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev aprelin 25-də Quba Rayon Mərkəzi Xəstəxanasında Quba və Qusar rayon sakinlərini qəbul edib.**

Qəbul Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən "Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2022-ci ilin aprel ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu cədvəli"nə uyğun olaraq keçirilib.

Agentliyin Quba filialının rəhbəri, Quba və Qusar Rayon Mərkəzi xəstəxanalarının rəhbərlərinin iştirakı ilə keçirilən qəbulda 44 nəfərin müraciətinə baxılıb.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyindən AZƏRTAC-a bildirilib ki, qəbula gələn vətəndaşların müraciətləri əsasən əlillik məsələləri, iş və əmək münasibətləri, müayinə-müalicə, icbari tibbi sığorta çərçivəsində ixtisaslaşdırılmış tibb müəssisələrinə göndəriş vərəqələrinin verilməsi ilə bağlı olub. Vətəndaşların müraciətləri diqqətlə dinlənilib və bir sıra məsələlərlə bağlı edilən müraciətlər yerində həll olunub. Digər müraciətlərin araşdırılması və qanunvericiliyə uyğun baxılması məqsədilə müvafiq tapşırıqlar verilib.

Qəbuldan sonra agentliyin sədri Quba Rayon Mərkəzi Xəstəxanasında işlə təmin olunan 11 nəfər Vətən müharibəsi iştirakçısı və şəhid ailə üzvləri ilə görüşüb. Daha sonra Quba Regional Perinatal Mərkəzinin şəraiti ilə tanış olan Z.Əliyev tibb müəssisəsinin mövcud şəraitinin yaxşılaşdırılması və lazımi vasitələrlə təmin olunması istiqamətində işlərin görüləcəyini bildirib.

# Müqəddəs Ramazan ayı münasibətilə iftar mərasimi keçirilib

**Aprelin 24-də Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə öz iqamətgahında müqəddəs Ramazan ayı münasibətilə iftar süfrəsi açıb.**



AZƏRTAC xəbər verir ki, ənənəvi iftar mərasimində çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə Azərbaycanda dini icmalara dövlət qayğısını, Prezident İlham Əliyevin himayəsini və diqqətini yüksək dəyərləndirib. A.Paşazadə bütün səmavi dinlər üçün mübarək olan bu günlərdə dindarların Azərbaycan dövlətinin həyatın bütün sahələrində müzəffər siyasətinin davamlı uğurlarına, Prezident İlham Əliyevin dövlətçiliyimizin mənafeləri, xalqımızın rifahı naminə dəyərli səy və əməllərinə, azad Qarabağda dini-mənəvi irsimizin dirçəldilməsi, genişmiqyaslı quruculuq işləri yönündə misilsiz fəaliyyətinə Uca Rəbbimizin rəvac verməsi üçün dualar edildiyini vurğulayıb. QMİ sədri Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın ölkəmizdə və beynəlxalq aləmdə genişmiqyaslı fəaliyyətinin, milli-mənəvi irsimizi yüksək səviyyədə təbliğ etməsinin, ümumbəşəri dəyərlərə diqqətinin və himayəsinin Azərbaycanın bu istiqamətdə söz sahibinə çevrilməsinə xidmət etdiyini, dünyaya təqdim olunan Azərbaycan modelinin sivilizasiyalararası dialoqa, dinlər və mədəniyyətlərarası əməkdaşlığın inkişafına öz töhfəsini verdiyini diqqətə çatdırıb. Bildirilib ki, işğal dövründə vandalizmə məruz qalmış bütün dinlərə məxsus dini abidələr, məbədlər Azərbaycan dövləti tərəfindən böyük diqqət və qayğı ilə bərpa edilir və yenidən qurulur.

Şeyxülislam Allahşükür Paşazadə ölkəmizdə din-dövlət münasibətlərinin yüksək səviyyəsini rəğbətlə qeyd edərək, bu amilin bütün dini icmaların fəaliyyətinə dəstək və diqqətdə ifadə olunduğunu, dini-mənəvi həyatımızda hökm sürən dinlərarası harmoniyanı gücləndirdiyini diqqətə çatdırıb. QMİ sədri dünya azərbaycanlılarının Zəfər qurultayının Şuşada keçirilməsini milli birlik və mənəvi həmrəyliyimizin ən gözəl nümunəsi adlandırıb.

Dünyanın müxtəlif nöqtələrində dini məkan və rəmzlərin təhqir olunması hallarının, o cümlədən Ramazan ayında İsveçdə, Danimarkada "Qurani-Kərim"in yandırılmasına cəhd hallarını, habelə Qüdsdə baş verən qarşıdurmaları qətiyyətlə pisləyən A.Paşazadə dini heysiyyətdən siyasi məqsədlər üçün sui-istifadə edilməsinin yolverilməzliyini və bütün dinlərin liderləri tərəfindən birmənalı şəkildə qınanılmalı olduğunu bildirib.

Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının katibi Arximandrit Aleksiy, Bakı Dağ Yəhudiləri Dini İcmasının sədri Melih Yevdayev, Roma Katolik Kilsəsinin ordinarisi Vladimir Fekete, Bakıdakı Avropa Yəhudiləri İcmasının rəhbəri Aleksandr Şarovski, Avropa Yəhudilərinin Bakı Dini İcmasının baş ravvini Şneor Seqal və Azərbaycandakı Alban-Udi Xristian Dini İcmasının sədri Robert Mobili çıxışlarında hər ilin Ramazan ayında ənənəvi səciyyə daşıyan iftar mərasiminin bu il yəhudilərin Pesax, xristianların Pasxa bayramları ilə eyni vaxta təsadüf etdiyini bildirərək, bunu Uca Yaradanın lütfü kimi dəyərləndirib, belə mübarək məqamda qardaşlıq süfrəsi ətrafında bir araya gəlmələrinin Azərbaycanın örnək multikultural həyat reallığı olduğunu xüsusi qeyd ediblər. "Qurani-Kərim"in, Tövratın, İncilin nazil edilməsinin Ramazan ayına təsadüf etməsinin səmavi din ardıcıllarını birləşdirən məqamlar sırasında mühüm olduğunu bildirən dini konfessiya rəhbərləri Azərbaycanda mehriban qardaşlıq, bir ailənin üzvləri kimi yaşamalarını bəşəri əhəmiyyət daşıyan dinlərarası qarşılıqlı anlaşma və birgəyaşayış nümunəsi kimi qiymətləndiriblər.

Dini konfessiya rəhbərləri Azərbaycanın mədəniyyət paytaxtı Şuşada keçirilən Dünya Azərbaycanlılarının V Qurultayının Azərbaycanın regiondakı yeni reallıqlarını bütün dünyaya bəyan etdiyini bildiriblər.

Dini icma rəhbərləri bu ənənəvi iftar mərasiminin pandemiya bitdikdən sonra Prezident İlham Əliyevin iştirakı ilə keçirilməsini arzulayıblar.

İftar mərasimində Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərin xatirəsinə Uca Yaradandan rəhmət dilənib, dini və milli mənsubiyyətindən asılı olmayaraq, hər bir Azərbaycan şəhidinin qəlblərimizdə uca məqamda olması qeyd edilib.

İftar mərasimi dini konfessiya rəhbərlərinin birgə duaları ilə başa çatıb.

# Səfir: "Azərbaycanla Tacikistan arasında münasibətlər qardaşlıq xarakteri daşıyır"



**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi (BMTM) və Tacikistan Respublikasının Azərbaycan Respublikasındakı səfirliyinin birgə təşkilatçılığı ilə aprelin 25-də Azərbaycanla Tacikistan arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinə həsr olunmuş "dəyirmi masa" keçirilib.**

BMTM-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə açılış nitqi ilə çıxış edən Mərkəzin İdarə Heyətinin sədri Fərid Şəfiyev Tacikistanın Azərbaycan üçün əhəmiyyətli tərəfdaş olduğuna toxunub.

Tacikistanın Azərbaycandakı səfiri Rustam Soli qeyd edib ki, ölkələrimiz siyasi, iqtisadi, mədəni, parlamentlərarası və digər sahələrdə uğurla əməkdaşlıq edirlər. Diplomat vurğulayıb ki, iki ölkə arasında əməkdaşlığın müxtəlif sahələrinə dair 60-dan çox sənəd imzalanıb. "Azərbaycanla Tacikistan arasında münasibətlər qarşılıqlı etimada əsaslanan qardaşlıq xarakteri daşıyır", - deyən səfir iqtisadi sahələr üzrə işçi qruplarının yaradılması üzərində işin getdiyini də bildirib. 2020-ci ilin aprelində Bakıda Tacikistan Ticarət Evinin açıldığını xatırladan R.Soli həmçinin ölkəsinin Azərbaycanla aqrar sektorda mövcud əməkdaşlıq və investisiya imkanlarının olduğunu vurğulayıb. Səfir eyni zamanda iki ölkə arasında təhsil sahəsində qarşılıqlı əlaqələr və Tacikistandan olan tələbələrin Azərbaycanda təhsil almasından bəhs edib.

R.Soli regional təhlükəsizlik, Əfqanıstanda baş verən hadisələrin ölkəsinə təsirləri, həmçinin terrorizmlə mübarizə sahəsində Azərbaycanla mümkün əməkdaşlıq məsələlərinə toxunub.

Daha sonra çıxış edən Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri və ölkəmizin Tacikistandakı ilk fövqəladə və səlahiyyətli səfiri olmuş Məhərrəm Əliyev iki ölkə arasında diplomatik əlaqələrin qurulmasının tarixindən, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev və Tacikistan Prezidenti Emoməli Rəhmonun dövlətlər arasında əlaqələrin inkişafındakı rolundan danışıb.

Milli Məclisin deputatı, Azərbaycan-Tacikistan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Aydın Mirzəzadə çıxışında iki xalq arasında əlaqələrin tarixin dərinliklərinə gedib çıxdığını vurğulayıb. O iki dövlət arasında münasibətlərin hər iki tərəfin maraqlarına söykəndiyini deyərək bunu nümunəvi adlandırıb. A.Mirzəzadə xüsusilə ikitərəfli münasibətlərin inkişafında parlamentlərarası əlaqələrin əhəmiyyətini qeyd edib. O, əlavə edib ki, Tacikistan daim Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib və biz bunu 44 günlük müharibə zamanı xüsusilə hiss etmişik.

Xarici İşlər Nazirliyinin nümayəndəsi Bünyad Hüseynov Azərbaycanla Tacikistan arasında mədəni əlaqələrin tarixinə, hər iki xalqın yaradıcı insanlarının xalqlar arasında körpü rolu oyanamasına toxunub.

Azərbaycanın Tacikistandakı sabiq səfirləri Abbasəli Həsənov və Həsən Məmmədzadə çıxışlarında ölkələrimiz arasında münasibətlərin inkişafında xalq diplomatiyasının əhəmiyyətini qeyd ediblər.

Tədbirdə Mərkəzi Asiya ölkələrinin və Gürcüstanın Azərbaycandakı səfirləri, elm və ictimaiyyət təmsilçiləri iştirak ediblər.

# Azərbaycan Respublikasının baş prokuroru ATƏT-in media azadlığı üzrə nümayəndəsi ilə görüşüb

**Aprelin 25-də Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyev ölkəmizdə səfərdə olan ATƏT-in media azadlığı üzrə nümayəndəsi Tereza Ribeyro ilə görüşüb.**



Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, qonaqları salamlayan baş prokuror Azərbaycanın ATƏT və onun institutları ilə əməkdaşlığının əhəmiyyətini vurğulayaraq, bu qarşılıqlı münasibətlərin dövlətimizin Avropa ilə inteqrasiya prosesində mühüm rol oynadığını bildirib. Kamran Əliyev ölkəmizdə söz və mətbuat azadlığının bütün demokratik prinsiplərə cavab verdiyini vurğulayaraq, bu sahədə nailiyyətlərin Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlı olması, müasir dövrdə isə dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə söz və mətbuat azadlıqlarının inkişafı istiqamətində həyata keçirilən siyasət nəticəsində əldə olunduğunu qeyd edib.

Baş prokuror ölkəmizdə prokurorluq orqanlarının sosial media siyasətini tənzimləyən sənədlər haqqında ATƏT-in media azadlığı üzrə nümayəndəsinə geniş məlumat verərək prokurorluq orqanlarının insan hüquqlarının müdafiəsi sahəsində fəaliyyəti, qanunçuluq, hər kəsin qanun qarşısında bərabərliyi, fiziki və hüquqi şəxslərin hüquq və azadlıqlarına əməl və hörmət edilməsi, qərəzsizlik, siyasi bitərəflik prinsiplərini rəhbər tutduğunu vurğulayıb. Kamran Əliyev həmçinin Baş Prokurorluq tərəfindən KİV nümayəndələrinin iştirakı ilə mütəmadi olaraq təşkil olunan görüş və brifinqlər barədə qonağa ətraflı məlumat verib. Səmimi görüşə görə təşəkkürünü bildirən T.Ribeyro ikitərəfli münasibətlərə toxunaraq ATƏT-in Azərbaycanla əlaqələrə böyük önəm verdiyini və münasibətlərin yüksək səviyyədə və bütün sahələrdə müvəffəqiyyətlə inkişaf etdiyini bildirib. ATƏT-in media azadlığı üzrə nümayəndəsi Azərbaycan hökumətinin demokratiyanın möhkəmləndirilməsi, xüsusilə də söz və mətbuat azadlıqları istiqamətində atdığı addımların təqdirəlayiq olduğunu vurğulayıb və gələcəkdə ATƏT-in media azadlığı üzrə nümayəndəliyi tərəfindən azərbaycanlı jurnalistlər və müxtəlif qurumların mətbuat xidmətləri ilə əlaqəli sahədə çalışan əməkdaşları üçün təlimlərin keçiriləcəyini qeyd edib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər üzrə fikir mübadiləsi aparılıb.

# "Media və kommunikasiya siyasəti medianın gözü ilə" mövzusunda seminarların ikinci mərhələsinə başlanılıb

**"Media və kommunikasiya siyasəti medianın gözü ilə" mövzusunda seminarların ikinci mərhələsinə start verilib. Seminarlar Medianın İnkişafı Agentliyi (MEDİA) ilə ADA Universitetinin birgə imzaladığı əməkdaşlıq memorandumu çərçivəsində keçirilir.**



MEDİA-nın Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Medianın İnkişafı Agentliyinin və ADA Universitetinin İnkişaf və Diplomatiya İnstitutunun birgə təşkilatçılığı ilə keçirilən seminarlar dövlət sektorunda fəaliyyət göstərən qurumların mətbuat xidmətlərinin rəhbərləri, ictimaiyyətlə əlaqələr üzrə məsul əməkdaşları üçün nəzərdə tutulub.

Seminarın ikinci mərhələsinin açılış mərasimində çıxış edən ADA-nın İnkişaf və Diplomatiya İnstitutunun direktor müavini Aygün Hacıyeva MEDİA ilə əməkdaşlıq təcrübəsinin uğurundan danışıb. Vurğulanıb ki, media və kommunikasiya kimi vacib sahədə islahatların həyata keçirilməsində ADA-nın təlim və tədqiqat potensialından istifadə edilməsi məqsədəuyğundur. Bu mənada ən qabaqcıl elmi nəzəriyyələrin və təcrübələrin tətbiqi ADA-nın beynəlxalq əməkdaşlıq şəbəkəsindən istifadə etməyə imkanlar açır.

ADA-nın İxtisasartırma Proqramlarının rəhbəri Nərgiz İsmayılova MEDİA Agentliyi ilə keçirilən digər layihələr kimi, bu layihənin də uğurla davam etdirildiyini diqqətə çatdırıb. O, medianın inkişafının cəmiyyətimizə müsbət təsir etməsindən danışıb.

Medianın İnkişafı Agentliyinin şöbə müdiri Natiq Məmmədli dövlət orqanları (qurumları) ilə media subyektləri arasında əməkdaşlıq münasibətlərinin möhkəmləndirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsində ADA ilə sıx əməkdaşlığın gözəl təşəbbüs olduğunu qeyd edib. N.Məmmədli belə silsilə seminarların keçirilməsinin vacibliyini vurğulayıb.

Qeyd edək ki, silsilə seminarların məqsədi peşəkar əlaqələrin qurulması, kommunikasiya strategiyalarının səmərəli şəkildə işlənilməsi, gündəmin formalaşmasına təsiri və gündəmə uyğun proaktiv və reaktiv fəaliyyətin planlaması, qurumdaxili kommunikasiya və komanda ruhunun artması, ənənəvi və sosial media ilə işləyərək daha keyfiyyətli məzmunun yaradılmasına nail olmaqdır.

Seminarda yerli və xarici mütəxəssislər çıxış edirlər və interaktiv müzakirə sessiyaları aparılır.

# Beynəlxalq forumda Azərbaycanda Çin dilinin tədrisindən danışılıb

**Çinin Hucou Pedaqoji Universitetində "Milli dillərin təbliği və Çin dilinin beynəlxalq tədrisi" adlı beynəlxalq forum keçirilib.**

AZƏRTAC xəbər verir ki, müxtəlif ölkələrdən 30-a yaxın alimin onlayn formatda iştirak etdiyi tədbirdə Azərbaycanı Pekin Xarici Dillər Universiteti Asiya fakültəsi Azərbaycan dili kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru, çinşünas alim Aqşin Əliyev təmsil edib. O, "Azərbaycanda Çin dilinin tədrisinin vəziyyəti və dillərin qarşılıqlı tədrisinin perspektivləri" mövzusunda çıxış edərək, "Kəmər və yol" təşəbbüsü çərçivəsində iki ölkə arasında humanitar-mədəni əlaqələrin inkişafı fonunda Çin dilinin Azərbaycanda tədrisinin, eləcə də Azərbaycan dilinin Çində tədrisinin əhəmiyyətini vurğulayıb. A.Əliyev Azərbaycanda xarici dillərin tədrisi sahəsində son illər həyata keçirilən siyasətdən danışıb, ölkəmizin müvafiq tədris ocaqlarında Çin dilinin tədrisinin vəziyyətinə dair aparılmış sorğular nəticəsində əldə edilmiş tədqiqat-hesabatı təqdim edib. Qeyd olunub ki, dil bütöv bir mədəniyyətin daşıyıcısıdır və xalqların bir-birini daha yaxından anlamasının başlıca vasitəsidir. Dillərin tədrisi vasitəsilə iki ölkə arasında qarşılıqlı etimadın daha da dərinləşməsi, eləcə də xarici dil bilən kadrların yetişdirilməsi qarşıda duran əsas vəzifələr kimi dəyərləndirilib.

Çinşünas alimin Azərbaycanın müvafiq ali təhsil ocaqlarında apardığı tədqiqat nəticəsində əldə olunan Çin dilinin Azərbaycanda tədrisində qarşıya çıxan problemlər və çağırışlar qabardılıb və onların həlli yollarına dair təkliflər irəli sürülüb.

Aqşin Əliyev eyni zamanda Azərbaycan dilinin Çində tədrisi ilə bağlı mövcud vəziyyəti dəyərləndirib, 2017-ci ildən bəri Çində ilk dəfə olaraq Azərbaycan dilinin tədrisinə başlanılmasını iki ölkə arasında mədəni və təhsil əlaqələrinin inkişafında mühüm hadisə olduğunu xüsusi vurğulayıb.

Qeyd edək ki, Çinin nüfuzlu ali təhsil ocqlarından olan Pekin Xarici Dillər Universitetində Azərbaycan dili ixtisas kimi 2018-ci ildən tədris olunur. Bu, dünyada Azərbaycandan kənarda əcnəbilər üçün təşkil olunmuş ilk və yeganə Azərbaycan dili ixtisasıdır.

# Proses "Bakı-Yerevan" formatında davam etməlidir

## İlham Əliyevin bu qətiyyətli mövqeyi Ermənistana razılaşmalara əməl etməkdən başqa yol qoymur

*Əvvəli 1-ci səh.*

Məlum olduğu kimi, hələ ötən ilin dekabrında Brüsseldə keçirilmiş üçtərəfli görüşdən sonra Şarl Mişel verdiyi bəyanatda təsdiq etmişdi ki, Aİ Azərbaycanın yaratdığı yeni reallıqları regionun rifahı üçün əsas faktor hesab edir.

Bəyanatda səslənən bütün fikirlər Aİ-nın təşəbbüsü ilə yaranmış Brüssel formatında müzakirələrin Azərbaycanın tələb və təşəbbüsləri çəçivəsində aparıldığını göstərir. Məsələn, Şarl Mişel artıq "Dağlıq Qarabağ münaqişəsi", "status" kimi ifadədələrdən istifadə etmir, o cümlədən Minsk qrupunun adını çəkmir.

Bu il fevralın 4-də Fransa Prezidentinin təşəbbüsü ilə Azərbaycan Prezidenti İlham Əliyevin, Fransanın Aİ-yə sədrliyi qismində Emmanuel Makronun, Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişelin və Ermənistanın baş naziri Nikol Paşinyanın iştirakı ilə keçirilən görüş Vətən müharibəsindəki yeni reallıqlar fonunda bütün proseslərin respublikamızın maraqlarına uyğun cərəyan etdiyini göstərdi.

Eləcə də Brüsseldə aprelin 6-da keçirilən üçtərəfli görüşdə də gündəliyə çıxarılan və müzakirə olunan məsələlər ondan xəbər verdi ki, Azərbaycan İkinci Qarabağ müharibəsindəki qələbəni postmüharibə dövründə də inamla davam etdirir. Görünən odur ki, Prezident İlham Əliyev Brüssel formatında Azərbaycanın maraq və mənafelərini qətiyyətlə təmin edir.

### Aİ Bakının mövqeyini bölüşür

İlham Əliyevlə Şarl Mişel arasındakı telefon danışığının məzmunu da ondan xəbər verdi ki, Aİ Ermənistanla normallaşma prosesinin Brüssel formatında əldə edilmiş razılaşmalar çərçivəsində aparılmasının tərəfdarıdır. Başqa cür desək, Aİ bu istiqamətdə konkret addımların atılmasında və yekunda tərəfləri qane edəcək nəticənin əldə edilməsində maraqlıdır.

Bakının normallaşma prosesindəki addımları da nəticəyönümlü fəaliyyətin təmin olunmasına hesablanıb. Ölkəmizin mövqeyi tamamilə beynəlxalq hüququn norma və prinsiplərinə uyğundur. Azərbaycan elə bir mövqe ortaya qoyur ki, Aİ də onu onu bölüşür və qəbul edir. Ən əsası Ermənistana normallaşmaya xidmət edən təkliflərdən, təşəbbüslərdən və razılaşmalardan imtina etmək üçün heç bir bəhanə verilmir.

Şarl Mişellə telefon söhbəti zamanı Prezident İlham Əliyev Brüssel görüşünün nəticələrinə uyğun olaraq rəsmi Bakının Ermənistan-Azərbaycan sərhədinin delimitasiyası və demarkasiyası üzrə milli komissiyanın və iki ölkə arasında sülh müqaviləsinin hazırlanması üzrə nümayəndə heyətinin tərkibini müəyyən etdiyini və qarşı tərəflə "Bakı-Yerevan" formatında danışıqlara hazır olduğunu vurğulayıb. Dövlət başçısı sülh müqaviləsi üzrə danışıqlar üçün Azərbaycanın təqdim etdiyi beş prinsipin əsas götürüldüyünün vacibliyini vurğulayıb.

### "Dəmir yumruq" sərhəd təxribatının qarşısını qətiyyətlə alır

44 günlük Vətən müharibəsindən sonra Ermənistan dəfələrlə həm Rusiya sülhməramlılarının müvəqqəti olduğu Azərbaycan ərazilərində, həm də dövlət sərhədi istiqamətində təxribatlar törədiblər. Hər dəfə Azərbaycan Ordusu təxribatların qarşısını alıb, qanunsuz silahlı birləşmələr, həm də Ermənistan ordusunun şəxsi heyəti böyük tələfatlar verib.

Ermənistan aprelin 23-də dövlət sərhədinin Zəngilan rayonu ərazisindən keçən hissəsində yenidən təxribat törədib. Belə ki, Ermənistan silahlı qüvvələrinin təxribat-diversiya qrupu dövlət sərhədini keçməyə cəhd göstərib. Dövlət Sərhəd Xidməti tərəfindən görülmüş tədbirlər nəticəsində təxribat-diversiya qrupunun Azərbaycan Respublikasının ərazisinə keçməsinin qarşısı alınıb və diversantlar geri çəkilməyə məcbur edilib. Təxribat-diversiya qrupunun üzvü, hərbi qulluqçu Martirosyan Eduard Arturoviç DSX əməkdaşları tərəfindən saxlanılıb.

Bu hadisə bəlli həqiqətlərə yeni işıq salır. Məlum olduğu kimi, Ermənistan tərəfi hələ 44 günlük müharibədən də əvvəl danışıqlar prosesini əngəlləmək üçün təxribatlar törədirdi. Məqsəd sülh danışıqlarını pozmaq, problemin həllini dondurulmuş vəziyyətdə saxlamaq idi. Bu baxımdan Aİ-nın vasitəçiliyi ilə Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması üçün nəticəyönümlü müzakirələrin getdiyi bir vaxtda Ermənistanın yenidən hərbi təxribatlar törətməsi suallar yaradır. Azərbaycan haqlı olaraq bu hadisəni Ermənistanın ölkələr arasında delimitasiya komissiyalarının yaradılması və müvafiq işlərin aparılmasına qarşı yönəlmiş təxribatı kimi dəyərləndirir.

İndi Ermənistanın münasibətlərin normallaşması ilə bağlı müzakirələrin ruhuna uyğun davranmaqdan savayı yolu yoxdur. Çünki Azərbaycan özünün güclü mövqeyi ilə Ermənistana heç bir şans vermir. Təxribatların qarşısı isə "dəmir yumruq" tərəfindən hər zaman qətiyyətlə alınacaq.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***






# "Sahibkarlar günü"nə həsr olunmuş konfrans keçirilib

**20 il əvvəl - 2002-ci il aprelin 25-də Ulu Öndər Heydər Əliyev yerli sahibkarlarla, mayında isə xarici iş adamları ilə görüşüb. Azərbaycan Prezidenti İlham Əliyevin 2016-cı il 21 aprel tarixli sərəncamı ilə həmin tarix - 25 aprel artıq 7 ildir ki, ölkəmizdə "Sahibkarlar günü" kimi qeyd olunur.**



Dünən İqtisadiyyat Nazirliyinin dəstəyi, nazirliyin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) və Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının təşkilatçılığı ilə "Sahibkarlar Günü"nə həsr olunmuş "İqtisadiyyatın inkişafında sahibkarlığın rolu" mövzusunda konfrans keçirilib. Tədbirdə iqtisadiyyat, əmək və əhalinin sosial müdafiəsi nazirləri, Milli Məclisin deputatları, aidiyyəti dövlət qurumlarının, sahibkarların ictimai birliklərinin nümayəndələri, eləcə də müxtəlif sahələrdə fəaliyyət göstərən iş adamları iştirak ediblər.

Əvvəlcə konfrans iştirakçıları Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət edib, xatirəsini ehtiramla anaraq abidəsi önünə əklil qoyublar. Konfrans iştirakçıları həmçinin Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəmanlarımızın xatirəsini ehtiramla yad edib, "Əbədi Məşəl" kompleksinə əklil qoyublar.

Konfrans öz işinə şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad olunması ilə başlayıb. Sonra ölkəmizdə özəl sektorun inkişafı üçün həyata keçirilən tədbirlərə və əldə edilmiş uğurlara həsr olunmuş film nümayiş edilib.

Sahibkarları təbrik edən **iqtisadiyyat naziri Mikayıl Cabbarov** Azərbaycanda sahibkarlığın keçdiyi inkişaf yolu, özəl sektorun formalaşması və inkişafında Ulu Öndərin misilsiz rolunu, qlobal çağırışlar fonunda bu siyasətin Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirildiyini vurğulayıb. Qeyd olunub ki, biznes və investisiya mühiti davamlı olaraq yaxşılaşdırılır, qanunvericilik bazası təkmilləşdirilir, sahibkar-dövlət, hökumət-biznes münasibətləri inkişaf etdirilir. Görülmüş məqsədyönlü tədbirlər nəticəsində 2003-cü ildən indiyədək Azərbaycan iqtisadiyyatı 3,4, sənaye 3,7, kənd təsərrüfatı 2, xarici ticarət dövriyyəsi 6,8 dəfə artıb.

Diqqətə çatdırılıb ki, pandemiyanın milli iqtisadiyyata, makroiqtisadi sabitliyə, məşğulluğa və özəl sektora mənfi təsirlərinin azaldılması ilə bağlı ilk günlərdən dövlət orqanları qarşısında ciddi vəzifələr qoyulub, iqtisadiyyata geniş dəstək paketini nəzərdə tutan proqramlar, biznesin dəstəklənməsini əhatə edən çoxşaxəli tədbirlər görülüb, maliyyə-iqtisadi dəstək proqramları tətbiq edilib. Bütün bunlar isə ölkədə iqtisadiyyatın, o cümlədən biznesin fəallığının qorunub saxlanılmasını təmin edib. Bu dövrdə biznesin nümayiş etdirdiyi sosial məsuliyyət, YAŞAT, Qarabağ Dirçəliş fondlarına göstərilən dəstək isə kampaniya deyil, sahibkarlığın inkişafı ilə bağlı məqsədyönlü siyasətin məntiqi nəticəsi, insan kapitalının inkişafının göstəricisidir. Həyata keçirilən tədbirlər, səmərəli dövlət-özəl sektor tərəfdaşlığı resessiyanın qısa müddətdə qarşısının alınmasına və artım tempinin sürətlənməsinə imkan verib. Təsadüfi deyildir ki, pandemiyanın təsirlərinin minimallaşdırılması məqsədilə görülmüş işlər, iqtisadiyyatın bərpası və inkişafı üçün həyata keçirilən tədbirlər sayəsində ölkə iqtisadiyyatı 2021-ci ili 5,6 faizlik artımla başa vurub. Vurğulanıb ki, iqtisadi tərəqqi bütün sahələrin inkişafını, eləcə də ordumuzun güclənməsini şərtləndirir. Bu baxımdan Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılan şanlı qələbədə sahibkarların da xüsusi töhfəsi vardır.

Qarşıdakı dövrdə biznesin genişləndirilməsi istiqamətində nəzərdə tutulan tədbirlərdən danışan iqtisadiyyat naziri bildirib ki, qarşıdakı dövrdə sahibkarlığın inkişafı, biznesin stimullaşdırılması məqsədilə bir sıra addımların atılması nəzərdə tutulur. Qeyd edilib ki, ölkəmizin biznes cəlbediciliyinin yüksəldilməsi, sahibkarların maliyyə bazarlarına daha rahat və sistemli çıxışının təmin edilməsi, ənənəvi bazarlarda payının artırılması, yeni bazarlara çıxışının asanlaşdırılması, vergi və gömrük inzibatçılığının, əmək münasibətlərinin təkmilləşdirilməsi və s. sahələrdə reallaşdırılacaq tədbirlər özəl sektorun inkişafı və güclənməsinə yeni imkanlar yaradacaqdır.

**Əmək və əhalinin sosal müdafiəsi naziri Sahil Babayev** iqtisadiyyatda mühüm rola malik olan özəl sektorun korporativ sosial məsuliyyət layihələri çərçivəsində əhalinin həssas qrupları ilə bağlı sosial dəstək və aktiv məşğulluq proqramlarına, o cümlədən şəhid ailələri və müharibə iştirakçılarının məşğulluğunun təminatına xidmət edən "Məşğulluq marafonu"na özəl sektorun yaxından dəstək göstərdiyini vurğulayıb. Nazir özəl sektor ilə sosial tərəfdaşlıq müstəvisində birgə layihələrin gələcəkdə daha da genişləndiriləcəyini vurğulayıb.

**Milli Məclisin deputatı, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili** sahibkarlığın davamlı inkişafının təmin edilməsi məqsədilə bu sahədə hüquqi bazanın möhkəmləndirilməsinin önəmini qeyd edib, iqtisadi fəaliyyətin genişlənməsinə töhfə verən qanunvericiliyin mövcud ehtiyaclar və reallıqlar nəzərə alınmaqla yenilənməsinin hər zaman diqqət mərkəzində olduğunu bildirib.

**Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev** qeyd edib ki, Azərbaycanın əldə etdiyi uğurlara sahibkarlar da öz töhfəsini verir. Bildirilib ki, özündə minlərlə sahibkarlıq subyektini, o cümlədən 70-dən çox assosiasiya və birliyi birləşdirən Azərbaycan Sahibkarlar Konfederasiyası dövlət-sahibkar əməkdaşlığının daha da möhkəmləndirilməsi istiqamətində öz səylərini əsirgəmir.

**Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin (KOBİA) sədri Orxan Məmmədov** ölkəmizdə kiçik və orta sahibkarlığın inkişafının iqtisadiyyatın prioritet istiqamətlərindən olduğunu qeyd edib, bu sahədə görülən tədbirlər, agentliyin fəaliyyəti və dəstək mexanizmləri barədə məlumat verib.

**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev** isə çıxışında sahibkar və işçilər arasında düzgün münasibətlərin qurulması, bunun sahibkarlıq fəaliyyətinə müsbət təsiri barədə danışıb.

Konfransda çıxış edən sahibkarlar - Azərbaycan Türkiyə İş Adamları Birliyinin (ATİB) İdarə Heyətinin sədri Cemal Yangın və Azərbaycan Tikinti Materialları İstehsalçıları Assosiasiyasının sədri Elxan Başirov Ümummilli Lider Heydər Əliyevin sahibkarlarla görüşləri, verdiyi tapşırıq və tövsiyələr, o cümlədən 2002-ci il aprelin 25-dəki görüşü barədə təəssüratlarını bölüşüb, özəl bölmənin inkişafı istiqamətində həyata keçirilən islahatlardan söhbət açıblar.

Tədbirin sonunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə konfrans iştirakçıları adından müraciət qəbul olunub.

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

### Ulu Öndərin sahibkarlarla görüşünün 20 illiyinə həsr olunmuş "İqtisadiyyatın inkişafında sahibkarlığın rolu" mövzusunda 25 aprel 2022-ci il tarixdə keçirilən konfransın iştirakçılarının

### MÜRACİƏTİ

Möhtərəm cənab Prezident!

Ümummilli Liderimiz Heydər Əliyevin müəllifi olduğu müasir Azərbaycanın hərtərəfli inkişaf strategiyası zati-alileriniz tərəfindən müdrikliklə və uzaqgörənliklə davam etdirilir. Məhz 20 il bundan əvvəl - 2002-ci ildə Ulu Öndərin 25 apreldə yerli sahibkarlarla, 14 mayda isə xarici iş adamları ilə görüşlərindən sonra Azərbaycan iqtisadiyyatının, həmçinin sahibkarlığın inkişafında ciddi dönüş baş vermiş, mühüm qərarlar qəbul edilmişdir. İqtisadiyyatın davamlı və dayanıqlı inkişafını təmin edən islahatlar aparılmış, sağlam bazar münasibətləri, azad rəqabət mühiti və güclü özəl sektor formalaşmışdır.

Dövlətimizin genişmiqyaslı dəstək tədbirlərinin nəticəsidir ki, ölkəmizdə sahibkarlıq fəaliyyəti genişlənir, bütün regionları əhatə etməklə yeni istehsal və xidmət sahələri yaradılır, ixrac potensialı artır. Hazırda ümumdaxili məhsulun 83 faizdən çoxu özəl sektorun payına düşür.

Sahibkarlığın inkişafı sahəsində həyata keçirilən sistemli tədbirlər nəticəsində nüfuzlu beynəlxalq biznes hesabatlarında ölkəmizin reytinqi davamlı olaraq yaxşılaşır.

Özəl sektorun inkişafına yüksək diqqət və qayğınızın daha bir əyani göstəricisi olaraq hər il 25 aprel tarixinin Azərbaycan Respublikasında "Sahibkarlar günü" kimi qeyd edilməsi biz sahibkarları qürurlandırır, sahibkarların cəmiyyətdə nüfuzunu yüksəldir və yeni uğurlara ruhlandırır.

Möhtərəm cənab Prezident, Müzəffər Ali Baş Komandan!

2020-ci ildə Sizin rəhbərliyinizlə rəşadətli ordumuzun qazandığı böyük Zəfər nəinki milyonlarla azərbaycanlını, türk dünyasını, bütün Azərbaycansevərləri qürurlandırır.

Bu gün hər bir sahibkar anlayır ki, Azərbaycanın tərəqqisi və gələcək inkişafı üçün genişmiqyaslı tədbirlər davam etdirilməlidir.

44 günlük Vətən müharibəsi dövründə Sizin ətrafınızda sıx birləşərək "dəmir yumruğ"un bir parçası olmağı bacarmış Azərbaycan sahibkarları Qarabağın yenidən firavanlığına qovuşması, işğaldan azad olunmuş torpaqlarımızın iqtisadi cəhətdən dirçəlməsi üçün səylərini daha da gücləndirirlər.

İnanırıq ki, rəhbərliyinizlə Qarabağın hər bir guşəsini birlikdə quracağıq, köçkünlərimizin doğma yurd-yuvalarına qayıdışı tezliklə təmin olunacaqdır.

Biz, Ulu Öndərin sahibkarlarla görüşünün 20 illiyinə həsr olunmuş konfransın iştirakçıları ölkəmizdə yaradılan əlverişli işgüzar mühitdən yararlanmaqla yeni uğurlara nail olacağımıza inanır və Sizi əmin edirik ki, rəqabətədavamlı istehsalın genişləndirilməsi, dövlətimizin daha da qüdrətlənməsi və dünya miqyasında nüfuzunun daha da artması üçün bütün gücümüzü səfərbər edəcək, əhalinin rifah halının yüksəldilməsi yolunda var gücümüzlə çalışacağıq.

Ulu Tanrıdan Sizə möhkəm cansağlığı, azad, müstəqil və demokratik Azərbaycan dövlətinin daha da möhkəmlənməsi, xalqımızın əmin-amanlığı naminə yorulmaz fəaliyyətinizdə uğurlar arzulayırıq.

Müraciət Ulu Öndərin sahibkarlarla görüşünün 20 illiyinə həsr olunmuş "İqtisadiyyatın inkişafında sahibkarlığın rolu" mövzusunda 25 aprel 2022-ci il tarixdə keçirilən konfransın iştirakçıları tərəfindən qəbul edilmişdir.

# Qadağalar ləğv edilsə də, arxayınlaşmaq hələ tezdir

Artıq dünyada COVID-19-la bağlı vəziyyət normallaşıb və əksər ölkələr epidemiyadan qorunma tədbirlərini böyük ölçüdə aradan qaldırıb və normal həyata qayıdıb. Buna səbəb koronavirusun yayıldığı zamandan etibarən ona qarşı müxtəlif mübarizə üsullarından istifadə olunması, xüsusilə virusa qarşı vaksinasiya prosesinin aparılması ilə əhali arasında kütləvi immunitetin qazanılması olub.

Lakin virusun ilk üzə çıxdığı ölkə olan Çin, hələ də "sıfır COVID" strategiyasını tətbiq edir. Belə ki, ölkədə yoluxma olan bölgələrdə sərt karantin rejimi həyata keçirilir, bütün xəstələr səhiyyə müəssisələrinə göndərilərək infeksiyanın tamamilə aradan qaldırılması hədəflənir. Qeyd edək ki, Çində, əsasən, COVID-19-un "Omikron" variantı yayılıb və yüksək yoluxuculuq qabiliyyətinə malik bu varianta görə, səhiyyə sistemi yüklənib. Bununla əlaqədar Şanxay səhiyyə komissiyasının rəhbəri Vu Jinglei də bildirib ki, şəhərin epidemiyadan əvvəlkindən 50 faiz çox təcili yardım maşınlarına sahib olmasına baxmayaraq, tibbi yardım üçün bütün müraciətləri qarşılaya bilməyəcəklər.

Ölkənin Milli Səhiyyə Komissiyasının məlumatına əsasən, Çində hər min nəfərə cəmi 2,9 həkim düşür.

### Ölkəmizdə pandemiyaya qarşı hərtərəfli mübarizə bəhrəsini verir

Azərbaycanda koronavirusun yayıldığı ilk gündən etibarən ona qarşı aparılan hərtərəfli effektiv mübarizə metodları və uğurlu vaksinasiya prosesi xeyli müsbət nəticəyə səbəb olub. Belə ki, artıq ölkədə epidemioloji vəziyyət normallaşıb, yoluxmalar ikirəqəmli həddə düşüb, son zamanlar isə ölüm sayı qeydə alınmır.

Bildirək ki, Azərbaycanda bu günə qədər yeni növ koronavirusa qarşı vətəndaşlara 13 milyondan çox vaksin vurulub. Birinci mərhələ üzrə vurulan peyvəndlərin ümumi sayı 5, ikinci mərhələ üzrə 4, üç və daha çox doza vaksinlərin isə sayı 3 milyondan çoxdur. Pozitiv nəticədən sonra vurulan "buster" doza vaksinlərinin sayı isə 238 mini keçib.

Respublikamızda pandemiya ilə bağlı müşahidə olunan bu müsbət tendensiya öz növbəsində qapanmaların açılmasına da səbəb olub və tətbiq olunan qadağaların çoxu götürülüb. Belə ki, Nazirlər Kabinetinin qərarına əsasən, 2022-ci il mayın 1-dən etibarən xüsusi karantin rejimində tənəffüs yollarını qoruyan fərdi vasitələrdən (tibbi maska, parça maska, respirator və s.) istifadə tələbi ləğv edilir.

Eyni zamanda Azərbaycan Respublikasının beynəlxalq hava limanı ərazisində və Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tibbi maskalardan istifadə artıq məcburi xarakter daşımır və yalnız tövsiyə edilir.

Həmçinin qurumun qərarına əsasən, koronavirus infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti 1 iyul 2022-ci ilə qədər uzadılıb.







### Mütəxəssislər qapalı yerlərdə maska taxılmasını tövsiyə edir

Yeni növ koronavirus pandemiyası ilə əlaqədar yuxarıda qeyd olunan qadağaların da ləğv edilməsi onu göstərir ki, Azərbaycanda epidemioloji vəziyyət normaldır. Amma koronavirus təhlükəsinin hələ də Yer üzündə tam ram olunmamasını və yeni ştamları ilə yoluxduruculuğunu davam etdirməsi, habelə dünyada hələ də vaksin olunmayan insanların olduğunu nəzərə alaraq, arxayınlığa qapılmaq olmaz. Çünki elə koronavirus infeksiyasını təhlükəli edən yüksək yoluxduruculuq qabiliyyəti, belə deyək, anidən birdən min yaratması xüsusiyyətidir. Buna görə də dövlətin apardığı hərtərəfli mübarizə və vətəndaş həssaslığı sayəsində qazanılan bu uğuru əldən verməmək üçün bundan sonra da tələb olunan qaydalara riayət etmək vacibdir.

Eyni zamanda maska tələbi ləğv olunsa da, mütəxəssislər qapalı yerlərdə maska taxılmasını tövsiyə edirlər.

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*

# Həkəri və Bərgüşad çaylarına balıq körpələri buraxılıb

Su hövzələrində balıq populyasiyasının artırılması, ekosistemin qorunması və su bioresurslarının bərpasına dəstək məqsədilə Qubadlı rayonu ərazisindən keçən Həkəri və Bərgüşad çaylarının qovuşduğu hissəyə balıq körpələrinin buraxılışı həyata keçirilib.

Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin rəsmisi Arzu Babayeva AZƏRTAC-a bildirib ki, Qarabağ və Şərqi Zəngəzur ərazisində biomüxtəlifliyin qorunmasına və su hövzələrində bioresursların bərpasına töhfə vermək məqsədilə çaya 2 min qızıl xallı farel körpəsi buraxılıb.

Xidmət rəsmisi balıq körpələrinin su hövzələrinə buraxılması aksiyalarında balıq yetişdirən müəssisələri yaxından iştirak etməyə, ölkədə balıq ehtiyatlarının artırılmasına töhfə verməyə, vətəndaşları isə balıq ehtiyatlarının artımının qarşısını alan hərəkətlərdən imtina etməyə çağırıb.



## 26 Aprel Beynəlxalq Əqli Mülkiyyət Günüdür

# Əqli mülkiyyət, kreativ iqtisadiyyat və gənclik: gələcək naminə innovasiyalar

**26** aprel əqli mülkiyyət sahibləri üçün mühüm məna daşıyır. Hər il bu tarix bütün dünyada Beynəlxalq Əqli Mülkiyyət Günü kimi qeyd edilir. Bunun tarixi missiyası haqqında geniş söhbət açmaq istəməzdik. Çünki zamanla müəyyənləşərək özünü təsdiqləmiş missiya hər kəsə bəllidir və əqli fəaliyyət bütün dövrlərdə bəşəriyyət üçün xüsusi önəm kəsb edib. İnsanlıq tarixi dünyamızı addım-addım irəli aparan böyük kəşfləri, ixtiraları ilə bu fəaliyyətə borcludur. Həyatımızda möcüzələr yaradan yeni texnologiyalar, innovativ həllər məhz əqli mülkiyyət sahiblərinin yaradıcılıq məhsuludur.

Beynəlxalq Əqli Mülkiyyət Günü münasibətilə dünyanın əksər ölkələrində keçirilən müxtəlif formatlı tədbirlərin əsas məqsədi də əqli mülkiyyətin mədəni irsin zənginləşməsində, davamlı iqtisadi inkişafda və informasiya cəmiyyətinin formalaşmasındakı rolunu diqqətə çatdırmaqdır. Yaradıcı insanların fəaliyyətini dəstəkləmək və stimullaşdırmaq, onlara olan hörmət və ehtiramı nümayiş etdirməkdir.

Bu günün tarixi isə Azərbaycan 1995-ci ildən üzvü olduğu Ümumdünya Əqli Mülkiyyət Təşkilatının 2000-ci ildə 26 aprelin Beynəlxalq Əqli Mülkiyyət Günü kimi elan edilməsi barədə qərarı ilə bağlıdır.

### Gəncliyin yaradıcı gücü

2022-ci il Beynəlxalq Əqli Mülkiyyət Gününün mövzusu çox aktual bir məsələyə həsr edilib: "Əqli mülkiyyət və gənclik: gələcək naminə innovasiyalar". Mövzunun adından da göründüyü kimi, diqqət mərkəzində innovasiya və gənclərin yaradıcılığı məsələləri durur. Gənclik hər zaman yeniliklərin, inkişaf meyillərinin hərəkətverici qüvvəsi rolunda çıxış edib. Müasir gənclər xüsusilə ixtiraçılıq istedadları, innovasiyalara olan böyük maraqları ilə fərqləniblər. Onların yeni baxışları, enerjisi, marağı və çətinlikləri dəf etməyə hazır olmaları, eləcə də daha firavan gələcəyə can atmaları artıq mövcud yanaşmaları başqalaşdırır, innovasiyalara, dəyişikliyə stimul verir, kreativliyə gətirib çıxarır.

Əqli mülkiyyət hüquqları isə gənclərə qarşıya qoyduqları məqsədlərə çatmaqdan ötrü bir sıra vacib alətlərə çıxış imkanı yaradır. Bunlar əmtəə nişanları, sənaye nümunələri, müəllif hüquqları, patentlər, coğrafi göstəricilər, ticarət sirləri və s. bu kimi vasitələrdir. 2022-ci il Beynəlxalq Əqli Mülkiyyət Günü gənclərə ideyalarını reallığa çevirmək, gəlir yerləri tapmaq, iş yerlərinin yaradılmasında iştirak etmək, dünyaya necə müsbət təsir göstərməyin yollarını öyrənmək baxımından gözəl bir imkandır.

Ənənəvi olaraq Beynəlxalq Əqli Mülkiyyət Günü ölkəmizdə də qeyd olunur və bu münasibətlə silsilə tədbirlər təşkil edilir. Həmin tədbirlərin tərkib hissəsi kimi bu gün Əqli Mülkiyyət Agentliyinin təşkilatçılığı ilə Azərbaycan Yaradıcı Sənayelər Federasiyası ilə birgə əməkdaşlıq çərçivəsində gənclərin yenilikçiliyi və kreativliyi nəzərə alınmaqla "Kreativ iqtisadiyyat: gələcək naminə innovasiyalar" mövzusunda konfrans keçiriləcək. Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri, professor Kamran İmanov müasir dünyamızda əqli fəaliyyətin rolunu və bu əlamətdar gün münasibətilə təşkil ediləcək tədbirlərin gənclərdə böyük maraq doğuracağını xüsusi vurğulayaraq demişdir: "Hazırda dünyanın əksər qabaqcıl ölkələri kimi, Azərbaycanda da innovasiyalar ekosistemi sürətli inkişafdadır. Ölkəmizin ictimai-siyasi və sosial-iqtisadi həyatının bütün sahələrində olduğu kimi, bu istiqamətdə də gənclərin fəal iştirakı və kreativliyi müşahidə olunur və dövlətimiz gənc nəslə öz potensiallarını faydalı məqsədlərə yönəltmələri üçün hər cür şərait yaradır. Gənclik - kreativlik deməkdir. Bunun bir bariz nümunəsi də müasir startapların əksəriyyətinin gənclər tərəfindən yaradılmasında və qeydiyyatdan keçirilən əqli mülkiyyət obyektlərinin gənc sahiblərinin sayının getdikcə artmasındadır". Yeri gəlmişkən onu da bildirək ki, Əqli Mülkiyyət Agentliyinin Aparatının və tabeliyində olan qurumların əmək kollektivinin 30 faizə yaxınını da məhz gənclər təşkil edir. Onlar agentliyin qarşısına qoyulmuş vəzifələrin yerinə yetirilməsində fəallıq göstərərək qazanılan nailiyyətlərə öz töhfələrini verməyə çalışırlar.

### Qanunvericilik bazası təkmilləşdirilir

Ötən dövrdə agentliyin fəaliyyəti üzrə əldə edilmiş bu nailiyyətlərin sırası kifayət qədər genişdir. Məlum olduğu kimi, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Vətən müharibəsində qazandığımız tarixi qələbədən və ərazi bütövlüyümuzun bərpasından sonra Azərbaycan keyfiyyətcə yeni strateji mərhələyə daxil olub. Bu mərhələdə dövlətimizin hədəflədiyi məqsədlərə çatmaq, uyğun siyasət və islahatlar çərçivəsini formalaşdırmaq üçün dövlət başçısının 2 fevral 2021-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"dən irəli gələn və reallaşdırılmalı olan "dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat" və "rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı" istiqamətləri milli prioritetlər sırasına daxil edilmişdir. Həmin sənəddə qeyd olunur ki, "Gələcək dövrdə ən müasir texnoloji sahələri və innovasiyaları dəstəkləyən rəqəmsal cəmiyyət inkişafın aparıcı qüvvəsinə çevriləcəkdir. Ölkəni rəqabətdə irəli aparmaq üçün cəmiyyətin yaradıcılığını və innovativliyini stimullaşdıran ekosistem qurulmalıdır". Əqli mülkiyyət sisteminin qarşısında duran vəzifələr də ölkənin innovasiya siyasəti ilə müəyyən edilir.

Dövlət başçısının əqli mülkiyyətin dəyişmiş kontekstini nəzərə alan uzaqgörən siyasətindən irəli gələn institusional islahatlar nəticəsində yaradılan Əqli Mülkiyyət Agentliyi həm müəlliflik hüququ və əlaqəli hüquqlar, həm də sənaye mülkiyyəti (ixtiralar, faydalı modellər, sənaye nümunələri və əmtəə nişanları) sahələrini əhatə edərək, özünəməxsus unikal idarəetmə modelini aktuallaşdıran, Respublika Elmi-Texniki Kitabxanasını və Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzini əlaqələndirən strukturdur.

Əqli mülkiyyətin dünyanın iqtisadi inkişafında tutduğu önəmli yeri, bu mülkiyyətin sahibi olan yaradıcı insanların hüquqlarının ən yüksək səviyyədə qorunması zərurətini nəzərə alaraq, dövlətimiz bu sahədə qanunvericilik bazasının daim təkmilləşdirilməsi istiqamətində addımlar atır. Yalnız ötən il layihələrinin hazırlanmasında agentliyin də bilavasitə iştirak etdiyi 3 qanun qəbul edilmiş, Azərbaycan Prezidenti tərəfindən 3 fərman, 2 sərəncam imzalanmış, Nazirlər Kabineti 8 qərar və 5 sərəncam vermişdir.

Agentliyin rəhbəri K.İmanov bildirdi ki, qanunvericilik bazasının təkmilləşdirilməsi və struktur islahatlarının nəticəsi olaraq, həmçinin bu sahədə göstərilən dövlət xidmətlərinin səviyyəsinin yüksəlməsi hesabına 2021-ci ildə ölkəmizdə yaradıcılıq fəallığı xeyli artmış, elm və sənaye arasında bağlantı güclənmişdir. Belə ki, xidmətlərin göstərilməsi rejimi qısa müddətdə yeni tələblərə uyğunlaşdırılmış və agentlik dövlət xidmətlərinin əksər hissəsini onlayn rejimdə aparmışdır. O cümlədən müəlliflik hüququ obyektlərinin qeydiyyatı ilə bağlı ərizələrin qəbulu və digər xidmətlər elektron hökumət portalı, sənaye mülkiyyəti obyektlərinin qeydiyyatı ilə bağlı iddia sənədlərinin qəbulu isə "Patentlərə, Əmtəə Nişanlarına Açıq Hədəf" (PƏNAH) rəqəmli informasiya sistemi və elektron poçt vasitəsilə həyata keçirilmişdir. İl ərzində PƏNAH sistemi vasitəsilə sənaye mülkiyyəti obyektlərinin qeydiyyatı sahəsində tətbiq edilən "vahid pəncərə" prinsipi daha da təkmilləşdirilmişdir. Dövlət başçısının açıqlıq və şəffaflığın təmin edilməsi ilə əlaqədar tapşırıqlarının icrası çərçivəsində yaradılmış bu sistemin müsbət təsiri hesabına göstərilən dövlət xidmətlərinin səviyyəsi yüksəlmişdir. Belə ki, agentliyin Dövlət Xidmətləri Portalı üzərindən həyata keçirdiyi 19 xidmətdən 13-nün elektron hökumət Portalı vasitəsilə fasiləsiz fəaliyyət göstərməsi təmin edilmişdir.



Ötən il yeni yaradılmış Çağrı mərkəzinin fəaliyyəti də səmərəlidir. Bu sistem əqli mülkiyyət obyektləri, o cümlədən sənaye mülkiyyəti obyektlərinin qeydiyyatı sahəsində fəaliyyətin operativliyinin və əhaliyə göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılmasında mühüm rol oynayır. Təhlillərdən aydın olur ki, mərkəzin fəaliyyəti ixtira və patent fəallığının artmasına və mövcud problemlərin operativ şəkildə qısa müddətdə həllinə müsbət təsir göstərir. Təkcə onu demək kifayətdir ki, ötən il əqli mülkiyyət məsələləri ilə bağlı 17115-dən artıq telefon zəngi bu mərkəz vasitəsilə cavablandırılmış, məsləhətlər verilmişdir. Bundan başqa, agentlikdə ictimai əsaslarla fəaliyyət göstərən "Hüquq məsləhətxanası" da müəlliflərə və digər hüquq sahiblərinə lazımi köməklik göstərmişdir.

Ötən il əqli mülkiyyət sisteminin avtomatlaşdırılması layihəsi üzrə aparılan işlər də tamamlanmış və əvvəllər tətbiq olunan IPOA sistemindən Ümumdünya Əqli Mülkiyyət Təşkilatının təqdim etdiyi və hazırda 50-yə qədər ölkədə istifadə olunan daha müasir və səmərəli IPAS sisteminə əmtəə nişanları üzrə miqrasiya prosesi başa çatdırılmışdır.

### Elm və sənaye arasında bağlantı qurulur

Müasir cəmiyyətdə əqli fəaliyyət nəticələrinin kommersiyalaşdırılması, transferi və sənaye tətbiqi, həmçinin innovasiyalara dəstək verilməsinin iqtisadiyyatın dinamik inkişafına birbaşa təsir edən amillərdən olduğu nəzərə alınmaqla agentlik tərəfindən bu sahədə ötən il ərzində təhlillər davam etdirilmiş, innovativ inkişafa və əqli fəaliyyət nəticələri olan yeni texnologiyaların tətbiq olunması, onların kommersiyalaşdırılması və transferi, texnoloji innovasiyaların stimullaşdırılması istiqamətlərində tədbirlər həyata keçirilmişdir.

Elm və sənaye arasında bağlantı yaradılması, əqli fəaliyyət nəticələrinin kommersiyalaşdırılması və transferi istiqamətlərində görülən işlərin nəticəsi olaraq, ölkə Prezidentinin "Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin tabeliyində "Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzi"nin yaradılması haqqında" 2021-ci il 6 aprel tarixli fərmanının 1-ci hissəsinin icrasını təmin etmək məqsədilə Nazirlər Kabinetinin 22 aprel 2021-ci il tarixli Qərarı ilə Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin tabeliyində "Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzi" yaradılmışdır. Hazırda mərkəzin fəaliyyətinin təşkili üzrə tədbirlər davam etdirilir.

Mərkəz elm və sənaye arasında bağlantı, qarşılıqlı sifariş və təklif münasibətlərinin yaradılması, ixtiraçılıq fəaliyyətinin keyfiyyətcə artırılması və tətbiqi xarakter daşıması üçün texnologiyaların transferi və əqli fəaliyyət nəticələrinin kommersiyalaşdırılması, transferi, innovativ inkişafın, o cümlədən startap layihələrinin dəstəklənməsi, müştərilərə texnologiyaların və layihələrin hədəf bazarlarına çıxarılması xidmətlərinin göstərilməsi və s. sahələrdə fəaliyyəti əlaqələndirəcək.

Agentliyin cari fəaliyyətinin nəticələrinin təhlili də əqli mülkiyyət sahəsinin inkişafında davamlı müsbət dinamikanı təsdiq edir. 2021-ci ildə ixtira, faydalı model və sənaye nümunəsinin qeydiyyatı ilə bağlı agentliyə müraciətlərin sayının xeyli artması müşahidə olunur. Belə ki, həmin obyektlərin qeydiyyatı ilə bağlı 193, o cümlədən ixtiraya dair 135, faydalı modelə dair 32, sənaye nümunəsinə dair 26 iddia sənədi daxil olmuşdur. Aparılan ekspertizanın nəticələri olaraq, ötən il sənaye mülkiyyəti obyektləri üzrə dövlət reyestrində ixtiralara dair 119, faydalı modellərə dair 27, sənaye nümunələrinə dair isə 27 patent verilmişdir. Bununla yanaşı, 2021-ci ildə müvafiq dövlət reyestrində 2379 əmtəə nişanı qeydiyyata alınmışdır. Onlardan 1453-ü milli, 926-sı isə xarici fiziki və hüquqi şəxslərə məxsusdur. Qeydiyyata alınan əmtəə nişanlarından 22-si şərabçılıq məhsulları, 3-ü xalçaçılıq sənətinə aiddir. Qeydiyyata alınmış əmtəə nişanlarından 12-sinin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının payına düşməsi xüsusilə sevindiricidir.

### Azərbaycan beynəlxalq reytinq cədvəllərində irəliləyir

Əqli mülkiyyət sahəsində həyata keçirilən islahatların müsbət nəticələri ölkəmizin beynəlxalq reytinqlərdə mövqelərini daha da möhkəmləndirməkdədir. Bu nəticələr nüfuzlu beynəlxalq təşkilatların hesabatlarında öz əksini tapır. Məsələn, Dünya İqtisadi Forumunun Qlobal Rəqabətqabiliyyətlilik İndeksi üzrə sonuncu hesabatına görə, Azərbaycan 141 ölkə arasında "əqli mülkiyyətin qorunması" göstəricisinə görə 30-cu yeri tutmuşdur. Bu göstərici üzrə ölkəmiz MDB-də 1-ci yeri tutaraq bir çox Avropa ölkələrini də qabaqlayır.

2021-ci ildə Qlobal İnnovasiya İndeksi üzrə reytinqdə Azərbaycan "Kreativ fəaliyyətin nəticələri" bloku üzrə 67-ci, "Qeyri-maddi aktivlər" göstəricisi üzrə 54-cü yerdə olmuşdur. "İnnovasiya əlaqələri" istiqaməti üzrə ölkəmiz "Universitetlər və sənaye arasında əməkdaşlıq" və "Klaster inkişafı" göstəricilərinə görə müvafiq olaraq 23-cü və 27-ci yerlərə yüksəlmişdir. Ölkəmiz "Rezidentlərin ixtiralara iddia sənədləri" üzrə 8, "Rezidentlərin faydalı modellərə iddia sənədləri" üzrə 11, "sənaye nümunələri" üzrə 18, "əmtəə nişanları" üzrə 11, "patent ailələri" üzrə 12 pillə irəliləmişdir.

### Əqli mülkiyyət hüquqlarının təminatı və maarifləndirmə tədbirləri davam edir

Əqli mülkiyyət hüquqlarının təminatı məsələləri də prioritet istiqamət kimi diqqət mərkəzində saxlanmış, pozulmuş müəllif hüquqlarının bərpası ilə bağlı daxil olan 8 yazılı müraciət müəllif-hüquq qanunvericiliyinin tələbləri nöqteyi-nəzərindən araşdırılmış və müvafiq qərarlar qəbul edilmişdir. Agentliyin nümayəndələri əqli mülkiyyət obyektləri ilə bağlı müxtəlif məhkəmə instansiyalarında keçirilmiş 54 iş üzrə (onlardan 46-sı sənaye mülkiyyəti obyektləri, 8-i isə müəllif hüquqları ilə bağlı) 160-dan çox məhkəmə iclasında iştirak etmiş, hər bir işə dair ekspert rəyi hazırlanmış və təqdim olunmuşdur.

Agentliyin sənaye mülkiyyətinin mühafizəsi sahəsində mübahisələrə baxan Apellyasiya şurasına daxil olmuş 245 müraciətə operativ qaydada baxılmış, ötən dövr üzrə daxil olmuş və yekunlaşdırılmış işlər də nəzərə alınmaqla, il ərzində 226 işə baxılmış, 110 iş üzrə ərizənin təmin edilməsi, 43 iş üzrə ərizənin qismən təmin edilməsi, 66 iş üzrə, o cümlədən əmtəə nişanına dair 62, ixtiraya dair 2, faydalı modelə dair 2 ərizənin rədd edilməsi, 7 ərizənin baxılmamış saxlanması barədə qərarlar qəbul olunmuşdur. Piratçılığa qarşı mübarizə tədbirləri çərçivəsində bir sıra çap məhsullarının nəzarət markası ilə buraxılması təmin edilmiş, il ərzində 352100 ədəd nəzarət markası verilmişdir.

Agentliyin proqram təminatı sahəsində həyata keçirdiyi müvafiq tədbirləri də qeyd etmək lazımdır. Bu məsələlərlə bağlı il ərzində ABŞ-ın "Microsoft", "Oracle" və "Trimble Tekla" şirkətləri ilə əməkdaşlıq davam etdirilmiş, qarşılıqlı əlaqələrin perspektivləri ilə bağlı geniş müzakirələr aparılmışdır.

Təbii ki, sahə üzrə biliklərin artırılması və maarifləndirmə məsələləri də bu sahədə aparılan işlərin səmərəliliyinin yüksəlməsində önəmli amillərdəndir. Agentlikdə bununla bağlı müxtəlif tədbirlərdə "İnnovasiyalı inkişaf və əqli mülkiyyət hüquqları", "Əqli mülkiyyət innovativ inkişaf kontekstində", "Kreativ iqtisadiyyat, əqli mülkiyyət və iqtisadi artım", "Nə etməliyik ki, biznes və mədəniyyət müxtəlif qütblərdə yerləşməsinlər", "Azərbaycanda ixtiraçılıq və patent analitikası", "Azərbaycanda sənaye nümunələrinin, coğrafi göstəricilərin və əmtəə nişanlarının analitik icmalı", "Azərbaycanın texnoloji profili və dünyanın qabaqcıl texnoloji sahələri (patent analitikası)", "İnnovasiyaların kommersiyalaşdırılması sisteminin təmin edilməsi" altməqsədi əsasında innovasiya ekosisteminin uğurlu inkişafının təmin edilməsinin sistemli analizi", "Связь авторского и патентного права: нормативно-правовые и коллизионные аспекты", "Права интеллектуальной собственности и экономическое развитие","О задачах, стоящих перед системой интеллектуальной собственности в контексте ее развития", "Что нуйно, чтобы инновации ройдались, внедрялись и приносили доход? (экспертные оценки и материалы социологических исследованийМСП)" və s. mövzularda təqdimatlar edilmiş, həmin təqdimatlar üzrə kitabçalar hazırlanmış və çap edilərək yayılmışdır.

Əqli mülkiyyət hüquqlarının qorunması və təminatı sahəsində digər dövlət qurumları ilə son illər aparılan əlaqəli birgə tədbirlərin nəticəsi olaraq, audio-video məhsul bazarında, proqram təminatı və kitab sənayesi sahəsində piratçılığın səviyyəsi xeyli aşağı düşmüşdür. Məsələn, kitab satışı sahəsində piratçılıq son 15 ildə 61 faizdən 20 faizə qədər azalmışdır.

Müəlliflik hüququna əsaslanan yaradıcı sənaye sahəsində də müsbət dəyişikliklər davam etməkdədir. Milli iqtisadiyyat sahələri üzrə faktiki statistik göstəricilərin və dövlət büdcəsi rəqəmlərinin agentlik tərəfindən aparılmış təhlili göstərir ki, ölkəmizin ÜDM-də kreativ sənayenin payı daim yüksələn xətlə inkişaf etmişdir. Bu pay 2010-cu ildə olan 3,5 faizdən 2021-ci il yanvarın 1-nə olan vəziyyətə görə 5,3 faizə yüksəlmişdir. Yalnız müəlliflik hüququna əsaslanan sənaye sahələrinin payı isə son 10 il ərzində 1,8 faizdən 2,9 faizə qədər artmışdır. Bu dövr ərzində sözügedən sahələrdə istehsalın həcmi 4020,3 milyon manat təşkil etmişdir ki, bu da kifayət qədər əhəmiyyətli göstəricidir.

### Azərbaycanın beynəlxalq uğurlarının göstəriciləri

Ötən il Azərbaycanın əqli mülkiyyət sistemi beynəlxalq səviyyədə bir sıra əlamətdar hadisələrlə zəngin olmuşdur. 2021-ci ildə İsveçrənin Cenevrə şəhərində keçirilən ÜƏMT üzv-dövlətlərinin assambleyalarının 62-ci sessiyasında ÜƏMT komitələrinə seçkilər zamanı ölkəmiz yenidən bu təşkilatın fəaliyyətinin təşkilində xüsusi əhəmiyyəti olan Koordinasiya Komitəsinin, Proqram və Büdcə Komitəsinin üzvü seçilmişdir.

Agentliyin nümayəndələri ÜƏMT bölmələrinin, o cümlədən təşkilatın Müəllif Hüquqları və Əlaqəli Hüquqlar üzrə Daimi Komitəsinin, Patent Hüququ üzrə Daimi Komitəsinin, Proqram və Büdcə Komitəsinin, Əqli mülkiyyət və genetik resurslar, ənənəvi biliklər və folklor üzrə Hökumətlərarası Komitəsinin hibrid rejimdə keçirilən sessiyalarında onlayn qaydada iştirak etmiş, müzakirə edilən sənədlərin müddəalarının razılaşdırılmasına öz töhfələrini vermişlər.

Agentliyin təşəbbüsü və dəstəyi ilə ölkəmizin gənc ixtiraçılarının beynəlxalq səviyyədə qazandıqları nailiyyətləri də qeyd etmək lazımdır. Belə ki, Avrasiya Patent İdarəsinin 25 illiyinə həsr olunmuş "Gələcəyə baxış" Universiadasında qaliblər sırasında ölkəmizin gənc ixtiraçıları da yer almışlar. Avrasiya Patent Konvensiyasının üzvü olan dövlətlərin təhsil müəssisələrinin tələbələri, habelə 18-25 yaşlı gənclər arasında keçirilən müsabiqədə azərbaycanlı iştirakçıların "Tibbi müəssisələrdə koronavirusun (COVID-19) aşkarlanması və avtomatik aradan qaldırılması üçün mobil robot" adlı layihəsi 2-ci, "Elektronika üçün epitaksial CdFeTe plyonkaları" adlı layihəsi isə 3-cü yerə layiq görülmüşdür.

Əqli Mülkiyyət Agentliyinin Aparatının və tabeliyində olan qurumların əməkdaşları il ərzində öz fəaliyyət sahələri üzrə biliklərini artırmaq məqsədilə ÜƏMT Akademiyasının distant təhsil və ixtisasartırma kurslarında, həmçinin əqli mülkiyyət sahəsi ilə bağlı 50-dən artıq milli və beynəlxalq kurs, seminar və konfranslarda iştirak etmiş, əqli mülkiyyətin müxtəlif sahələri üzrə 28 sertifikat almışlar.

Əqli mülkiyyət bəşəriyyət üçün bir dəyərdir. Bütün bu qeydlər belə bir dəyərin Azərbaycanda daim uca tutulduğunu və ölkəmizin qlobal dünyanın bir parçası kimi mühüm uğurlarına yol açdığını göstərir.

***İradə ƏLİYEVA, "Azərbaycan"***

---

## ADAU-nun tələbələri İsraildə 11 aylıq təcrübə keçəcəklər



Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi və İsrailin Arava Beynəlxalq Kənd Təsərrüfatı Tədris Mərkəzi (AİCAT) aqrar sahədə fəaliyyət göstərən gənc mütəxəssislər üçün təşkil etdikləri yeni təcrübə proqramı ilə tələbələri məlumatlandırmaq üçün Azərbaycan Dövlət Aqrar Universitetində görüş keçirilmişdir.

Aqronomluq fakültəsində keçirilən görüşdə çıxış edən universitetin rektoru, AMEA-nın müxbir üzvü, professor İbrahim Cəfərov bildirib ki, qeyd olunan təcrübə proqramı aqronomluq, torpaqşünaslıq, aqrokimya, baytarlıq, zoomühəndislik, aqrobiznes, iqtisadiyyat, biologiya, qida təhlükəsizliyi və qida mühəndisliyi ixtisaslarında təhsil alan sonuncu kurs tələbələri, magistrantları və məzunları üçün geniş imkanlar açır. Rektor tələbələri bu fürsətdən yararlanmağa çağıraraq təlimin başladığı dövrdən indiyədək 20 mindən çox iştirakçıya bilik və bacarıqlarını nümayiş etdirmək üçün imkan yarandığını diqqətə çatdırmışdır.

Tədbirdə o da vurğulanmışdır ki, 2022-ci ilin avqustundan 2023-cü ilin iyununa kimi davam edəcək təlimdə iştirakçılar Aravadakı fermaların ərazisində təşkil edilən şəhərcikdə yaşayacaq və innovativ əkinçilik texnikası ilə tanış olacaq, tədqiqat layihələrində iştirak edəcəklər.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılmışdır.

***Sabir ƏLİYEV, "Azərbaycan"***

---

## Xırdalanda "Oxu günü" festivalı keçirilib

Xırdalan şəhərindəki Heydər Əliyev Parkında "Oxu günü" adlı sərgi-festival keçirilib.



Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü münasibətilə "Hədəf Nəşrləri" və "Azərbaycan Nəşriyyatları Assosiasiyası" İctimai Birliyinin təşkilatçılığı ilə keçirilən tədbirdə Milli Məclisin deputatları, akademiklər, tanınmış yazıçılar, elm xadimləri, təhsil kollektivləri və rayon ictimaiyyətinin nümayəndələri iştirak etmişlər.

İştirakçılar əvvəlcə kitab, jurnal və qəzet stendlərinə baxmış, müəlliflərlə birbaşa dialoq qurmuş, diqqət və maraqlarını çəkən kitablar haqqında fikir mübadiləsi aparmışlar. Bildirilmişdir ki, "Oxu günü" kitabın, mütaliənin təbliğatında böyük rol oynayır, oxucu-yazıçı birliyini möhkəmləndirir. Gələcək yeni əsərlər bu birliyin nəticəsində ərsəyə gəlir.

Xatırladaq ki, "Oxu günü" festivalı 2015-ci ildən keçirilir.

***Akif ƏLİYEV, "Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ



## Sənayeləşmə zəngin təcrübəyə və müasir texnologiyalara əsaslananda daha çox səmərə verir

### Ölkə üzrə qeyri-neft sənaye məhsulları istehsalında 18, ixracında isə 45 faiz artım qeydə alınıb

**Məlum olduğu kimi, iqtisadiyyatın və inkişafın fundamental təməli sənayedir. Başqa sözlə, sənaye hər bir ölkənin iqtisadi inkişafını təmin edən və dayanıqlılığını qoruyan başlıca amildir. Bu gün dünya iqtisadiyyatında önəmli yer tutan ABŞ, İngiltərə, Fransa, Almaniya, İtaliya, Kanada və Yaponiya məhz sənayesi inkişaf etmiş ölkələrdir. İnkişaf etməkdə olan ölkələr kateqoriyasına daxil olmaq üçün də sənayenin müəyyən qədər inkişafı əsas şərtlərdən biridir.**

Azərbaycan müstəqilliyə yenidən qovuşduqdan sonra qarşıya qoyulan əsas hədəf inkişaf etmiş sənaye ölkəsinə çevrilməkdir. Bu, çətin və böyük zəhmət tələb edir. İnkişaf etmiş ölkələr buna nail olmaq üçün uzun və çətin bir yol keçmişlər. Ancaq bu, bizim üçün çox da çətin olmayacaq. Əsas səbəb odur ki, indi dünyada yeni texnika və texnologiyaların transferi çətin deyil. İkincisi, ölkəmiz sənayenin inkişafı istiqamətində müəyyən yol keçmişdir. Belə ki, sovetlər dönəmində Azərbaycan inkişaf etmiş sənayeyə sahib olan müttəfiq respublikalardan biri idi.

Azərbaycan SSRİ dövründə nəinki ittifaqda, hətta dünyada neft sənayesinin inkişafına görə sayılıb-seçilirdi. Sovetlər birliyindəki neft-maşınqayırma sənayesinin 72 faizi Bakıda cəmləşmişdi. Bakıda fəaliyyət göstərən müəssisələr daxili tələbatı ödəməklə yanaşı, dünya bazarına da neft-maşınqayırma avadanlıqları göndərirdi. Bununla yanaşı, ölkəmizdə sənayenin mürəkkəb sahələri olan alətqayırma, dəzgahqayırma, kimya sənayesi, neft emalı, elektrotexnika, həmçinin yüngül və toxuculuq sənayesi, eləcə də digər sahələr inkişaf etmişdi. İndi sənayeni yenidən bərpa etmək üçün geniş tədbirlərə başlamışıq. Doğrudur, bu sahədə zəngin təcrübəmiz və bacarıqlı kadr potensialımız vardı. Ancaq əsas məsələ odur ki, yeni dövr qarşıya yeni tələblər qoyur. Bu, həm kadr hazırlığına, həm də müəssisələrin istehsal imkanlarına aiddir. Odur ki, dövlət sənayeləşməni inkişaf etdirmək üçün kompleks tədbirlər həyata keçirir. Ciddi islahatlar aparılır, dövlət proqramları qəbul edilir, kadr hazırlamaq üçün gənclərimizin dövlət vəsaiti hesabına xaricdə təhsil alması təmin olunur.

"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası əsas hədəflərimizi müəyyənləşdirib. Həmin sənədin qəbulu və icrası sayəsində mühüm işlər görülür. Xüsusilə qeyri-neft sənayesinin inkişafı istiqamətində bu inkişaf konsepsiyasının icrası önəmli rol oynayır. Ölkəmizdə indiyədək bir çox sənaye müəssisələri tikilib və onlar dünyanın qabaqcıl texnologiyaları ilə təchiz edilib. Bunun sayəsində ölkəmizdə istehsal olunan bir çox sənaye məhsulları dünya bazarında rəqabət apararaq özünə alıcı tapa bilir.

Sənayenin inkişafı üçün dövlətin özəl sektora dəstək verməsi isə xüsusilə əhəmiyyətlidir. Çünki sənayenin inkişafında özəl sektorun aktiv rol alması məhsul istehsalında da özünü büruzə verir. Statistikaya görə də son bir neçə ildə qeyri-neft sənayesində məhsul istehsalının 80 faizdən çoxu yerli və xarici sahibkarlara məxsusdur.

Dövlət qeyri-neft sektoru, həmçinin qeyri-neft sənayesinin inkişafı istiqamətində siyasətini davam etdirir. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında dövlət başçısı tərəfindən sərəncam imzalanıb. 2021-2030-cu illərdə ölkənin iqtisadi inkişafı istiqamətlərini müəyyən edən bu sənədin də əsas məqsədlərindən biri ölkədə sənaye və sahibkarlığın inkişafıdır.

Sənayeləşmədə sahibkarlığın rolu böyükdür. Qeyd etdiyimiz kimi, son bir neçə ildə qeyri-neft sənaye məhsulu istehsalının çoxu sahibkarlara məxsusdur. Bu da onlara göstərilən dövlət qayğısı sayəsində mümkün olub. Belə ki, sahibkarlıq sahəsində yoxlamalar 2023-cü ilədək dayandırılmış, lisenziyalaşdırılan fəaliyyət növlərinin sayı 59-dan 37-yə, icazələrin sayı təqribən 4 dəfə azaldılaraq 86-ya endirilmiş, lisenziyanın verilməsinə görə dövlət rüsumları Bakıda 2, regionlar üzrə 4 dəfə azaldılmışdır. Bütün bunlar, qeyd edildiyi kimi, son nəticədə qeyri-neft sənayesində məhsul istehsalında özəl sektoru önə çıxarmışdır.

Prezident İlham Əliyev dəfələrlə bəyan etmişdir ki, ölkənin əsas hədəfi Azərbaycanı inkişaf etmiş sənaye ölkələri səviyyəsinə qaldırmaqdır. Bunun üçün ölkəmiz sənayeni inkişaf etdirməli, neft-qazdan asılılığı aradan qaldırmalıdır. Hazırda addım-addım bu məqsədə doğru irəliləyirik. Prezident İlham Əliyev cari ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə bu barədə demişdir: "Qeyri-neft sektorunda isə bu, daha da yüksək rəqəmlərlə ölçülür. Qeyri-neft iqtisadiyyatımız 10 faizdən çox artıb. Sənaye istehsalı sahəsində artım təxminən 4 faizdir, ancaq qeyri-neft sənaye istehsalında 18 faizdən çoxdur... Qeyri-neft ixracımız da kifayət qədər artıb - 45 faiz".

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## Daha 152 nəfər peşə hazırlığı kurslarına cəlb edilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyinin Bakı Peşə Hazırlığı Mərkəzində daha 11 peşə üzrə hazırlıq kursuna başlanıb.**

152 işsiz şəxsin cəlb olunduğu kurslar qənnadçı, şirniyyatçı, alətçi - çilingər, dayə, mobil telefonların təmiri ustası, minaaxtaran, bağban və s. peşələr üzrədir.

İşəgötürənlərlə əməkdaşlıq çərçivəsində həyata keçirilən kurslarda müdavimlərə nəzəri biliklər tədris edilməklə yanaşı, müvafiq sahələr üzrə müəssisələrdə təcrübə keçmələrinə də şərait yaradılacaq.

Kursun sonunda imtahanlardan müvəffəqiyyətlə keçən məzunlara sertifikatlar təqdim ediləcək və onların işlə təmin olunmalarına dəstək göstəriləcək.

Peşə hazırlığı müddətində müdavimlərə minimum aylıq əməkhaqqı məbləğində aylıq təqaüd də veriləcək.

## "Həyata bizimlə addım atın"

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təqdim etdiyi yeni videoçarx əlilliyi olan şəxslərin aktiv həyata dönüşü üçün onların reabilitasiya vasitələri, o cümlədən protez-ortopedik vasitələrlə təminatından bəhs edir.**

Bu ilin ilk rübündə nazirlik tərəfindən əlilliyi olan şəxslərə 13,1 min reabilitasiya vasitəsi verilib. 2020-ci ilin dekabr ayından başlanan yeni proqram çərçivəsində isə 270 nəfər müharibə əlili 290 ədəd yüksək texnologiyalı 4-cü nəsil müasir protezlə təmin edilib.

"Həyata bizimlə addım atın" devizini ifadə edən videoçarxda reabilitasiya vasitələrinin, habelə dünyanın məşhur şirkətləri ilə əməkdaşlıq müstəvisində 4-cü nəsil müasir protezlərin hazırlanması və təqdim olunmasından, onların üstünlüklərindən bəhs olunur.

## Birinci rübdə ixrac olunan neftin 77,2 faizi BTC-nin payına düşüb

**Cari ilin yanvar-mart aylarında magistral neft kəmərləri ilə 8 milyon 642,5 min ton neft nəql edilib.**

Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, nəqletmənin 77,2 faizi Bakı-Tbilisi-Ceyhan neft ixrac kəməri ilə həyata keçirilib və bu kəmər vasitəsilə 675 min ton neft ötürülüb. Dövr ərzində BTC kəməri ilə 1 milyon 201,7 min ton tranzit nefti də nəql olunub.

## Özəl müəssisələrin 99,6 faizi KOB subyektləridir

**"Ölkəmizdə özəl sektorun dəstəklənməsi dövlət siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir. Həyata keçirilən ardıcıl tədbirlər nəticəsində hər il "Sahibkarlar günü" biznes mühitinin effektivliyinin daha da artırılması, yeni idarəetmə modellərinin tətbiqi və yeni dəstək mexanizmlərinin yaranması ilə müşayiət edilir".**

AZƏRTAC xəbər verir ki, bu fikirləri Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov deyib.

"KOBİA-nın fəaliyyəti də məhz sahibkarlıq sahəsində müasir dövrün çağırışlarına uyğun yeni təşkilati modellərin yaradılmasına və sahibkarlığın təşviqinə yönəldilib. Nəzərə alsaq ki, ölkəmizdə fəaliyyət göstərən biznes subyektlərinin 99,6 faizini KOB subyektləri təşkil edir, o zaman, şübhəsiz ki, ölkənin dayanıqlı inkişafı kiçik və orta biznesin inkişaf səviyyəsi ilə sıx bağlıdır", - deyə Orxan Məmmədov vurğulayıb.

## Fərdi Reabilitasiya və Abilitasiya Proqramının tətbiqi üzrə altsistem hazırlanır

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Fərdi Reabilitasiya və Abilitasiya Proqramının (FRAP) tətbiqi üzrə altsistem hazırlanır.**

FRAP əlilliyi olan şəxslərin tibbi, peşə-əmək, psixoloji-pedaqoji reabilitasiyası və sosial bacarıqlarının inkişafı ilə əlaqədar kompleks tədbirləri özündə əks etdirir.

Yeni altsistem bu sahədə reabilitasiya müəssisələri ilə Tibbi-Sosial Ekspert Komissiyaları arasında e-formada məlumat mübadiləsinə, onların əlaqəli fəaliyyətinin qurulmasına xidmət edəcək.

Nazirliyin mərkəzləşdirilmiş elektron informasiya sisteminin tərkib hissəsi olacaq həmin altsistem qeyd olunan proseslərin təşkilində şəffaflığın artırılmasına, eləcə də bu sahəyə nəzarətin daha təkmil qurulmasına şərait yaradacaq.

Reabilitasiya müəssisələrinə qəbul edilmiş şəxslərlə bağlı reabilitasiya tədbirləri və nəticələri barəsində məlumatlar da e-sistemdə toplanacaq və FRAP-ların hazırlanmasında zəruri informasiya bazası rolunu oynayacaq.

## İki ayda ölkəyə 87 avtobus gətirilib

**Yanvar-fevral aylarında Azərbaycana 87 avtobus idxal olunub.**

Dövlət Statistika Komitəsindən AZƏRTACA-a bildirilib ki, cari ilin iki ayında ölkəyə 10 min 340 minik avtomobili və 668 yük avtomobili gətirilib.



## Köndələnçay bağlara bar, tarlalara bərəkət gətirəcək

### İşğaldan azad edilmiş ərazilərdə 9 su anbarı tikilir və təmir olunur

**30 illik işğal dövründə erməni vandalları çaylarımıza qarşı da ekoloji terror törədərək onların sularını olmazın dərəcədə çirkləndirmişlər. Eyni zamanda su ehtiyatlarından məqsədli şəkildə təzyiq vasitəsi kimi istifadə etmişlər. Kənd təsərrüfatında işlərin qızğın çağında, suvarmaya ciddi ehtiyac olduğu mövsümlərdə çayların qarşısını kəsmişlər.**

Daşqınlar baş verəndə, eləcə də əkinlərə su lazım olmayan vaxtlarda anbarların ağzını açaraq ciddi problemlər yaratmışlar. Su anbarlarının qəsdən dağıdılması düşmənin təkcə Qarabağ və Şərqi Zəngəzurun deyil, nəticə etibarilə ölkəmizin aqrar sahəsinə vurduğu ağır zərbədir.

Uzun müddət ərzində həmin taleyi Köndələnçay və çayın üzərindəki su anbarı da yaşayıb. Təsadüfi deyil ki, cari ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə Prezident İlham Əliyev bu məsələyə bir daha toxunub: "Görün, işğal altında qalan su anbarları nə qədər idi. Xudafərin - 1 milyard 600 milyon kubmetr su ehtiyatı olan ən böyük su anbarı, Qız qalası, Suqovuşan, Xaçın, Köndələnçay-1, Köndələnçay-2, Aşağı Köndələnçay, Ağdamkənd - bax bu su anbarları işğal altında idi. İndi biz onları bərpa edirik və bərpa edəcəyik. Konkret layihələrə gəldikdə, mən bu sahədə hansı işlər görüləcəyini də bildirməliyəm. Həkəriçay su anbarının tikintisi nəzərdə tutulur, yeni su anbarı olacaq. Suqovuşan su anbarının və kanalın təmiri. Kanalın uzunluğu 5,2 kilometrdir, təmirdən sonra Suqovuşandan daha böyük əraziyə suyun verilməsi mümkün olacaq. Xaçınçay su anbarının və 7 kilometr uzunluğunda kanalın təmiri. Onu da bildirməliyəm ki, Xaçınçay su anbarı düz Fərrux dağının altındadır, Fərrux kəndinin düz böyüründədir və ermənilərin hərbi mövqeləri bu su anbarının istismarını təhlükəyə salmışdı, yəni böyük bir təhlükə mənbəyi idi. Dəfələrlə oradan və digər kəndlərdən Ağdam istiqamətinə atəş açılırdı. Fərrux dağını, məncə, indi dünyada tanımayan yoxdur və Azərbaycanın böyük dağı olan Fərrux dağı bu gün bizim nəzarətimizdədir, Azərbaycan bayrağı orada dalğalanır. Xaçınçayın təhlükəsizliyi və bu sudan istifadə etmək üçün Fərrux dağının böyük əhəmiyyəti var. Ondan sonra Aşağı Köndələnçay, Köndələnçay-1 və Köndələnçay-2 su anbarlarının təmiri nəzərdə tutulur. Tərtərçay Sol Sahil kanalının, Ağdam, Füzuli və Cəbrayıl rayonlarının su təsərrüfatı kompleksinin yenidən qurulması, o cümlədən su mənbələrinin müəyyən edilməsi nəzərdə tutulur. Çünki sovet vaxtında olan su mənbələri bəzi səbəblərə görə uyğun olmaya bilər. Ona görə bu kompleks tədbirlər nəzərdə tutulur və Bərgüşad su anbarının layihəsinin hazırlanması bu il öz həllini tapmalıdır. Bu yaxınlarda verilən yeni təklif əsasında Zəngilan, ya da Qubadlı rayonlarının birində yeni su anbarının tikintisi nəzərdə tutulur və bu kanalların inşası bizə imkan verəcək ki, yaxın zamanlarda 10 min hektarı suvarma ilə təmin edək. Yenə də demək istəyirəm ki, bütün bu işlər ümumi su təsərrüfatı sistemimizə inteqrasiya edilməlidir".

Bu il aprelin 21-də isə dövlət başçısı Füzuli rayonunda Köndələnçay su anbarlarında aparılacaq təmir-bərpa işləri ilə tanış olub.

Köndələnçay üzərində 3 su anbarı var. Onlardan biri -"Köndələnçay-1" 1951-ci ildə inşa edilib. Bu su anbarının tutumu 2,1 milyon kubmetr təşkil edir. "Köndələnçay-2" anbarının isə 3,9 milyon kubmetr su tutumu var. Çay üzərində yerləşən ən böyük anbar Aşağı Köndələnçay su anbarıdır və 9,5 milyon kubmetr su tutumuna malikdir. Mütəxəssislərin fikrincə, sözügedən bu anbarlara həmçinin Köndələnçaya paralel axan Quruçaydan iki hidroqovşaq vasitəsilə su axıdılması mümkündür.

Xatırladaq ki, dövlət başçısı keçən il iyunun 14-də də Aşağı Köndələnçay su anbarının yerləşdiyi əraziyə gəlmişdi və anbarın qələbəmizdən əvvəl düşmənin əlində olduğunu xatırladaraq demişdir: "Uzun illər biz bu sudan məhrum idik. İkinci Qarabağ müharibəsindən sonra artıq bizim əlimizdədir və bundan sonra Azərbaycan xalqının maraqlarına xidmət edəcək. Bu su anbarı Ulu Öndər Heydər Əliyevin göstərişi və təşəbbüsü ilə 1980-ci illərin əvvəllərində inşa edilmişdir. Bunun əsas məqsədi Füzuli rayonunda kənd təsərrüfatının inkişafı idi və minlərlə hektar torpaq bu anbar vasitəsilə suvarılırdı. Biz Vətən müharibəsindən sonra həm Suqovuşan su anbarını nəzarətə götürdük, həm də Köndələnçay su anbarı bizim əlimizdədir".

Məlumdur ki, işğal dövründə Sərsəng və Suqovuşan su anbarları da düşmənin əlində olduğuna görə 100 min hektar torpaq susuz qalmışdı və bir neçə rayonda su təminatını yaxşılaşdırmaq üçün yüzlərlə subartezian quyusu qazılmışdır. Ağdam, Tərtər, Bərdə, Yevlax, Goranboy və digər rayonlar Tərtərçayın suyundan məhrum edilmişdi. Vətən müharibəsindən sonra minlərlə hektar sahəyə Suqovuşan anbarından su verilməsinə başlanmışdır. Eyni zamanda Ağdam rayonunda Xaçınçay su anbarı da işğaldan azad edilmişdir və o, həcm baxımından böyük bir su mənbəyidir.

Prezident artıq bu anbarların gələcək istismarı ilə bağlı müvafiq göstərişlər verildiyini, azad edilmiş bütün torpaqların su mənbələrinin xəritəsinin hazırlandığını nəzərə çatdırmışdır: "Bizim bütün su ehtiyatlarımız, çaylarımız, göllərimiz, su anbarlarımız - bu sərvətimiz indi bizim əlimizdədir. Bu sudan səmərəli şəkildə istifadə etmək üçün yeni kanalların çəkilməsi və köhnə kanalların bərpası məqsədilə artıq vəsait də ayrılıb, müvafiq göstərişlər verildi və geniş proqram icra edilməyə başlanmışdır".

Qeyd edildiyi kimi, budəfəki səfərində Prezident İlham Əliyev Köndələnçay su anbarlarında aparılacaq təmir-bərpa işləri ilə tanış oldu. Bir daha bildirildi ki, işğal dövründə on minlərlə hektar əkinəyararlı torpaq sahələrinin suvarılmaması faktiki olaraq bu sahələrin təsərrüfat dövriyyəsindən çıxarılmasına səbəb olub. Mövcud su anbarlarının qəsdən məhv edilməsi isə Ermənistanın Qarabağda aqrar sahədə dağıdıcı fəaliyyətinin nəticəsidir. Köndələnçay su anbarları buna bariz misaldır. Ümumi sistemə daxil olan "Köndələnçay-1", "Köndələnçay-2" və "Aşağı Köndələnçay" su anbarlarının bərpası ilə Füzuli rayonu ərazisində əkin sahəsinin suvarılması mümkün olacaq.

İşğaldan azad olunmuş ərazilərdə hazırda ümumilikdə 9 su anbarı tikilir və ya təmir olunur. Qarabağın və Şərqi Zənguzurun zəngin su ehtiyatlarının düzgün və səmərəli idarə olunması bütövlükdə regionun iqtisadi inkişafını sürətləndirəcək. Həmin ərazilərin kənd təsərrüfatı sahəsində potensialı ölkə iqtisadiyyatı üçün mühüm drayverlərdən birinə çevriləcək.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Tolerantlığın Azərbaycan nümunəsi







# Diriliş gecəsi

### Azərbaycanda yaşayan pravoslavlar Pasxa bayramını hər zamankı kimi böyük təmtəraqla qeyd etdilər

















**Aprelin 23-ü, şənbə günü gecə saat 23:00...**

**Xaçmazdakı qızıl günbəzli Müqəddəs Möcüzəvi Nikolay pravoslav kilsəsinin qarşısında böyük izdiham var. Hər kəs kilsəyə daxil olmaq üçün səbirsizlənir...**

**Bu gecə, xristianların dili ilə desək, İsa Məsihin diriliş gecəsidir. Xristianlar çarmıxa çəkilən peyğəmbərin 3-cü günün tamamında bu zülmə qalib gəldiyi gecəni ölüm üzərində qələbə günü - Pasxa bayramı kimi qeyd edirlər.**

**Və gözlənilən an yetişir...**

Kilsənin zəngi çalınır, müqəddəs məkanın qapıları açılır və insanlar növbə ilə içəri daxil olmağa başlayırlar. Kilsənin mərkəzindəki simvolik qəbirin qarşısında keşiş, arxasında isə 3 köməkçisi dayanıb. İnsanlar sırayla şamlarını yandırıb ikonaların qarşısında yerlərini alırlar.

Beləliklə, ayin mərasimi başlayır. Keşiş gələnləri salamlayıb duaları oxumağa başlayır. Müqəddəs Nikolayın ikonasının arxasında dayanan xanımlar isə xorla keşişi müşayiət edirlər...

### Azərbaycanda ikinci ən böyük etnik qrup

Multikulturalizm və tolerantlıq məkanı kimi tanınana Azərbaycanda ötən həftəsonu pravoslav xristianları Pasxa bayramını qeyd etdilər. Biz də jurnalist marağı ilə həm pravoslavların Müqəddəs Möcüzəvi Nikolay kilsəsində keçirdikləri dini mərasimi, həm də müqəddəs məkandan ayrıldıqdan sonra səhərə qədər evlərində qeyd etdikləri bayram ayinlərinə şahidlik etmək üçün Xaçmaza yollanmışdıq. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin əməkdaşı Ramin Xudayev və Fərid Məmmədovun müşayiəti ilə burada gördüklərimiz, eşitdiklərimiz isə, həqiqətən, də çox maraqlı və xoş təəssürat yaratdı.

*Qısa xatırlatma:* Azərbaycanda İslamdan sonra ən böyük etnik dini qrup pravoslav xristianlarıdır. Onların Azərbaycana gəlişi XIX əsrdə rus çarizminin bölgələrdəki köçürmə siyasəti nəticəsində başlayıb. Buraya köçənlərin əksəriyyəti hərbçi və məmur ailələri olub. Onlar müxtəlif bölgələrdə məskunlaşdıqdan sonra dini ayinlərini icra etmək üçün kilsələr tikməyə başlayıblar.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Elnarə Kərimova bizimlə söhbətində bildirdi ki, Azərbaycanda pravoslav kilsəsinə 2 icma daxildir - rus və gürcü pravoslav kilsələri. Gürcü pravoslav kilsəsinin mənsubları etnik gürcülərdir. Rus pravoslav kilsəsinin mənsubları isə ruslar, ukraynalılar və belaruslardır. Dövlət Statistika Komitəsinin ən son 2009-cu il üçün hesabatında rusların sayı 119,3 min, ukraynalıların sayı 21,5 min, gürcülərin sayı 9,9 min nəfər göstərilir. Onlar Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərində və Xaçmaz, Gədəbəy, Qax, Şamaxı rayonlarında məskunlaşıblar. Pravoslavların ölkə ərazisində ümumilikdə 9 kilsəsi və 2 ibadət evi fəaliyyət göstərir.

Xaçmazda isə 8 min nəfərə yaxın pravoslav yaşayır. Bu da ümumi əhalinin 4-5 faizini təşkil edir. Onlar əsasən rayonun Köhnə Xaçmaz, Ləcət, Yalama, Müşkür, Nabran və Alekseyevka yaşayış məntəqələrində məskunlaşıblar. Rayonda Müqəddəs Möcüzəvi Nikolay pravoslav kilsəsi mövcuddur.

### Pasxa bayramında oruc tuturlar

Pasxa bayramı 2 aylıq orucluqla başlayır. Bu dövrdə ət, süd, balıq (2 dəfə istisna olmaqla) kimi məhsullar yeyilmir. Yalnız bayram günü gecə ayinlər yerinə yetirildikdən sonra oruc müddəti tamamlanır.

Xaçmaz pravoslavların sıx məskunlaşdığı bölgələrdən biri olmaqla yanaşı, həmçinin Pasxa bayramını xüsusi qeyd etmələri ilə də seçilir.

Bayram başlamazdan əvvəl rayondakı Rus icmasının sədri Azər Navinin evində qonaq olduq. Evlərinə çatar-çatmaz bizi böyük sevgi və istiqanlılıqla qarşılayan ailə gəlişimizdən məmlunluğunu qapının kandarındaca bəlli etdi. Süfrə arxasında əyləşdikdə ilk gözə çarpan da ev sahibəsi Marina xanımın bayram münasibətilə hazırladığı şirniyyatlar oldu. Xüsusi reseptləri olan Pasxanın təamlarından dada-dada Azər Navi ilə söhbətləşdik. Əsas məqsədi region üzrə pravoslavları bir araya toplamaq, onların problemlərini həll etmək, qayğıları ilə yaxından maraqlanmaq olan icmaya Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, həmçinin rayonun icra hakimiyyəti də böyük dəstək göstərir. Sözlərinə görə, ən xırda məsələni belə dilə gətirmək kifayət edir ki, dərhal mövzunun həlli ilə bağlı müvafiq təbdirlər görülsün.

### Azərbaycanı tərk edib gedənlər sonradan geri qayıdıblar

Azər Navi deyir ki, müstəqilliyin yeni əldə olunduğu vaxtlarda Azərbaycanda yaşayan xristianlar ən çətin dövrlərini yaşayıblar. Ancaq Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlişi ilə vəziyyət dəyişib. Dinindən, dilindən asılı olmadan hər kəsə ölkə ərazisində tam rahatlıqla yaşamaq haqqı verilib. Bu da insanlara ən böyük ümid işığı olub.

Sədr söyləyir ki, hazırda yaşadıqları ərazidə əsasən ruslar yaşayırmışlar: "İndi yaxınlıqdakı qonşularım azərbaycanlılardır. Rayondakı kəndlərdən birində bir rus qadın yaşayır, təmiz azərbaycanca o qədər gözəl danışır ki, heç demək olmaz ki, rusdur. Bir çox hallarda buradan gedənlər də olub, ancaq müəyyən vaxt keçdikdən sonra onlar getdikləri ölkələrə uyğunlaşa bilmədiklərindən yenidən doğma məskənlərinə geri qayıdıblar. Bunların hamısı onu göstərir ki, keçən illər ərzində hər iki xalq bir-birinə olduqca sıx qaynayıb-qarışıb".

Azər Navi son olaraq onu da əlavə edir ki, Xaçmaz tolerantlığın timsalında ən yaxşı nümunə göstəriləcək bölgələrdəndir: "Mən bəzən deyirəm ki, dünyada hər hansısa xalq, millət əsl tolerantlıq görmək istəyirsə, mütləq buraya gəlsin. Biz onlara təkcə yaşayış tərzimizi göstərərək ən gözəl nümunə ola bilərik".

Həyat yoldaşı Marina Panamarçuk isə söhbətimiz əsnasında dedi ki, Azərbaycanda yaşadığına görə çox xoşbəxtdir. Hətta bayramları burada 2 dəfə qeyd edirlər: "Bu gün mətbəximizə məxsus olan spesifik çeşidlərdən qonşulara payladığımız kimi, onlar da Novruzda süfrəmizi ləzzətli şirniyyatlarla doldururlar. Beləliklə də, biz hər iki xalqın bayramını keçirib, onlarla birlikdə belə xoş ab-havalara qərq oluruq".

### Qızılı günbəzli Müqəddəs Möcüzəvi Nikolay kilsəsi

Sonra Müqəddəs Möcüzəvi Nikolay kilsəsinə yollanırıq. Kilsənin həyətinə daxil olduqda axşam saat 22:00 idi. Bağçanı lampaların gur işıqları aydınladırdı. Kilsə küknar ağaclarının əhatəsində, sanki gülçiçəklərin qucağında yerləşir. Qapıları üzümüzə keşiş Qreqori açdı. Nurani üzlü ieromonax bizi içəri dəvət etdi. Bura içərisi hüzurla dolu bir ocağa bənzəyirdi…

Bayramın başlamasına 1 saat qaldığından keşiş və köməkçiləri kilsədə hazırlıq görürdülər. Əvvəlcə keşiş Qreqori ilə bu xristian məbədin tarixindən söz açdıq. O bildirdi ki, kilsənin yerində əvvəlcə ev olub, daha sonra ərazisi müqəddəs ibadətgahın tikilməsi üçün bağışlanılıb. Pravoslavların məbədi olan bu yer isə İkinci Dünya müharibəsindən dərhal sonra, 1946-cı ildə tikilib. Həmin vaxtdan da fəaliyyətdədir. Kilsənin divarları gil kərpiclə hörülüb. Yayı sərin, qışı isti keçən məbəd müqəddəs ikonalarla bəzədilmiş böyük ibadət zalı və altardan ibarətdir. Altara isə yalnız keşiş və köməkçiləri girə bilərlər.

Din xadimi Qreqori 2011-ci ildən kilsə rəhbərliyini icra edir. O vurğuladı ki, bura təyin edildikdən sonra çox işlər görüb. Bunlardan biri də günbəzin tikilməsidir: "2017-ci ilə qədər kilsənin indiki qızılı günbəzi yox idi. Günbəzsiz kilsənin isə əzəməti təəssüf ki, zahirdən bəlli olmur. Biz toplanan ianələrlə bunları Rusiyanın Volqodonsk şəhərindən gətirdik. Diqqətlə baxsanız, görərsiniz ki, günbəzin daxilində İsa peyğəmbərin rəsmi təsvir edilib".

Bundan əlavə, kilsə işıq, su və qaz sistemi ilə də daimi təchiz edilib. Məbədin həyətində tikilən yerdə isə bayramlarda və digər vaxtlarda uzaqdan yol qət edən insanlara çay və yemək süfrəsinin açılması üçün otaq var. İeromonax qeyd edir ki, pandemiyadan öncə buraya Azərbaycanın dörd bir yanından insanlar üz tuturdular. Hətta kilsənin ən çox ziyarətçi qəbul etdiyi vaxtlardan birində 300 nəfərə qədər insanı görmək olardı.

Artıq Pasxanın başlamasına az qalırdı, elə bu səbəbdən də keşişlə söhbətimizi bitirib onların gecəyə hazırlanmaqları üçün kilsə binasından çıxıb, həyətin arxa tərəfində görülən hazırlıq işləri ilə tanış olmaq üçün bir otağa daxil oluruq. Bu otaqda olan Salamia adlı qadın deyir ki, ieromonax Qreqorinin köməkçilərindən biridir və elə burada yaşayır, kilsə üçün böyük sevgi ilə çalışır. Sonra isə mətbəxdə bayrama necə hazırlaşdıqlarını göstərmək üçün isə digər xanımlarla birlikdə bişirdikləri şirniyyatlarla bizi tanış edir. Pasxa çörəyi, kuliç, qablarla dolu boyanmış yumurtalar, dua və ayinlər yekunlaşdıqdan sonra hər kəsə paylanacaq.

Salamia söyləyir ki, xristianlardan əlavə, rayonda yaşayan müsəlmanlar da Pasxa bayramına böyük diqqətlə yanaşır, hətta onların hazırladıqları çörəklərdən dadmaq üçün kilsəyə gəlirlər.

### Pasxa bayramında müsəlman qadın

Vaxt tamam olur və bayram başlayır. Kilsədə ayinlər icra edilən zaman kənarda dua edən xanımlardan birinə yaxınlaşırıq. Söhbətimiz zamanı öyrənirik ki, Könül xanım müsəlmandır. Ancaq Pasxa bayramına maraq göstərdiyindən bu gecə kilsəni ziyarət etməyə gəlib: "Bu kilsəni çox bəyənirəm, sanki bura ruhumun rahatlığına qovuşmasına, dualarımın yerinə yetəcəyinə səsləyir. Nəticədə xristianlar da, müsəlmanlar da eyni Allaha pənah gətirirlər. Elə bu gün Pasxa bayramı da bu məbədə gəlməyimə vəsilə oldu".

Könül xanımla yanaşı, kilsədə bir neçə müsəlman da var idi. Onlar da dualarını edib mərasimi izləyirdilər. Daha sonra məlum oldu ki, kilsəyə qonşu rayonlardan olan ziyarətçilər də ibadətə gəliblər.

İrəliləyən saatlarda ayinlər davam edir, mənfi ruhlardan azad olmaq üçün Qreqori atanın yandırdığı Qüdsdən gətirilən qatran isə ətrafı getdikcə tüstüyə qərq edirdi. Daha sonra sütunlardan çıxarılan ikonalar pravoslav ziyarətçilərə verilərək kilsənin başına dövr edildi. Öndə məşəllə irəliləyən azyaşlı uşaq gecənin qaranlığında arxadan gələn insanlara çıraq oldu.

Mərasim zamanı ata və köməkçiləri ağ libasdan qırmızı libasa keçid etmişdilər. Bu isə əfsanələrdən biri ilə izah edilir. Deyilənlərə görə, Məryəm Maqdalena Tiberiusun yanına gələrək Məsihin dirilməsi haqqında danışanda o inanmayıb. Roma imperatoru deyib ki, kiminsə öləndən sonra dirilməsi ağ yumurtanın qırmızıya çevilməsi qədər mümkünsüzdür. Elə bu zaman yumurta qırmızı rəngə boyanıb və İsa peyğəmbərin səmalarda qeyb olması həqiqətə çevrilib. Deyilənlərin timsalında da keşiş və köməkçiləri Məsihin dirildiyini və bayramın gəldiyini xəbər vermək üçün libaslarını dəyişmişdilər.

Gecə 03:00-a yaxınlaşır, atanın səsinə səs verən, duaları onunla bir ağızdan ritmik çalarlarla oxuyan insanlar 4 saat yorulmadan ayaq üstdə durmuşdular. Sonuncu mərasim isə keşiş Qreqorinin orucun bitdiyini elan etməsi ilə başa çatdı. Bu zaman o, altardan böyük bir qədəhlə çıxıb pilləkənlərdə dayandı. İnsanlar bir-birinin ardınca növbələrini gözləyirdilər. Ata hər birinə şəraba batırılmış çörəyi təqdim etdi. Çörək və şərab İsanın bədəninin və qanının rəmzləridir. Bununla da orucları yekunlaşan pravoslavlar 2 aylıq etiqadlarını başa vurmuş sayılırdılar.

Nəhayət, izdiham qapıya doğru irəliləyirdi. Bu vaxt anidən üzərimizə su damcıları töküldü. Ata müqəddəs suyu insanların üstünə çiləyərək onlara xoş arzu, diləklərini və dualarını səsləndirirdi. Sonuncu dəfə təbriki ucadan səsləndirdi: "Məsih dirildi!" Qələbəlikdən cavab olaraq qopan "Həqiqətən dirildi!" ifadəsi isə gecənin son cümləsi oldu.

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə baş tutan səfərimiz uğurlu oldu. Gecəni insanlara bəşəri mesajların ünvanlandığı müqəddəs məkanda keçirdik. Doğmalığı, əsl səmimiyyəti iliklərimizə qədər duyduğumuz bu yerdə ziyadəsi ilə sanki tolerantlığın ən üst pilləsinə ucalmışdıq...*

***Aydan XƏLİLOVA,***
***"Azərbaycan"***

*Bakı-Xaçmaz-Bakı*






## Şuşa Azərbaycanın mədəniyyət paytaxtıdır









# Mədəniyyət beşiyimiz

## Qalanın tarixinə dair həqiqətlər

**Əzəli-əbədi yurd yerimiz Qarabağ Azərbaycan tarixinin dərin qatlarından üzübəri mədəniyyətin, söz sənətimiz ədəbiyyatın, elmin və maarifin, sənətkarlığın beşiyi olub. Bəllidir ki, Qarabağın ədəbi-mədəni keçmişi, ictimai-siyasi həyatı Pənahəli xanın adı ilə bağlıdır.**

Bu ecazkar məkanın zümrüd qaşlı tacı olan, 1752-ci ildə əsası Pənahəli xan tərəfindən qoyulan Şuşa ilk çağlardan elə bu adı daşıyıb, xanın şərəfinə Pənahabad adlandırılıb. Şuşa sözünün etimologiyası ilə bağlı mövcud anlayışlar da maraq doğurur. Qədim Roma tarixçisi T.Korneliyə görə, bu, Qafqaz ərazisində yaşamış dondar türk tayfasına məxsus Sosu şəhəridir. Xalq əfsanəsinə görə, havası can məlhəmi, büllurtək saf olduğu üçün bu füsunkar şəhərə Şuşa (şüşə) adı verilib. Digər tədqiqatçıların fikrincə isə, Şuşa sözünün türk dilində mənası "uc", "yüksək", "şiş" məfhumları ilə bağlıdır.

Şuşa XVIII yüzillikdə öz inkişafı, tərəqqisi ilə qonşu dövlətlərin də diqqətini cəlb edən şəhərlərdən idi. Zaman-zaman başı bəlalar çəkmiş Qarabağın, Şuşamızın tarixi ilə əlaqədar tədqiqatlar aparılıb, çoxsaylı əsərlər yazılıb.

Elmi-bədii əsərlərdə, araşdırma yazılarında yurdumuzun Qarabağ bölgəsinin bəlli bir zaman kəsiyində - XVIII-XIX yüzilliklərdə təşəkkül tapmasından, bu məkanın ədəbi-mədəni mühitinin tərəqqisindən bəhs edilir. Şuşanın tarixi, əslində, Pənah xanın şəhərsalma ilə bağlı müdrik təşəbbüsünün tarixidir. Bu qurucu insan Qarabağda ənənəvi həyatın dəyişməz adət-ənənələrini, milli örnəklərin ilkin nümunələrini formalaşdıran bir şəxsiyyət kimi yaddaşlarda qalıb. "Qafqazın sənət məbədi", "kiçik Paris" adlandırılan Şuşanın tarixinə nəzər salanda Pənah xan XVIII-XIX yüzilllikl ərdə Qarabağ insanının düşüncəsində "ilk əcdad", Şuşa isə "ilk məkan" kimi xatırlanır.

Xan Şuşa qalasını Molla Pənah Vaqifin təbirincə desək, "Şişə dağı"nda ucaldır. Mirzə Adıgözəlbəyin araşdırmalarında qeyd edilir: "Hünərli ustalar, sənət sahibi və işbilən memarlar bürclər tikib, divar çəkdilər. O divarların asarı, yəni nişanəsi bəzi yerlərdə indi də durur. Xanlığın əlahiddə bayrağı, gümüş sikkəsi, damğaları, cəng vaxtı səsləndirilən döyüş nərələri vardı".

Tanınmış tənqidçi, ədəbiyyatşünas alim, filologiya elmləri doktoru, professor Rüstəm Kamalın "Pənah xanın ruhu" adlı əsərində Qarabağ dövlət kultunun əsasını məhz fövqəltəbii xüsusiyyətlərə malik bu qurucu, yaradıcı insana pərəstişin təşkil etdiyini vurğulayır. XVIII yüzilliyin ortalarından boy verən Şuşanın ilk çağlarında Pənah xan öz əshabələrini, necə deyərlər, qanadının altına almış, adil dövlət adamı kimi, sosial təsisatlar, ədalətli qanunlar yaratmış, fərmanlar imzalamışdır. "Pənah xan xanlıqda, bütün ətraflarda nizam-harmoniyanın qarantı idi. O, Qarabağ xanlığının pozulmuş sahmanını bərpa etmişdi. "Müəllif öz qəhrəmanının fövqəladə bacarığını, fədakarlığını diqqətə çatdırır: "Xorasandan, Nadir şahın əlindən qaçıb Qarabağa gələsən, burada bir dövlətin - xanlığın əsasını qoyasan və düşmənlərlə qalibiyyətlə savaşaraq varlığını qoruyasan, Şuşa kimi möcüzə şəhər salasan". Qarabağın qurucusu toplumun sabitliyinə nail olmaq üçün insanlar arasında tarixən formalaşmış sosial-mədəni münasibətlərin qorunub saxlanmasına da göz qoyur, mühüm əhəmiyyət verirdi.

Pənah xan qalanın əsasını qoymuş, möhkəm hasar çəkdirmiş, xəndəklər qazdırmış, bazar, hamam, məscid tikdirmişdi. Bütün ailəsini, qohumlarını və el ağsaqqallarının əhli-əyalını oraya toplamışdı. Xanın öz təbəəsi ilə gözəl rəftarını, xanlığın tərəqqisini eşidən, ətraf ərazidə yaşayan camaat qalaya axışırdı. Az qala əfsanələşdirilmiş bu şəxs barəsində xalq rəvayətləri yaranmışdı.

Mirzə Camal Cavanşirin yazdığına görə, Şuşa cəmiyyətinin tərəqqi etməsinin, qüdrətlənməsinin, varlığının təminatçısı olan Pənah xan Xorasan istiqamətində hərəkət edərək gələn qarabağlıları qarşılayıb onlar üçün qısa müddətdə yaşayış şəraiti yaradır. Nadir şah tərəfindən Xorasana köçürülmüş Cavanşir elləri ...özbaşına bütünlüklə oradan köçüb, vətənlərinə gəlir. "Pənah xan yanında olan adamlarla birlikdə Qarabağ ellərini qarşılamaq üçün İran və Azərbaycan sərhədinə qədər gedir, Qarabağ torpağına daxil olduqdan sonra hər kəs öz əvvəlki yurduna gedib rahatlanır..."

Pənah xanın Şuşanı yurd yeri, vətən kimi seçməsində onun qurub-yaratmaq, mühafizə etmək, tayfaya, boya məxsus olan qutsal ərazini - Şuşa qalasını göz bəbəyi kimi qorumaq missiyası, təbii ki, öndə olub. Məhz bu səbəbdən Şuşa "uca dağ başında", dəniz səviyyəsindən 1800-2000 metr yüksəklikdə, üç tərəfdən təbii müdafiəsi olan, meşələrlə örtülmüş, bir tərəfdən uçurum, digər tərəfdən sıldırım qayalarla əhatə olunmuş bir məkanda salınmışdı. Xanın bir neçə bilici və məlumatlı adamı qalanın yerini və ətrafını yoxladıqdan, buradakı iki-üç bulağı və digər su mənbələrini, quyular qazmağın mümkünlüyünü müəyyən edəndən sonra qalanın tikilməsinə qərar verilmişdi.

Tədqiqatçılar qala üçün yer seçilərkən mövcud siyasi durumun qeyri-sabitliyinin nəzərə alınması fikrini də istisna etmir, tutarlı dəlillər gətirirlər: Qala dağların arasında, möhkəm və keçilməz yerdə tikilməliydi ki, onu düşmən mühasirə edə bilməsin. Qalanın bir tərəfi dağlarda yaşayan ellərin üzünə daim açıq olmalı və mahallarla əlaqə kəsilməməliydi. Sözün bu məqamında Vaqifin məşhur şeirinin bu misraları yada düşür:

*Noluydu kim, olaydım*
*qasidin qoynundakı kağız,*
*Mən də Qələyə*
*bir yol gedəydim bu gedənlərtək...*

Bu şeir parçasından bir daha aydın olur ki, Şuşaya xalq arasında qısa şəkildə "Qala" ("Qələ") deyilirdi. Xanın ölümündən sonra onun hakimiyyətini davam etdirən oğlu İbrahimxəlil xan Cavanşir (1763-1806) rusların Qarabağ torpağına müdaxiləsinədək atasının layiqli varisi kimi tanınır, öz hökmranlığı dövründə Qalanı böyüdür, elatı başına cəm edir, təbəəsinin rifahi üçün səylər göstərir.

Qarabağın dirçəlişində böyük əməyi olan tədbirli Pənah xanın fəhmi, uzaqgörənliyi ilə mədəniyyətimizin, sənətkarlığın təməl daşları qoyulan Şuşa tədricən mərkəzə çevrilir, qonşu dövlətlərlə ticarət və iqtisadi əlaqələri genişləndirir. Şuşanın sonrakı dövrünün inkişafı məhz keçmişə bağlı olub. Öncəki inkişaf sonrakı tərəqqi üçün özül rolunu oynayıb. Müəyyən zaman keçəndən sonra isə Şuşada söz ustaları, ədəbi fikir korifeyləri, yazıçılar, şairlər, dramaturqlar, maarifçilər, dahi musiqiçilər həyat səhnəsinə çıxacaqdı.

Füsunkar təbii gözəlliyinə, zənginliyinə görə tarixin müxtəlif dönəmlərində Qarabağa, Şuşaya yadellilər diş qıcasalar da, müqavimətlə qarşılaşıblar. Lakin aradan uzun bir vaxt keçmiş, zaman qılıncını çəkmiş, xəzan yelləri əsmişdi. Qarabağımıza susayan erməni millətçiləri Şuşanı işğal etdikdən sonra şəhərin adını dəyişib "Şuşi" qoymuşdular.

Qarabağın bu gününə qayıdanda qəlbimiz dağa dönür. Müdrik sərkərdə, Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, rəşadətli ordumuzun hünəri, şəhidlərimizin al-qanıyla 44 günlük müqəddəs Vətən savaşımız böyük zəfərlə bitmiş, 30 il əsarətdə, düşmən tapdağında qalan torpaqlarımız, o cümlədən gözəl Şuşamız işğaldan azad edilmişdir.

***Zemfira MƏHƏRRƏMLİ,***
***Əməkdar jurnalist***

● Zəfər qurultayı

# Dünya azərbaycanlıları birlik və həmrəyliklərini bu dəfə Şuşadan nümayiş etdirirlər

**Azərbaycanın qədim və gözəl şəhəri, Qarabağın baş tacı Şuşa Vətən müharibəsindən sonra özünün yeni, coşqun və mənalı çağlarını yaşayır. Bu şəhər 30 ilə yaxın erməni vandallarının işğalından qurtuluşunun qüruru ilə yaralarını sarıyır, yenidən qurulur, bərpa olunur.**



### Şuşa dirçəlir, yeni növrağına qovuşur...

2020-ci il noyabrın 8-də Prezident İlham Əliyev Şəhidlər xiyabanında Azərbaycan xalqına müraciətində Şuşanın azad olunması müjdəsini verdi: "Əziz Şuşa, sən azadsan!

Əziz Şuşa, biz qayıtmışıq!

Əziz Şuşa, biz səni dirçəldəcəyik!"

Şuşanın azad edildiyi gün Prezident İlham Əliyevin sərəncamı ilə tariximizə Zəfər günü kimi yazıldı.

30 ilə yaxın davam edən işğal müddətində Ermənistanın qədim Azərbaycan şəhəri Şuşanı erməniləşdirmək cəhdləri boşa çıxdı. Şuşanın tarixini, mədəniyyətini özününküləşdirə bilməyən erməni vandallarının işğal dövründə bu şəhəri yalnız uçurub-dağıtmağa gücləri yetdi.

Prezident İlham Əliyevin söylədiyi kimi: "Şuşanın Azərbaycan tarixində xüsusi yeri vardır. Bu, bizim qədim, tarixi şəhərimizdir. Əsrlər boyu azərbaycanlılar Şuşada yaşayıb, qurub, yaradıb. Şuşa nəinki Azərbaycanın, bütün Qafqazın incisidir". İndi bu qədim, əsrarəngiz şəhərin dirçəliş dövrüdür. Vətən müharibəsində qazandığımız möhtəşəm qələbədən sonra Qarabağda tarixi və mədəni ənənələrimiz bərpa olunur, Şuşa şəhərinin işğalı ilə yarımçıq qalmış ənənəvi tədbirlər də yenidən düzənlənir. Ötən il bu şəhərdə "Xarıbülbül" Musiqi Festivalı, "Vaqif Poeziya Günləri" keçirildi. Milli Məclisin "Şuşa ilinə" töhfəsi olaraq Şuşada parlamentin komitə iclaslarının keçirilməsinə başlanıldı. 2023-cü ildə isə Şuşa "Türk dünyasının mədəniyyət paytaxtı" olacaq.

Bir sözlə, mədəniyyətimizin mərkəzinə çevrilən Şuşa öz əvvəlki növrağına qovuşur, günügündən dirçəlir, yenidən qurulur.

### Birliyin, həmrəyliyin təntənəsi, qürurun və sevincin təcəssümü

Vətən müharibəsinin davam etdiyi günlərdə Azərbaycan xalqı bir arzuda, bir amalda birləşdi. Həmin günlər ölkəmizdə uşaqdan böyüyədək hər kəs həyəcanla uzun illər düşmən işğalında qalan torpaqlarımızı Azərbaycan Ordusunun azad etməsi xəbərini gözləyirdi. Dünyanın bütün ölkələrində yaşayan azərbaycanlılar da bu duyğularla yaşayır, daha da sıx birləşərək fəallıq nümayiş etdirir, Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırırdılar. Dünyanın 30-dan çox ölkəsində Azərbaycan diaspor təşkilatlarının keçirdikləri 200-dək aksiyaya 25 mindən çox soydaşımız, eləcə də dost xalqların nümayəndələri qatıldılar. Vətən müharibəsinin davam etdiyi günlərdə 300-ə yaxın diaspor təşkilatı ayrı-ayrı ölkələrin dövlət və hökumət rəhbərlərinə, parlament üzvlərinə, beynəlxalq təşkilatlara bəyanatlar, müraciətlər ünvanladı.

Artıq hər bir azərbaycanlı dünyanın istənilən yerində fəxrlə, başıuca gəzir. Çünki Vətən müharibəsində qazandığımız zəfərlə məğlubiyyətin ağır mənəvi yükündən qurtulmuşuq. Artıq biz qalib xalqıq! Azərbaycan xalqının qəhrəmanlığı, qətiyyəti bütün dünyaya bəllidir. İndi bu qalib xalqın müxtəlif ölkələrdə yaşayan nümayəndələri Şuşada topaşıblar. Azərbaycanın mədəniyyət paytaxtı möhtəşəm bir tədbirə evsahibliyi edir. Dünya Azərbaycanlılarının V Qurultayı bu şəhərdə keçirilir.

Dünya Azərbaycanlılarının V Qurultay iştirakçıları və Diasporla İş üzrə Dövlət Komitəsinin (DİDK) əməkdaşları Fəxri xiyabanı, Birinci və İkinci Şəhidlər xiyabanlarını ziyarət etdikdən sonra Şuşa şəhərinə gəliblər. Qurultayda 65 ölkədən 400 nəfərə yaxın diaspor nümayəndəsi iştirak edir.

Xatırladaq ki, Dünya Azərbaycanlılarının I qurultayı 2001-ci il noyabrın 9-10-da, II qurultayı 2006-cı il martın 16-da, III qurultayı 2011-ci il iyulun 5-6-da, IV qurultayı 2016-cı il iyunun 3-4-də keçirilib. Növbəti qurultayın Şuşada düzənlənməsi birliyimizin, həmrəyliyimizin böyük təntənəsi, eyni zamanda 28 illik nisgildən, həsrətdən sonra Şuşaya azad səfər etməyimizin qürurunun və sevincinin təcəssümüdür.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

● Səfər təəssüratı

# Yolumuz mədəniyyət paytaxtınadır

**Mən Şuşanı kiçik yaşlarımda ziyarət etmişdim. Yaddaşımda hələ də şəhərin o qaynar həyatı, yaşıllıqları, Cıdır düzünün insanlarla dolu mənzərəsi canlanırdı. Babalarım Qarabağ xanının vəziri Mirzə Vəli bəy Baharlının və Qayıbovların yaşadığı şəhəri yenidən ziyarət etmək məndə həyəcanlı duyğular yaratmışdı.**



Qürur, həsrət dolu hisslərlə Bakıdan Şuşaya səfərimizə başladığımız ilk saatlardan xatirələr yada düşürdü. Yolumuz uzun və həyəcanlı idi. Səfərimiz də seçilirdi. Çünki geridə qoyduğumuz 30 ildə kədər və sevincin, həsrət və vüsalın qarşılaşması, zalım üzərində haqqın qələbəsi yaşanmışdı. İtkilərimiz çox olmuşdu. Bu torpaq uğrunda minlərlə qəhrəman vətən övladını şəhid vermişdik. Qadınlarımız, uşaqlarımız, qocalarımız vəhşicəsinə qətlə yetirilmişdi. Hələ də yüzlərlə azərbaycanlının taleyindən məlumatsızıq. Bütün bu itkilər yarımçıq qalmış ömürlər, arzular və bir də göz yaşları demək idi. Biz bu acıları 30 il yaşadıq. Sonda Ali Baş Komandanın müdrik siyasətinin və müzəffər ordumuzun igidliyi, döyüş əzmi sayəsində bizim olan torpaqlara qayıtdıq. Bu illər ərzində minlərlə soydaşımız torpaq nisgili ilə yaşadı, torpaq həsrətilə dünyasını dəyişdi. İndi həmin rahatsız ruhlar əbədiyyətdə rahatlıq tapmışdı.

Füzuli şəhərinə qədər Azərbaycanın müxtəlif bölgələrindən keçərək əvvəllər mütəmadi olaraq düşmənin atəş hücumlarına məruz qalmış yaşayış məntəqəsinə çatdıq. Artıq heç bir təhlükə yox idi. Təbiət də, günəş də sanki haqqın qələbəsinə sevinirdi. Növbəti mərhələ daha həyəcanlı idi. Çünki azad olunmuş torpaqlarımıza doğru irəliləyirdik. Bizə ərazini izah etmək üçün təhkim olunmuş bələdçi öncə minalardan təmizlənməmiş, əvvələr neytral bölgə sayılan əraziləri göstərdi. Məkan hələ də təhlükəli idi. Lakin təbiət öz gözəlliyini insanlara nümayiş etdirirdi.

Yol boyu Füzulinin azad olunmuş kəndlərini, rayon mərkəzini gördük. Əvvəllər xoşbəxt, qaynar həyatın olduğu yerlər viran qalmışdı. Düşmən buraların özününkü olmadığını, sahiblərinin geri dönəcəyini anlayaraq qarşısına çıxanı dağıtmaqdan başqa heç nə etməmişdi.

Bələdçinin gərgin döyüşlərin getdiyi, şəhidlər verdiyimiz Füzulinin kəndlərini göstərdikdə qürur və kədər hissləri bir-birinə qarışmışdı. Biz yenidən bu yerlərin sahibi idik. Bunun üçün canlarından keçmiş qəhrəman şəhidlərimiz və onların əzizlərinə borcluyuq. Qazilərimizə və veteranlarımıza, bu gün torpağımızın keşiyində durmuş hər bir vətən övladına minnətdarıq.

Yolumuz irəlilədikcə 30 ildə yaşananlar ixtiyarsız olaraq gözlərimizin önündən keçirdi. Getdikcə daha yüksəkliklərə qalxırdıq. 44 gün ərzində bu yollarda igid vətən oğullarının çəkdiyi əziyyət, döyüş əzmi xatırlanırdı. Bir-birinə arxa duran həmin dağları yaxından izləməsək də, ordumuzun şücaəti ilə çətin sayılan o yüksəkliklər düşmən tapdağından təmizlənmişdi. Xocavəndin dağları nadir rast gəlinən gözəllik idi. Təbiət incisi ilə qarşılaşmışdıq. Üzərinə parlaq günəş şüalarının sığal çəkdiyi dağlar ruha rahatlıq verirdi.

Bələdçinin uzaqdan Laçın dəhlizini, Xankəndini bizə göstərdiyində tezliklə o yerləri də ziyarət edəcəyimizə şübhəmiz yox idi.

Xocalının kəndlərinin və meşələrin üzərindəki yol ilə keçərkən kədərli hisslər daha da artdı. Kimi həmin o dəhşətli gecəni xatırlayaraq insanların qurtuluş üçün bu sıx meşələrdən keçmək cəhdini xatırlayıb kədərləndi, kimisi də o dəhşətli gecənin, şəhidlərimizin qisasının ordumuz tərəfindən alındığını düşünərək təskinlik tapmağa çalışdı.

Getdikcə Şuşaya yaxınlaşırdıq. Daşaltının viran qalmış mənzərəsi, dağıdılmış Topxana meşəsi düşmənin barbarlığından xəbər verirdi. Şuşanın dolamaları ayrı bir gözəllik idi. Uzaqdan ordumuzun əzmlə çıxdığı o sıldırım qayaları gördük.

Nəhayət, "Şərqin konservatoriyası", mədəniyyət mərkəzi və musiqi beşiyi Şuşaya çatdıq. Şəhərə daxil olduğumuz ilk dəqiqələrdən maraq hissimiz daha da artdı. Gözəl təbiəti, günəşi ilə bizi ilk salamlayan elə Şuşanın özü oldu. Sanki o da torpağın sahibləri üçün darıxmışdı. Yağı tapdağında qalmaq onun da bağrını incitmişdi. Burada heç bir quruculuq, abadlıq işləri aparılmamışdı. Düşmən təkcə torpaqlarımıza deyil, yaratdığımız quruculuq işlərinə də əl uzadaraq talan etmişdi. 30 il əvvəldən, bizlərdən qalmış binalar köhnəlmiş, dağılmışdı. Lakin Şuşa gözəlliyilə yenə də insanı valeh edirdi. Çünki onun memarı insan deyil, təbiətin özü idi.

Gəzinti zamanı ilk gördüyümüz yer Xanqızı bulağı oldu. Buz kimi soyuq, göz yaşı kimi duru suyu vardı. Zamanında şəhərin gözəl tikililərindən biri sayılan, qədim ornamentləri ilə gözoxşayan Xurşidbanu Natəvanın viran qalmış, dağılmış evinin önündən keçərkən isə düşmənin barbarlığının bir daha şahidi olduq.

Şuşa qalası zəhmini, əzəmətini yenə də qoruyub saxlayırdı. Sanki bu illər ərzində gözəl şəhərimizin düşmən tapdağına səbirlə, mətanətlə dözməsi üçün haqqın yetişəcəyi ana qədər ona dayaq olmuşdu. Şuşa sahiblərini qarşılayırdı. Hər kəs bu mənzərə ilə 30 illik həsrətin acısını ovundurmağa çalışırdı.

Şəhərin küçələrində düşmən tərəfindən dağıdılmış evlərə və buna cavab olaraq bizlərin quruculuq işlərinə şahid olduq. Onlar hər qarışı, hər daşı gələcək nəsillərə ötürəcəyimiz tariximizi əks etdirirdi.

Kədərli hisslər yaşadan mənzərələrdən biri də Güllü bağ adlanan yer idi. Vaxtilə biz bu bağı cənnətə çevirmişdik. İndi isə o bağdan heç bir iz qalmamışdı. Viran qalmış bağda güllər belə düşməndən üz çevirmişdi. Artıq əsl sahibləri gəliblər və onlar Güllü bağını yenidən dirçəldəcəklər.

Düşmənlərin viran qoyduğu abidələrimizdən biri də Vaqifin məqbərəsi idi. Dövlət başçısının göstərişi ilə təmir olunub abadlaşdırılan bu məqbərə yenə də qədim şəhərin gözəlliyini artırır.

Yavaş-yavaş Cıdır düzünə doğru irəliləyirik. Hər kəs bu yüksəkliyə can atır. Məhz bu yüksəklikdə - Cıdır düzündə bir daha anlayırıq ki, Şuşa bizim qürurumuz, şərəfimizdir. Şuşa bizim baş tacımızdır. Şuşa mədəniyyətimizin beşiyidir. Şuşa yenə də xoşbəxt günlərimizin şahididir. Biz 30 il ondan uzaq qalmışdıq. İndi bu həsrətə son qoyulub. Ali Baş Komandanın müdrik siyasəti və müzəffər ordumuzun igidliyi, döyüş əzmi sayəsində biz yenidən Şuşamıza qovuşmuşuq.

***Ülkər ZAKİRQIZI,***
***AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent***

# Azərbaycan gimnastikasının tarixi uğuru

## İdmançılarımız Dünya kubokunda mühüm qələbə qazandılar












Milli Gimnastika Arenasında 31 ölkədən 126 gimnastın iştirakı ilə keçirilən Dünya kuboku yarışlarının ikinci günü Azərbaycanın qrup hərəkətləri üzrə komandasının qazandığı gümüş medal ilə yadda qalıb.

Belə ki, Güllü Ağalarzadə, Ləman Əlimuradova, Kamilla Əliyeva, Zeynəb Hümmətova, Yelizaveta Luzan və Darya Sorokinadan ibarət komandamız çoxnövçülükdə 63.650 xal qazanaraq ikinci pillədə qərarlaşıb.

Qeyd edək ki, aprelin 23-də 5 halqa ilə çıxışlarına görə 33.050 xalla ikinci olan gimnastlarımız 3 lent və 2 topla da eyni nəticəni təkrarlayaraq, gümüş medal qazanmaqla yanaşı, ayr-ayrı alətlər üzrə keçiriləcək final mərhələsinə də vəsiqə əldə etmişdilər.

Həmin gün həmçinin fərdi proqramda çoxnövçülük üzrə qaliblər müəyyənləşib. Fərdi proqramda ölkəmizi təmsil edən gənclər arasında dünya çempionatının gümüş və bürünc mükafatçısı, Avropa çempionatının bürünc mükafatçısı Arzu Cəlilova və 4-cü İslam Həmrəyliyi Oyunlarının qalibi, Yay Universiadasının ikiqat gümüş mükafatçısı, Tokio Yay Olimpiya Oyunlarının iştirakçısı Zöhrə Ağamirova yekunda müvafiq olaraq 6-cı və 7-ci pilləni bölüşüblər.

Yarışların sonuncu günü - aprelin 24-də fərdi gimnastlar və qrup hərəkətləri komandaları final mərhələlərində mübarizə aparıblar. Arzu Cəlilova halqa, top və lent, Zöhrə Ağamirova isə halqa və gürzlərlə proqramlarını təqdim ediblər.

Fərdi proqramda halqa ilə hərəkətlərdə İtaliya təmsilçisi Sofiya Rafaelli qızıl medal qazanıb. İdmançının çıxışı 34.900 xalla qiymətləndirilib. Bolqarıstanlı Boryana Kaleyn (31.450 xal) ikinci, İsrail təmsilçisi Adi Asya Kats (30.350 xal) üçüncü pillədə qərarlaşıblar. Gimnastlarımız Arzu Cəlilova 29.800 xalla dördüncü, Zöhrə Ağamirova isə 29.350 xalla altıncı yeri tutublar.

Topla hərəkətdə Bolqarıstan təmsilçisi Boryana Kaleyn birinci olub. Gimnastın final mərhələsində çıxışı 33.050 xalla qiymətləndirilib. 2-3-cü yerlərdə İtaliya gimnastları Milena Baldassarri (30.800 xalla) və Sofiya Rafaelli (30.650 xal) qərarlaşıblar. Arzu Cəlilova 30.100 xalla 5-ci nəticə göstərib.

Gürzlərlə proqramda İsrail gimnastı Darya Atamanov 30.950 xalla bütün rəqiblərini qabaqlayaraq qızıl medal qazanıb. Latviyalı Yelizaveta Polstyanaya 30.700 xalla ikinci, İtaliya gimnastı Sofiya Rafaelli 29.800 xalla üçüncü olublar. Zöhrə Ağamirova 28.050 xalla 6-cı yerdə qərarlaşıb.

Lent ilə yarışın final mərhələsində Boryana Kaleynin çıxışı 29.750 xalla qiymətləndirilib və o, birinci olub. Bu, Bolqarıstan təmsilçisinin dünya kuboku yarışlarında ikinci qızıl medalıdır. İsrailli Darya Atamanov 29.200 xalla ikinci, Sloveniya gimnastı Yekaterina Vedeneyeva 29 xalla üçüncü pillədə yer tutublar. Arzu Cəlilova 27.400 xalla 6-cı olub.

Bundan sonra qrup hərəkətləri üzrə komandalar medallar uğrunda həlledici mübarizəyə qoşulub və 5 halqa ilə proqramda Azərbaycan gimnastları fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Güllü Ağalarzadə, Ləman Əlimuradova, Kamilla Əliyeva, Yelizaveta Luzan və Darya Sorokinadan ibarət komandamız final çıxışına görə hakimlərdən 32.850 xal alaraq qızıl medallara layiq görülüb. Bununla da gimnastlarımız tarixi uğura imza atıblar.

İtaliya komandası 32.450 xalla ikinci, İsrail gimnastları isə 32.050 xalla üçüncü olublar. Bununla da gimnastlarımız tarixi uğura imza atıblar.

3 lent və 2 top ilə proqramda isə Azərbaycan komandası 24.750 xalla beşinci olub. İtaliya komandası 30.400 xalla qızıl, Yaponiya 28.250 xalla gümüş, Qazaxıstan gimnastları isə 26.650 xalla bürünc medal qazanıblar.

Bakıda keçirilən bədii gimnastika üzrə dünya kuboku yarışında ən yüksək icra xalını toplamış idmançılara ənənəvi "AGF Trophy" kuboku təqdim edilib. Kubok Azərbaycan gimnastı Arzu Cəlilovaya və İtaliyanın qrup hərəkətləri komandasının üzvlərinə verilib. A.Cəlilova mükafatçılar sırasına düşə bilməsə də, yarışların təşkilatçıları tərəfindən yüksək nəticələrə görə bu mükafata layiq görülüb. İtaliya komandası isə dünya kuboku yarışlarını 3 medalla başa vurub.

Bu, Azərbaycanın gimnastikanın müxtəlif növləri üzrə bu il evsahibliyi etdiyi 5-ci beynəlxalq yarış idi. Mötəbər turnirdə 31 ölkədən 42-si fərdi və 84-ü qrup komandalarının üzvləri olmaqla 126 gimnast iştirak edib.

Bu gün gimnastika Azərbaycanda, həqiqətən, sevimli və məşhur idman növlərindən birinə çevrilib. Gimnastlarımız mühüm yarışlarda layiqli mübarizə aparır və fəxri kürsünün ən yüksək pilləsinə qalxmağa nail olurlar. Azərbaycanın özünəməxsus məşqçilik ənənələri formalaşır. Hələ yaxın keçmişdə Azərbaycan gimnastları toplanışlar üçün xaricə gedirdilərsə, bu gün digər ölkələrin idmançıları məşq toplanışları üçün ölkəmizə gəlirlər. Azərbaycan müntəzəm olaraq gimnastika üzrə Avropa və dünya çempionatlarına evsahibliyi edir. Azərbaycan gimnastika məktəbi dünya idman birliyi tərəfindən tanınır. Ölkəmizdə gimnastikanın müxtəlif növləri - bədii gimnastika, kişi və qadın idman gimnastikası, aerobik və akrobatik gimnastika, tamblinq və batut inkişaf edir. Azərbaycanın müxtəlif regionlarında gimnastika klubları və bölmələri fəaliyyət göstərir. Müntəzəm olaraq bölgələrarası kubok yarışları təşkil olunur. Bütün bunlar Azərbaycan gimnastika coğrafiyasının geniş yayılmasının gözəl sübutudur.

Azərbaycanda idman siyasəti dövlət başçısı İlham Əliyevin rəhbərliyi altında böyük uğurla həyata keçirilir. Müstəqil Azərbaycan tarixində ölkəmiz, xüsusi ilə paytaxtımız bir sıra idman növləri üzrə mötəbər yarışları təşkil etməsi ilə yadda qalıb. Gimnastika növləri üzrə yarışların keçirilməsi də artıq bir ənənəyə çevrilib. 2002-ci ildə Mehriban xanım Əliyeva Azərbaycan Gimnastika Federasiyasının prezidenti seçilib və bu vəzifədə özünü peşəkar təşkilatçı kimi nümayiş etdirib. Həmin vaxtdan bəri mövcud gimnastika növləri dirçəlib və digərləri də inkişaf etməyə başlayıb.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın beynəlxalq aləmdə artmaqda olan nüfuzu bədii gimnastika üzrə dünya kubokunun "A" kateqoriyalı mərhələsinin, dünya kubokunun, 27-ci dünya çempionatının, 23-cü, 25-ci və 30-cu Avropa çempionatlarının Azərbaycanda keçirilməsinə dair qərarın qəbul olunmasında həlledici rol oynayıb.

Bundan əlavə, batut üzrə Avropa, dünya çempionatlarına evsahibliyi etmişik. Ötən ayın əvvəlində Bakıda Akrobatika Gimnastikası üzrə XII Dünya Yaş Qrupları Yarışları, martın 10-13-də isə böyüklər arasında Akrobatika Gimnastikası üzrə XXVIII Dünya Çempionatı uğurla keçirilib.

Azərbaycan Gimnastika Federasiyasının Prezidenti Mehriban xanım Əliyevanın dediyi kimi, biz əminik ki, Azərbaycan gimnastikasının qarşıda bir çox qələbələri və nailiyyətləri olacaq. Gimnastika bu sahədə böyük potensiala malikdir və onun inkişafı üçün Azərbaycanda hər cür şərait yaradılıb. Mən inanıram ki, qazanılan uğurlar davamlı olacaqdır.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Azərbaycan "Formula-1"ə hazırlaşır

Azərbaycan növbəti "Formula-1" yarışlarına hazırlaşır. Pandemiya səbəbindən 2020-ci ildə təxirə salınmış, sonrakı il isə tamaşaçısız keçirilən bu möhtəşəm yarışın Bakı mərhələsi iyunda keçiriləcək.





"Formula-1" yarışlarının builki şüarı "F1 qayıdır: trekə və tribunaya!" olaraq müəyyənləşdirilib. 23 Qran-pridən ibarət mövsümə martın 20-də Bəhreyndə start verilib. Səudiyyə Ərəbistanı, Avstraliya və İtaliyada yarışlar mart-aprel aylarında keçirilib. Digər mərhələlər isə Amerika Birləşmiş Ştatları, İspaniya, Monako, Azərbaycan, Kanada, Böyük Britaniya, Avstriya, Fransa, Macarıstan, Belçika, Niderland, Sinqapur, Yaponiya, Meksika və Braziliyada olacaq. Çempionat noyabrın 20-də Əbu-Dabi Qran-prisi ilə yekunlaşacaq. Azərbaycanda yarışlar 10-12 iyun tarixlərdə baş tutacaq.

"Bakı Şəhər Halqası "Formula-1" Azərbaycan Qran-prisi" mövsümün ən parlaq vizuallarını təqdim edib. Bu, ilk dəfə dövlət bayrağımızın rəngləri ilə, daha vətənpərvər ruhda simvolizə edilib.

Artıq neçə gündür Bakıda "Formula 1" üzrə Azərbaycan Qran-prisinə hazırlıq işlərinə başlanılıb. Yarış zamanı vətəndaşların və sürücülərin təhlükəsizliyini təmin etmək üçün istifadə olunan beton blokların quraşdırılması gecə saatlarında həyata keçirilir. Hazırlıq işləri Xəqani küçəsi ilə Bülbül prospektinin kəsişməsindən başlayaraq bütün yarış yolunu əhatə edir. Keçən ildəkindən fərqli olaraq, budəfəki yarış tamaşaçıların iştirakı ilə keçiriləcəyi üçün artıq bulvar boyu da tribunaların quraşdırılmasına başlanılıb. Tikinti-quraşdırma işləri 6 iyunadək yekunlaşdırılacaq.

Bakı Şəhər Halqası Əməliyyat Şirkətinin Yarış Obyektinin Tikintisi üzrə rəhbəri Tom Butçer bildirib ki, bütün hazırlıqlar vaxtında başa çatdırılacaq. "Beynəlxalq Avtomobil Federasiyası da sınaqlarını həyata keçirəcək. Bu yoxlanışlardan sonra trek tam istifadəyə veriləcək. Sevindirici xəbər ondan ibarətdir ki, tribunalara və trekə qayıtmışıq. Azərbaycandakı yarışın yaddaqalan olmasını istəyirik", - deyə o, qeyd edib.

Yerli azarkeşlərin də böyük maraq göstərdiyi bu yarışa tamaşaçı qismində xeyli sayda turist gözlənilir. Ən çox bilet ABŞ, Böyük Britaniya və Niderlandda satılıb.

"Formula-1" Azərbaycan Qran-prisinin mətbuat katibi Turab Teymurov bildirib ki, azarkeşlər digər "Formula-1" yarışları ilə yanaşı, Azərbaycan Qran-prisini də dünyanın bir sıra qabaqcıl idman televiziya kanalları vasitəsilə izləmək imkanı olacaq. Qeyd edək ki, "Formula-1" yarışlarının tamaşaçı auditoriyası 1,5 milyarda yaxındır. Maraqlı fakt isə budur ki, son iki mövsümdə Bakıda keçirilən bu həyəcanlı qarşılaşma ABŞ-da izlənilən ən populyar yarış olub.

Xatırladaq ki, Azərbaycanda "Formula-1" avtomobil yarışları ilk dəfə 2016-cı ildə keçirilib. Dünya çempionatının birinci yarışı 1950-ci il mayın 13-də Böyük Britaniyanın Silverstoun trasında baş tutub. Deməli, bu cür mötəbər yarışa gec qoşulsaq da, ciddi tamaşaçı auditoriyası toplaya, başqa sözlə, milyonlarla insanın diqqətini ölkəmizə cəlb edə bilmişik. Azərbaycan Qran-prisi də ümumilikdə "Formula-1" yarışlarının və respublikamızın idman həyatına əlamətdar hadisə kimi həkk olunacaq.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Makronun qələbəsi Fransanı "parçaladı"

## Seçicilərin 28 faizi boykotu seçdi



Fransanın hazırkı lideri Emmanuel Makron prezident seçkilərinin ikinci turunda ifratsağçı rəqibi olan Marin Le Peni inamla məğlub edib. Bütün səslər hesablandıqdan sonra məlum olub ki, Makron 58,55 faiz, Le Pen isə 41,45 faiz səs qazanıb.

20 il ərzində ilk dəfə olaraq Fransa prezidenti ikinci müddətə hakimiyyətdə qalıb.

Qeyd edək ki, fransızların 28 faizi səsverməyə getməyib. 1969-cu ildən bəri bu cür kütləvi boykot olmayıb. Bundan əlavə, ikinci turda Le Pen ilə fərq beş il əvvəl qazanılmış qələbə ilə müqayisədə iki dəfə azalıb, birinci turda isə ifratsağçı iki namizədin lehinə seçicilərin 30 faizi səs verib. Onlar heç vaxt belə güclü olmayıb və buna görə də Le Pen məğlubiyyətini "böyük qələbə" adlandırıb.

Emmanuel Makron ölkənin parçalandığını etiraf edib və zəfər çıxışında bütün millətin prezidenti olacağını bildirib: "Mənə ideyalarıma görə yox, ifratsağçıların hakimiyyətə buraxılmaması naminə səs verənlər - mən sizin qarşınızda borcluyam. Mən artıq bir düşərgənin namizədi deyiləm, mən hamının prezidentiyəm".

Ekspertlərin fikrincə, britaniyalılar Breksiti təşkil etdikdən, İttifaqın qalan 27 ölkəsinin ən irisi olan Almaniya isə XXI əsrin Avropa siyasətinin əsas ağır çəkilisi Angela Merkeli istirahətə yola saldıqdan sonra Makron indi, demək olar ki, Aİ-nin simasına çevrilib.

### Fransanın müttəfiqləri razı qalıblar

Fransanın müttəfiqləri Makronun Aİ və NATO-ya qarşı qərəzli münasibəti olan Le Pen üzərində qələbəsindən razı qalıblar. Böyük Britaniyanın Baş naziri Boris Conson "Tviter"də yazıb: "Fransa bizim ən yaxın və mühüm müttəfiqlərimizdən biridir. Ölkələrimiz və bütün dünya üçün ən böyük əhəmiyyət kəsb edən məsələlər üzərində birgə işin davam etdiriləcəyinə ümid edirəm".

İtaliyanın Baş naziri Mario Dragi seçkinin yekunlarını "bütün Avropa üçün gözəl xəbər", Almaniyanın Kansleri Olaf Şolts "Avropaya inamlı etimad votumu" adlandırıb, İspaniyanın Baş naziri Pedro Sançes isə "fransızların azad, güclü və ədalətli Avropa İttifaqına dəstək verdiyini" söyləyib. "Avropa qalib gəldi. Demokratiya qalibdir", - deyə o bildirib.

ABŞ Prezidenti Co Bayden Fransanı ən qədim müttəfiq və əsas tərəfdaş adlandırıb və bildirib ki, onunla sıx əməkdaşlığı davam etdirməyə hazırdır. Kanadanın Baş naziri Castin Trüdo demokratiyanın qorunması və iqlim dəyişikliyinə qarşı mübarizə aparmaq üçün birgə işin davam etdirilməsini gözlədiyini qeyd edib.

Avropa Şurasının rəhbəri Şarl Mişel isə öz növbəsində deyib: "Bu narahat zamanda bizə daha müstəqil Avropa İttifaqına tam sadiq olan güclü Avropa və Fransa lazımdır".

Avropa Komissiyasının rəhbəri Ursula fon der Lyayen Parislə yaxşı, gözəl əməkdaşlığın davam edəcəyinə ümidvar olduğunu bildirib: "Birlikdə biz Fransa və Avropanı irəli aparacağıq".

### Qarşıdakı illər çətin olacaq

Emmanuel Makron isə öz növbəsində Parisdəki Eyfel qülləsinin qarşısında çıxış edərək etiraf edib ki, gələcək illər çətin olacaq.

Seçkiqabağı kampaniya zamanı Makron seçicilərə islahatlar və Aİ-yə daha sıx inteqrasiya vəd edib. Le Penin proqramı isə milli maraqların qorunması üzərində cəmləşmişdi.

Teledebatlar zamanı Le Pen bildirib ki, qələbə qazanacağı təqdirdə, "islamçıların zorla qəbul etdirdiyi uniforma" adlandırdığı müsəlman qadın baş geyimlərinin ictimai yerlərdə istifadəsinə qadağa qoyacaq. "Milli Birlik" Partiyasının lideri həmçinin Fransaya "anarxik və kütləvi" immiqrasiyaya son qoyacağına and içmişdi. İfratsağçı siyasətçi bildirmişdi ki, bu tendensiya cinayətkarlığı dərinləşdirir və bu səbəbdən ölkə sakinlərinin həyatı dözülməz olur.

Qeyd edək ki, Emmanuel Makron 2002-ci ildə Jak Şirakın dövründən bəri yenidən ikinci müddətə seçilmiş ilk Fransa prezidentidir.

Fransalı jurnalistlərin artıq "prezident seçkilərinin üçüncü turu" adlandırdıqları parlament seçkiləri iyunda keçiriləcək. Milli Assambleyada əksəriyyət qazanmaq hər iki namizədin partiyaları üçün çətin olacaq - xüsusilə də fransızların artan siyasi apatiyasını nəzərə alsaq. Belə ki, son 20 ildə prezident seçkilərində iştirak minimum rekord həddə çatıb - seçicilərin təxminən üçdə biri məntəqələrə gəlməyib.

*Rizvan HİLALOĞLU,*
*"Azərbaycan"*

# Ermənistan müxalifəti aksiyalara insanları pulla toplayır

## Polis zor tətbiq edir, etirazçılar silahlanırlar

İrəvanda baş verən qarşıdurma ölkədə gərgin və xaotik vəziyyət yaradıb. Müxalifət Paşinyanın baş nazir kimi ölkə idarəçiliyini davam etdirməsinə qarşı çıxaraq bir neçə gündür etiraz aksiyaları keçirir. Kürsüsünü itirmək istəməyən Nikol Paşinyan isə kütləvi etirazların qarşısını almaq üçün bütün repressiv tədbirlərə əl atır.



Dünəndən etibarən isə müxalifət İrəvanın mərkəzində müddətsiz etiraz aksiyası elan edib. Sosial şəbəkələrin çoxminlik səhifələrinin erməndilli seqmentində yayılan informasiyalardan aydın olur ki, etiraz aksiyaları istər iştirakçıların sayı, istərsə də miqyası baxımından genişlənməkdədir. Son məlumatlara görə, İrəvanda mitinq iştirakçılarının sayı 7 min nəfəri ötüb. Proseslərin bu səpkidə inkişafı baş nazir Nikol Paşinyanı ciddi şəkildə qorxudur.

Ermənistan polisi paytaxtdakı etiraz aksiyalarında kobud pozuntular aşkarlandığını açıqlayıb. Polisin bəyanatında bildirilir ki, etirazçılar dövlətə məxsus, eləcə də mülki vətəndaşların avtomobillərinin təkərlərini kəsici və deşici alətlərlə sıradan çıxarırlar. Bu isə aksiya iştirakçılarında kəsici-deşici alətlərin, yəni soyuq silahın olduğu anlamına gəlir. Buna görə də polis aksiyada iştirak edənlərə qarşı zor tətbiqini daha da gücləndirib. Yerli mətbuatın yazdığına görə, dünən 36 nəfər polis şöbələrinə gətirilib.

Bu arada müxalif "Şərəfim var" fraksiyasının başçısı Artur Vanetsyanın köməkçisi Aram Qriqoryan ermənilərə separatçı rejimə dəstək mitinqinə gəlmələri üçün pul verir. Bununla bağlı sosial şəbəkələrdə kadrlar yayılıb.

A.Vanetsyan baş nazir Nikol Paşinyanı dərhal istefa verməyə çağırıb. O, baş nazirin həbs etdirdiyi şəxslərin bu cür cəzalardan qorxmadığını bildirib. Qeyd edib ki, Paşinyan istefa verməli olduğunu yaxşı başa düşür, başqa bir seçimi də yoxdur. Müharibədə məğlub olan siyasətçinin liderliklə heç bir əlaqəsi ola bilməz. Vanetsyan artıq heç kimin Paşinyanı hökumət başçısı kimi görmək istəmədiyini diqqətə çatdırıb: "Utanmırsanmı, Nikol? Komandana töhmət ver. Onlar sonda sənə qarşı yönələcəklər. 5000 əsgərin başını yedin. Bu gün yaralanan on min vətəndaşımız var. Üstəlik, yaralıların barmağının və ya qulağının ucu kəsilməyib, onlar ayaqlarını, əllərini itiriblər. O insanların problemlərini necə həll edəcəksiniz?"

Ermənistanda yüksələn siyasi gərginlik fonunda artan xarici borclar da İrəvana müsbət heç nə vəd etmir. Əksinə, beynəlxalq təşkilatlar, müxtəlif xarici dövlətlər Ermənistana yeni borclar verilməsinə indi böyük ehtiyatla yanaşırlar. Çünki Ermənistan əvvəl aldığı xarici borcların qaytarılmasında böyük çətinliklər yaşayırlar, eyni zamanda bu ölkənin həmin borclar əvəzinə verə biləcəyi digər hər hansı resursu yoxdur. Əksər dövlət müəssisələri isə xarici borc əvəzinə çoxdan əcnəbilərin, əsasən də Rusiya şirkətlərinin əlinə keçib. Yeri gəlmişkən, qeyd edək ki, həmin müəssisələrin çoxu həm də fəaliyyətsizdir və yaxın perspektivdə işə düşmələri gözlənilmir.

İndi Ermənistanda belə hesab olunur ki, mövcud problemlərin meydana gəlməsi və dərinləşməsində Paşinyan iqtidarının yarıtmaz siyasəti əsas rol oynayır. Məhz bu ölkəni siyasi və iqtisadi müstəvidə dalana dirəyib. Eyni zamanda hakimiyyətdə təmsil olunanların yaratdıqları korrupsiya və rüşvət piramidası ölkə iqtisadiyyatının inkişafını əngəlləyən əsas faktorlardan biri olaraq qalmaqdadır.

Xarici ticarət dövriyyəsində qeydə alınan mənfi saldonun həcminin mütəmadi olaraq artması Ermənistan iqtisadiyyatının ixrac potensialının tənəzzüldə olduğunu göstərən vacib faktordur. İş o yerə çatıb ki, əvvəl Ermənistanda istehsal edilən bəzi məhsullara olan tələbat artıq idxal hesabına ödənilir. Bunun əsas səbəblərindən biri Ermənistanda fəaliyyət göstərən müəssisələrin bir çoxunun fəaliyyətini dayandırması və ya başqa ölkənin ərazisinə köçürülməsidir. Hazırda Ermənistanda əmək qabiliyyətli əhalinin 60 faizindən çoxu işsizdir. Bu rəqəm son aylar xüsusilə artıb. Buna səbəb həm də hakimiyyətin pandemiya dövrünün tələblərinə uyğun sosial-iqtisadi siyasət yürüdə bilməməsidir. "4rd.am" saytı yazır ki, ilin əvvəlindən bəri ölkədə xeyli sayda müəssisə, şirkət və səhmdar cəmiyyət, habelə biznes və ticarət obyektləri, kiçik və orta sahibkarlar fəaliyyətini dayandırıblar. Pandemiya və müharibə nəticəsində il ərzində təkcə paytaxt İrəvanda iş yerini itirmiş insanların sayı 200 mini ötüb.

Bütün bunların nəticəsidir ki, hakimiyyətin vətəndaşlar arasında heç bir dayağı qalmayıb. Paşinyanın istefasını tələb edənlərin sırası gündən-günə çoxalır.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

